This article provides a detailed study of the functional-semantic features of subjective relation and possessive affixes in Azerbaijani nouns. The main objective of the research is to analyze how these affixes modify the grammatical form of nouns without altering their lexical meaning, adding subjective, emotional, or possessive nuances. The analysis demonstrates that subjective relation affixes allow the speaker to convey evaluative, emotional, and social attitudes, while possessive affixes specify ownership and relational aspects of the noun.

The study highlights the syntactic functions of these affixes, showing how they enable nouns to occupy various roles within a sentence. For instance, subjective relation affixes enrich the noun with social and emotional connotations, enhancing the stylistic expressiveness of speech, whereas possessive affixes preserve the syntactic position of the noun while indicating ownership. The combined use of both types of affixes allows nouns to convey both personal and social nuances, increasing functional-semantic flexibility and illustrating the agglutinative morphological characteristics of the Azerbaijani language.

Through practical examples, the research demonstrates the application of these affixes and analyzes their role within the morphological and semantic system. Overall, the study shows that subjective relation and possessive affixes are fundamental mechanisms that ensure the functional-semantic richness of nouns in Azerbaijani, enhancing the social-emotional expressiveness of language.

**Keywords:** Azerbaijani language, noun, derivational affixes, subjective relation affixes, possessive affixes, functional-semantic features, morphological system, syntactic and semantic flexibility.

**Horizon Multidisciplinary Scientific Journal**
Journal homepage: https://horizonmsj.com/




Original Research Paper

# Nizami Gəncəvinin Əsərlərində Mistik Məkanların Poetikasının Tipoloji Bənzərlikləri və Struktur Xüsusiyyətləri

Zamin Babazadə
https://orcid.org/0009-0003-1395-2545
Heyvagül Həsənova
https://orcid.org/0009-0006-7982-6500
Həcər Səfərli
https://orcid.org/0009-0007-6633-6227
Rəqsanə Həsənova
https://orcid.org/0009-0007-3910-5386
Murad Qənbərov
https://orcid.org/0009-0002-5709-280X

[1, 2, 3, 4, 5]*Naxçıvan Dövlət Universitetinin magistrantı, Naxçıvan, Azərbaycan.*

Article history
Received: 12.03.2026
Revised: 19.03.2026
Accepted: 02.04.2026

*Corresponding Author: Murad Qənbərov, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan;
Email: qenberovmurad742@gmail.com

**Xülasə**

Dünyaca məşhur klassik Azərbaycan şairi Nizaminin əsərləri Azərbaycan elmi ədəbiyyatı üçün daim baza rolunu oynamışdır. Bu və ya digər elmi mövzular üçün onu əsərləri bir çox mətləbi özündə daşıyır. Klassik Azərbaycan ədəbiyyatında bir çox sahənin tədqiq olunmasına baxmayaraq məkan anlayışları ayrıca başlıq altında tədqiq edilməmişdir. Bu məqalədə biz bütün klassik ədəbi örnəkləri təhlil edə bilmədiyimizdən Nizaminin üç əsərində mövcud olan bir neçə məkan anlayışını mistik xüsusiyyətləri, onların bənzərlikləri və struktur xüsusiyyətlərinə yer verəcəyik.

Burada əsas məqsəd Nizaminin əsərlərində mövcud mistik məkan anlayışlarının bənzərliklərini və struktur xüsusiyyətlərini araşdırmaq, onların mifoloji qaynaqlarına baxmaq, şərh və izahlar təqdim edərək mətn daxili izahlarını verməkdir.

Nəticə olaraq bu qənaətə gəldik ki, hər üç əsərdə mistik məkanlar ya bir başa ya da dolayısı ilə Nizaminin iç dünyası ilə və ya dini mətnlərlə bağlıdır.

Məqalədə müqayisəli analiz, şərh və mətn analizi metodlarından istifadə edilmişdir.

**Açar sözlər**: Nizaminin əsərlərində tipoloji bənzərlik, poema, eşq, fəlsəfi yanaşma, mistik məkan

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 22-27
**DOI:** https://doi.org/10.5281/zenodo.19571520

# GİRİŞ

Azərbaycan ədəbiyyatının klassik irsində xüsusi yer tutan böyük söz ustadı Nizami Gəncəvi yalnız poetik dilin zənginliyi ilə deyil, həm də yaratdığı obrazlar sistemi, fəlsəfi düşüncə qatları və məkan təsvirlərinin dərinliyi ilə seçilən sənətkarlardandır. Onun yaratdığı poetik dünya yalnız real hadisələrin təsviri ilə məhdudlaşmır, eyni zamanda mənəvi, simvolik və mistik qatların sintezi ilə formalaşan çoxplanlı bir bədii məkan yaradır. Xüsusilə şairin məşhur poetik silsiləsi olan Xəmsə daxilində yer alan əsərlərdə məkan anlayışı təkcə hadisələrin baş verdiyi fiziki mühit kimi deyil, həm də simvolik və mistik məna daşıyan poetik element kimi çıxış edir.

Nizami Gəncəvinin əsərlərində təsvir olunan məkanlar çox vaxt adi coğrafi mühitdən kənara çıxaraq mənəvi aləmin, daxili təlatümlərin və ilahi həqiqət axtarışının rəmzinə çevrilir. Dağlar, səhralar, bağlar, saraylar, mağaralar və müxtəlif qeyri-adi məkanlar şairin poetikasında yalnız dekorativ funksiyaya malik deyil; onlar qəhrəmanların mənəvi inkişaf yolunu, daxili dəyişimini və mistik təcrübəsini ifadə edən semantik mərkəzlər kimi təqdim olunur. Bu baxımdan Nizami yaradıcılığında məkan təsviri həm estetik, həm də fəlsəfi məna yükü daşıyır və əsərlərin ideya strukturunun mühüm komponentinə çevrilir.

Bu məqalədə Azərbaycan ədəbiyyatının qədim dövrünün önəmli simalarından biri olan Nizami Gəncəvinin poemalarında təsvir olunan mistik məkanlar məsələsinə xüsusi diqqət yetirilmişdir. Tədqiqatın əsas məqsədi şairin əsərlərində mövcud olan məkanların sadəcə fiziki mühit kimi deyil, müəyyən mistik və simvolik məna ilə yükləndiyini göstərməkdir. Nizami bir çox hallarda real və ya tanış məkanlara mistik, bəzən isə sehrli çalarlar əlavə edərək onları yeni poetik məna qatları ilə zənginləşdirir. Bu isə əsərlərin bədii atmosferini gücləndirir, poetik təsvirlərin təsir gücünü artırır və oxucuda fərqli estetik təəssürat yaradır.

Məqalədə həmçinin bu mistik məkanların əsərin ümumi poetikasına necə təsir etdiyi, hadisələrin inkişafında və obrazların daxili dünyasının açılmasında hansı funksiyanı yerinə yetirdiyi araşdırılır. Burada məkanlara fərqli mənaların yüklənməsi, onların bədii strukturdakı rolu və tipoloji bənzərlikləri xüsusi diqqət mərkəzində saxlanılır. Nizaminin poetikasında mistik məkanların yalnız təsviri element deyil, həm də fəlsəfi və simvolik məna daşıyan struktur komponent kimi çıxış etdiyi göstərilir.

Tədqiqat zamanı əsasən müqayisəli-tipoloji və poetik təhlil metodlarından istifadə edilmişdir. Bu metodlar vasitəsilə Nizami poemalarında yer alan müxtəlif mistik məkanların struktur xüsusiyyətləri, onların poetik funksiyası və digər oxşar motivlərlə bənzərlikləri araşdırılmışdır. Məqalənin aktuallığı isə ondan ibarətdir ki, klassik Azərbaycan ədəbiyyatında məkan poetikasının mistik və simvolik aspektləri hələ də geniş və sistemli şəkildə tədqiq olunmamış sahələrdən biri hesab olunur. Bu baxımdan Nizami Gəncəvinin əsərlərindəki mistik məkanların poetik və struktur xüsusiyyətlərinin araşdırılması həm klassik irsin daha dərindən anlaşılmasına, həm də Azərbaycan ədəbiyyatşünaslığında bu mövzunun elmi baxımdan zənginləşdirilməsinə xidmət edir.

Əsas hissə

Nizaminin bütün əsərlərinə məkan anlayışı xüsusi məna yükü daşıyır. “Leyli və Məcnun” əsərində səhra mistik məkan sayılır. Nizami burda səhranı yanlızlığın rəmzi olaraq verib. Çünki səhra insanlara çox uzaqdır. Məcnun insanlardan uzaq qala bilmək üçün səhraya çəkilmişdir. Nümunələrdən birinə nəzər salaq,

O yatağı səhra, o balıncı dağ (Gəncəvi, 2004. I s. 12).

Bu misrada aydın görünür ki, Məcnun üçün yatağı səhra, balıncı dağ olmuşdur. Yəni Məcnun o qədər çox əziyyət çəkib ki, yatağı səhra kimi sakit, səssiz, balıncı isə dağ qədər əzəmmətli olmuşdur. Burdan da bizə bir daha aydın olur ki, Məcnun həmin dövrdə özünü tənha hiss edib. Beləliklədə səhraya və dağa sığınıb. Dastanlarda dağlar xalqın və qəhrəmanların düşməndən qorunduğu təhlükəsiz məkan kimi təsvir olunur. Çətin vəziyyətlərdə qəhrəman dağlara çəkilir və orda gizlənərək güc toplayır.Dağ həm də göylə yer arasında əlaqə yaradan müqəddəs məkan kimi qeyd olunub. İnsanlar onu anlamasa da, üz tutduğu səhra onu anlayır və ona yurd-yuva olur. Səhra burda Məcnunu cəmiyyətdən qoruduğu üçün qoruyucu funksiya yarinə yetirmiş olur. Çünki Məcnun burda azaddır. Burda həm də səhra Məcnunun eşqini cəmiyyətin müdaxiləsindən qoruyan onu mənəvi kamilləşməyə aparan məkandır. Dağ yüksəklik, əlçatmazlıq və möhkəmlik simvolu olduğu üçün çox vaxt sığınacaq və himayə məkanı kimi çıxış edir. Beləliklə səhra və dağ Məcnun üçün sığınacaq və qoruyucu rol oynanayır.

“Murad sarıyı” ifadəsi mistik məkan anlayışı ifadə edir.

Murad sarayının gözəli sənsən.
Səndən yaranmışdır incə hisslər,
Gözəl təbiətin yaranmış ənbər (Gəncəvi, 2004. I s. 172).

Burada “Murad sarayı” yalnız fiziki məkan kimi deyil, həm də arzuların çin olduğu, bütün xəyalların gerçəkləşdiyi poetik bir aləm kimi təqdim olunur. Bu məkanın mistikliyi ondadır ki, burada insanın sonsuz arzu və diləklərini ifadə etmək imkanı yaranır, hər bir istək və arzu gerçəkləşmək potensialı daşıyır. “Murad sarayı” həm simvolik, həm də mənəvi məna daşıyan

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 22-27
DOI: https://doi.org/10.5281/zenodo.19571520

bir məkan kimi çıxış edir; o, oxucuya yalnız bədii təsvir təqdim etmir, həm də arzu və ümidlərin realizasiyasının mümkünlüyünü poetik bir dildə göstərir. Burada arzuların və istəklərin gerçəyə çevrilməsi prosesi, sarayın mistik funksiyası ilə birləşərək, məkanın poetik təsirini daha da gücləndirir və əsərin ideya-estetik qatlarını zənginləşdirir.

Dördüncü mistik məkan "Dostlar sarayıdır"

Bağ, bostan yoludur ölümün izi,
Dostlar sarayına aparır bizi. (Gəncəvi, 2004. I s. 19)

Bu misralarda ölümə gedən yolun bağ və bostan yolu kimi bərəkətli olduğu vurğulanır. Bostan yalnız fiziki məkan kimi deyil, həm də əziyyət və səbrin vəhdətdə təşkil olunduğu, insanın daxili səbrini sınayan mistik bir məkan kimi çıxış edir. Dost sarayına gedən yol isə səbrli və dözümlü olmağı tələb edir; bu yol həm də hikmət dolu bir sınaq məkanıdır.

Mistik məkanlar sırasına daxil olanlardan biri də bağdır. Nizami aşağıdakı misrada bu bağı necə mistikləşdirdiyini göstərir. "Bağ" anlayışı yalnız fiziki gözəlliyi ilə seçilən bir məkan deyil; o, həm də ruhun, mənəvinin və ideala çatmaq yolunun simvolu kimi təqdim olunur. Burada təbiət elementləri, bərəkət və harmoniyanın birləşməsi, bağın sadəcə bir bədii dekorasiya olmadığını, həm də insanın daxili aləminin əksini verdiyini göstərir. Beləliklə, Nizami bu misrada bağı mistik bir məkan kimi təsvir edərək, onu oxucu üçün həm poetik, həm də simvolik bir aləmə çevirir.

Ey cənnət bağı tək açarsız olan (Gəncəvi, 2004. I s. 185)

Bu misrada "Cənnət bağının" çox ulu və uca bir mövqedə yerləşdiyi açıq şəkildə vurğulanır. Açarsız olmaq yalnız Allahın yaratdığı ən uca, müqəddəs məkanlar üçün xarakterikdir və bu da bağın mistik statusunu daha da gücləndirir. Cənnətdəki bağ isə təkcə fiziki gözəlliyi ilə deyil, həm də bütün nemətlərin toplandığı, bərəkət və mükəmməlliyin təcəssümü olan bir məkandır. Burada hurilər və mələklər yaşayır, hər element metaforik olaraq insanın mənəvi aləminin müxtəlif qatlarını, ali mənəvi dəyərləri və ruhun saflaşmasını simvolizə edir. Məcnun artıq uzun müddət əzab-əziyyət çəkdiyindən günahları onu tərk etmişdir; nəticədə onun yeri artıq cənnət, yəni mələklərin yanıdır və bu, onun ruhani yüksəlişinin, mənəvi təmizliyinin poetik ifadəsidir.

Yuxarıdakı "fələk behişti tək gizli gülüştan" ifadəsi isə bağın nə qədər müqəddəs, ali və uca bir mətbəqədə təsvir olunduğunu göstərir. Bu, onun yalnız fiziki yox, həm də mənəvi və simvolik səviyyədə yüksək statusunu vurğulayır.

Bundan əlavə, xalq dilində "yuxarı" anlayışı əksər hallarda ucalıq, ali mövqe və müqəddəslik mənasını daşıyır. Bu yanaşma xalq ədəbiyyatında da açıq görünür; məsələn, ortaq türk dastanlarından olan "Yaradılış" dastanında Tanrı obrazı göyün yuxarı qatlarından dünyanı idarə edir və bu yuxarı qatlar ali gücün, hikmətin və müqəddəsliyin simvolu kimi çıxış edir (Ağbaba, 2008).

Digər nümunələrə də nəzər saldıqda görürük ki, Nizami real məkanı mistik məkan kimi təqdim edə bilmişdir.

Müşk səpdiyi yer Xəllux adlansın.
Camalı gözlərə daim nur versin (Gəncəvi 2004, III. səh 23).

Bu misralarda Xəllux əslində Orta Asiyada bir şəhərdir, lakin mistikada və bu poemada ilahi gözəllik və ətir məkanı rəmzidir. Şair burada müşk səpildiyi yəni gözəl ətirlərin, gözəl qoxuların olduğu yeri Xəllux adlandırmışdır. Burada mistik mənada sevgilinin ayaq basdığı gəzdiyi yerlər Xəllux adlandırılmışdır.

Başqa bir nümunədə heç bir yer mənasına gələn "qeyb" sözünün ilahi varlığın laməkan anlayışına uyğun şəkildə işləndiyini və mistik xüsusiyyət daşıdığına şahid oluruq.

Qeybdən səs gəldi: - Nizami, dayan!
O bütlərə məftun olma, düşün bir, (Gəncəvi, 2004. III s.26).

Bu beytdə "qeyb" insanın duyğu orqanları ilə dərk edə bilmədiyi, yalnız Tanrıya məlum olan gizli sirlər aləmidir. "Qeybdən səs gəlməsi" şairin və ya insanın ilham alması, ilahi bir xəbərdarlıqla doğru yola yönəldilməsi deməkdir. Burada şair özünə müraciət edərək özünü doğru yola yönəldir. Mistik məna isə burada heç kim tərəfindən məlum olmayan qeyb aləmidir.

Dörd gövhər bəxş etdi qara yerə o.
Elə başlamışdır yaradılışa, Nizami Gəncəvi "Xosrov və Şirin" poeması. Səh 25

Nizami Gəncəvi bu misrada kainatın və insanın yaradılışındakı vəhdəti simvolizə edir. "Qara yer" ifadəsi burada həm yaşadığımız maddi dünyanı, həm də insanın torpaqdan yaranmış bədənini ifadə edir. Görünüşdə cansız və adi bir maddə kimi təqdim olunan bu dünya və bədən, Yaradan tərəfindən "dörd gövhər" — yəni od, su, hava və torpaq kimi əsas ünsürlərlə zənginləşdirilmişdir. Bu ünsürlər sayəsində maddi aləmə həyat verilmiş, ona nizami bir struktura sahib olmaq imkanı tanınmışdır. Nizami bu ünsürləri "gövhər" adlandırır; çünki gövhər yalnız qiymətli daş qaşı mənasında deyil, eyni zamanda elm, hikmət və yüksək mənəvi dəyəri simvolizə edir. Beləliklə, bu ifadə vasitəsilə Nizami maddi dünyanın və insan bədəninin görünməz dəyərlərlə dolu olduğunu, hər bir elementin kainatdakı nizam və hikmətlə birləşdiyini poetik şəkildə oxucuya çatdırır və onların əhəmiyyətini vurğulayır.

Qürbətdən dünyaya buyruq olmasa.
Şüura hikmətin nuru dolmasa, (Gəncəvi, 2004 III s. 28)

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 22-27
DOI: https://doi.org/10.5281/zenodo.19571520

Bu misrada qürbət bildiyimiz vətəndən ayrı düşmək mənasını vermir. Qürbət dünyadan ayrı yer olaraq təsvir olunur. Real dünyadan ayrı olan başqa bir yer təsvir olunur. Yəni dünyadan uzaq bir yer qürbət adlanıb. Əgər bu söz real məkanı əks etdirsəydi dünya daxilində bir yeri bildirərdi. Yəni insan qürbətdə dünyaya buyruq olub sözünü keçirə bilmir.

İzzət sarayına layiq görünən.
Bir xidməti ummaq olarmı bizdən? (Gəncəvi, 2004 III s. 32)

Mistik mənada bu, Tanrının ucalıq və əzəmət məqamıdır. Maddi saraylardan fərqli olaraq, ora ancaq ruhən saflaşmış, təkəbbürdən uzaq olanlar yaşayır.Yəni bu saray Nizaminin təssəvüründə yüksək bir məqamdır ki, buraya insanlar real bir yerə, məkana gedər kimi yox mənəvi cəhətdən yüksələrək çata bilərlər. Bədii düşüncədə daxili memarlıq modeli anlayışı yada düşür. Belə ki, insan düşüncə və şüurunun, mənəviyyatının hər hansı bir memarlıq obyektinə çevrildiyini görürük. "İzzət sarayı" ifadəsində isə ev sahibinin izzətinin böyüklüyünü, səxavətini göstərmək üçün "saray" ifadəsi işlənmişdir. Ümumiyyətlə Nizaminin əsərlərində bir çox yerlərdə saray mistik məkan kimi çıxış edir. Məhz elə "Leyli və Məcnun'' poemasında da səhra mistik məkan kimi yanlızlığı təsvir edir. Məcnunun insanlardan qaçıb-qurtulduğu yer olmuşdur. Bu misrada isə tamamilə fərqli bir mənanı yüksək bir yeri yüksək təhammülə çatmış insanların yaşadığı yeri təsvir etmişdir.

Bu dərdli başıma lütf et, şəfa ver!
Əhməd türbətindən mənə dəva ver! (Gəncəvi, 2004 III s. 36)

Əhməd türbəti şəfa və şəfaət məkanıdır. Mistik mənada bura ruhun şəfa tapdığı müqəddəs sığınacaqdır. Burada insanlar şəfa tapırlar. Şair "Əhməd türbəti" dedikdə peyğəmbərin şəfaətini nəzərdə tutur. Bu, insanın çıxılmaz dərdlərdən qurtulmaq üçün üz tutduğu ən uca ruhani məqamdır. Bu dünyada yerləşən real bir şəfa tapılan yer deyil.Bu ruhun şəfa tapdığı mistik məkanı bildirir.

Şəriət evinə qoymuşdur dörd hədd,
Qurmuş dörd divarla bir əbədiyyət. (Gəncəvi, 2004 III s. 36)

Adi ev bizi yağışdan, soyuqdan qoruduğu kimi, "şəriət evi" də insan ruhunu mənəvi cəhətdən qoruyur. Lakin adi ev fani və maddi olduğu halda, Nizami bu evi "əbədiyyət" üzərində qurulmuş sayır. Çünki onun qanunları zamana deyil, ilahi iradəyə söykənir. Mistik mənada bu "dörd divar" ruhun təkamül etdiyi dörd əsas sütunu təmsil edir: İnsan palçığı dörd ünsürdən od, su, hava, torpaqdan yoğrulub. "Şəriət evi" bu dörd ünsürün yaratdığı ehtirasları və ziddiyyətləri cilovlayan divarlardır. Divar burada məhdudiyyət deyil, qorunmaqdır.

Dirilik suyudur şerim, avazım.
Göbəkdə tək qalıb müşkləşmişəm, (Gəncəvi, 2004 III s. 55)

Zülmətdə gizlənmiş əfsanəvi suyun məkanıdır. Dirilik suyu yerləşən bir məkan yoxdur. Dini mətnlərdə daha çox dilirlik suyundan bəhs olunur. Ancaq onun real təzahürünə rast gəlmirik. Makedoniyalı İsgəndər bu suyu tapmaq üçün böyük ordularla yola çıxsa da, o, suyu tapa bilmir.

Ülkərə baş vuran şah məclisində.
Yeri öpüb, şaha təzim et sən də. (Gəncəvi, 2004 III s. 57)

Şahın məclisi o qədər ucadır ki, o, yerdə deyil, ulduzların qatındadır. Ulduzların qatı da Ülkər sözü ilə təsvir olunub. Bu, Allahın hüzuru və ya kamil insanın mənəvi daxirəsidir. O yer o qədər ucadır ki, ora ancaq ruhən yüksəlmiş kəslər daxil ola bilər.

Səxa dünyasında ondan baş olmaz.
Onun taxtı parlaq günəş adlanır, (Gəncəvi, 2004 III s. 59)

Maddi dünyadan fərqli olaraq, burada yalnız vermək və fədakarlıq hökm sürür. Reallıqdan uzaq daha çox arzu olunan həyat təsvir edilir.

Ağlından Ütarid sünbül topladı,
Odur Sünbül qaldı evinin adı. (Gəncəvi, 2004 III s. 61)

Ütarid (Merkuri) klassik ədəbiyyatda ağlın və elmin rəmzidir. Onun şahın ağlından "sünbül toplaması" bilik öyrənməsi deməkdir ki, şahın ağlı kainatın ən yüksək intellektindən də üstündür.

Qəflətdə yaşayıb dolanmaq olmaz.
Qırx yaşa qədərdir həyat nəş əsi, (Gəncəvi, 2004 III s. 73)

Qəflət dedikdə bu da dini mətlərə əsasən həqiqətdən uzaq bir aləm nəzərdə tutukur. Bu aləm insanın daxilində ruhunda yerləşir.

Zöhrə haləsini silkələyərdi.
On Kamanı birdən dartan bir insan. (Gəncəvi, 2004 III s. 79)

Mistik mənası: Zöhrə göyün üçüncü qatında sevinc, musiqi və gözəllik ulduzudur. Xosrovun oxunun ora çatması, onun qüdrətinin sadəcə yer üzünə deyil, astral (ulduzlar) aləminə qədər uzandığını göstərir. Bu reallıqdan uzaq bir məkan və hadisədir.

"Sirlər evi" desəm, haqdır, qoynuna.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 22-27
DOI: https://doi.org/10.5281/zenodo.19571520

Şahzadə xəlvətdə ona yanaşdı, (Gəncəvi, 2004 III s. 79)

Real həyatda sirlər evi deyə bir məkan mövcud deyil buradakı məkan gizli hadiələrin baş verdiyi yer kimi təsvir olunur.

Zühəl pərgarından yer mərкəzinə.

Nə varsa öyrəndi, doymadı yenə. (Gəncəvi, 2004 III s. 79)

Zühəl ən yüksək göy qatıdır (yeddinci göy), yer mərkəzi isə ən aşağı nöqtədir. Burada göyün yeddinci qatı nəzərdə tutulur.

Orda nurdan doğmuş dünya taparsan.

Gözlərin nurudur, özü də cavan, (Gəncəvi, 2004 III s. 115)

Şair Xosrovun vücudunu bir coğrafiya kimi təqdim edir: o vücudda "nur" hakimdir. Nurdan doğulan dünya dedikdə Xosrov nəzərdə tutulur.

Elə кi, bir səhər Çin xəznədarı

Zər qıfılla örtdü göy qapıları, (Gəncəvi, 2004 III s. 121)

Burada Günəş "Çin xəznədarı"na, ulduzlar isə "zər"ə (qızıl pullara) bənzədilir. Səhərin açılması göyün gizli xəzinələrinin örtülməsi və yer üzündə "Çin nəqşi"-nin (işıqlı dünyanın) üzə çıxmasıdır. Bu, ruhun qaranlıqdan (cahillikdən) nura (bilincə) keçid məkanıdır.

Bəlкə burdan getsəm düz gündoğana,

Çataram günəşə, yetərəm ona. (Gəncəvi, 2004 III s. 146)

Gündoğan (Şərq) işığın, nurun və ilahi ilhamın mənbəyi sayılır. "Günəş" burada Şirinin (və ya ilahi gözəlliyin) rəmzidir. Xosrovun fiziki olaraq Şərqə tərəf getməsi, mistik mənada ruhun qaranlıqdan (məyusluqdan) nura (ümidə) doğru səfəridir. O inanır ki, nurun doğduğu məkana getsə, itirdiyi həqiqəti tapa bilər.

Xərabəyəm, sən də abad olma heç!

Buğda göstərərək arpa satırsan, (Gəncəvi, 2004 III s. 167)

Mistik mənası: Burada da ilahi konsepsiya yer alır. Xərabə yer olaraq yox insanın daxili hissləri olaraq verilir. Yəni mənin daxilim iç dünyam xərabəlikdir. Sən öz daxilini təmiz saxla və abad et.

Şəkər dolu bir ev, qənd dolu şəhər.

Bilmirdi güclüdür gələn zöhrələr, (Gəncəvi, 2004 III s. 179)

Bu ifadə maddi bir məkanı deyil, "Ləzzət" və "Həsrətin bitməsi" halını təsvir edir. Real həyatda belə bir məkan da yoxdur.

İsgəndərnamə əsərində də digər əsərlərində olduğu kimi mistik məkan anlayışına yer ayrılmışdır.

Əsərdə mistik məkana nümunə olaraq “torpaq”, “ yuxarı”, “aşağı” sözləri işlənmişdir.

Yuxarı, aşağı -nər gözə çarpan (Gəncəvi, 2004, II s. 15)

Bu hissədə yuxarı, aşağı olaraq işarə olunan yeni yer , göy nəzərdə tutulur. Nizami bu hissədə kainatın yuxarı və aşağı hissəsində nə qədər gözə çarpan, diqqət çəkən məkanlar varsa ona işarə olunub.

Torpağın köksündə qələm işlədən (Gəncəvi, 2004, IV s. 15)

Bu hissədə isə ona işarə olunur ki, Allah o qədər alidir ki , hətta torpağın bağrında qələm işlətməyə də qadirdir. Mistik baxımdan bu ifadə gizlin həqiqətləri üzə çıxardan, kainat və yaradılışın sirlərini ortaya qoyan qüvvəni ifadə edir. Sanki şair burada onu ifadə etmək istəyir ki, kainatın taleyi və sirri görünməz bir “qələm” tərəfindən yazılır.

Göyə ucalsa da düşüncə, fikir (Gəncəvi, 2004, IV s. 16).

Mistik baxımdan baxanda belə nəticəyə gəlmək olar ki, insan düşüncəsi göylərə qədər yüksələ bilər , amma ilahi həqiqətin və kainatın sirlərinin hamısını dərk etmək yenə də çətindir.

Bu köhnə dəzgahdan düşərsəm uzaq,

Tərk edər məni bu gözüm, qulağım (Gəncəvi, 2004 IV s. 18)

Şair burada mistik cəhətdən onu demək istəyir ki, dünya köhnə dəzgahdır. Əgər bu dünyanın köhnə və fani nizamından uzaqlaşa bilsəm, mənəvi həqiqətə yaxınlaşaram.

Burda da insanın məzara girəndən sonrakı halını təsvir edən şair öləndən sonrakı zamanda bütün bədən əzalarının insana necə düşmən kəsilərək onu tərk etməyindən bəhs edir. Mistik baxımdan bu misra bədənin faniliyini və ruhun əbədilik ideyasını ifadə edir. Yəni bədən torpağda qalır, ruh isə mənəvi aləmə yönəlir.

Nizami yaradıcılığında mistik məkanlar əsasən iki böyük qrupa bölünür:

Zülmət Dünyası: İsgəndərin “Dirilik suyu”nu axtarmaq üçün getdiyi qaranlıq dünya. Bura maddi aləmdən mənəvi aləmə keçid simvoludur. Xoşbəxtlər Şəhəri (Utopiya): Heç bir dövlət quruluşu, hakimiyyət və bərabərsizlik olmayan ideal cəmiyyət. Nümunə kimi İsgəndərin Nüşabənin ölkəsinə gələn zaman buranı cənnətə bənzədərək duyduğu heyranlıq bariz nümunədir.

Bu məkanlar təsadüfi elementlərdən deyil, müəyyən bir nizama əsaslanan mistkadan ibarətdir:

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**DOI:** https://doi.org/10.5281/zenodo.19571520

Təcrid olunma: Mistik məkanlar həmişə keçilməz dağlar, dənizlər və ya zülmət arxasında yerləşir. Bu, həmin məkanın "adi" insana deyil, yalnız ruhən yetkinləşmiş şəxsə (kamil insana) açıq olduğunu göstərir.

Zamanın dayandığı məkan: Bu ərazilərdə zaman anlayışı bizim bildiyimiz fiziki zamandan fərqlənir. Məsələn, Xoşbəxtlər şəhərində ölüm və qocalıq fərqli qarşılanır, bura əbədi bahar məkanıdır. Yəni bu o deməkdir ki, insanlar o qədər xürrəm həyat sürürlər ki, onlar qocalığın nə olduğunu bilmirlər.

Təsvir olunan şəhərlər və saraylar (məsələn, Nüşabənin sarayı və ya ideal şəhər müəyyən bir memarlıq və kainat nizamı ilə üst-üstə düşür.Quranda göylərin yeddi qat  göy olduğu haqqında məlumat verilir. Hər qat göy müəyyən bir funksiyaya malikdir və kainat qat-qat nizamlanmışdır.

Xoşbəxtlər şəhəri isə göstərir ki, daxili işığa çatan insan yalnız ədalətli bir cəmiyyətdə həqiqi xoşbəxtliyi tapa bilər.

Struktur olaraq hər iki məkan "dünyəvi" reallıqdan kənardadır. İsgəndər bu məkanlara daxil olanda artıq sadəcə bir fateh deyil, bir filosof-peyğəmbər obrazına çevrilir. Nizami bu poetik məkanlar vasitəsilə oxucunu yer üzündəki maddi ehtiraslardan uzaqlaşdırıb, mənəvi ucalığa dəvət edir.

Nəticə:

Ədəbiyyat siyahısı

1.Nizami Gəncəvi "Leyli və Məcnun" .Bakı. "Lider Nəşriyyat"2004
2.Nizami Gəncəvi " İsgəndərnamə" Bakı "Lider Nəşriyyatı" 2004
3.Nizami  Gəncəvi  "Xosrov və Şirin" poeması. Bakı "Lider Nəşriyyatı" 2004
4.Nizami Gəncəvi, "İsgəndərnamə", Bakı, "Lider Nəşriyyatı" 2004.
5.A.Ağbaba: Mifologiya (Filologiya fakültəsinin tələbələri üçün dərs vəsaiti). Sumqayıt: 2008. 60 səh.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**Horizon Multidisciplinary Scientific Journal**
Journal homepage: https://horizonmsj.com/



Original Research Paper

# Gənclər Jarqonunun Azərbaycan Ədəbi Dilinə Mənfi Təsiri

**Arzu Abbasova**[1]
https://orcid.org/0009-0005-3264-9538

[1] *Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.*

*Article history*
Received: 10.03.2026
Revised: 22.03.2026
Accepted: 02.04.2026

*Corresponding Author: Arzu Abbasova, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan;
Email: arzu10822@gmail.com

**Xülasə**
Bu məqalədə Azərbaycan gənclər jarqonunun formalaşma xüsusiyyətləri, struktur-semantik xüsusiyyətləri və onun Azərbaycan ədəbi dilinə mənfi təsir mexanizmləri araşdırılmışdır. Gənclər jarqonu əsasən sosial mühit, qlobal kommunikasiya, informasiya texnologiyalarının inkişafı və kütləvi mədəniyyətin təsiri nəticəsində formalaşaraq dinamik xarakter daşıyır.
Bundan əlavə, gənclər jarqonunun təsiri nəticəsində nitqdə sintaktik sadələşmə, qeyri-rəsmi ifadə tərzinin üstünlük qazanması və normativ cümlə modellərindən kənara çıxma halları müşahidə edilir. Jarqon vahidləri bəzən ədəbi dilin üslubi sabitliyini zəiflədir, dil vahidlərinin semantik dəqiqliyini azaldır və nitq mədəniyyətinə mənfi təsir göstərir. Xüsusilə qeyri-rəsmi ünsiyyət mühitində jarqon elementlərinin geniş istifadəsi gənclərin ədəbi dil normalarına uyğun nitq vərdişlərinin formalaşmasını çətinləşdirə bilər.
Tədqiqat nəticələri göstərir ki, gənclər jarqonu sosial qruplar arasında identiklik ifadə vasitəsi kimi çıxış etsə də, onun həddindən artıq istifadəsi ədəbi dilin normativ sabitliyinə və funksional saflığına müəyyən dərəcədə mənfi təsir göstərir. Bu baxımdan gənclər jarqonunun dil sistemində yayılma xüsusiyyətlərinin öyrənilməsi və ədəbi dil normalarının qorunması mühüm əhəmiyyət kəsb edir.
**Açar sözlər:** Azərbaycan dili, gənclər jarqonu, ədəbi dil, dil normaları, leksik dəyişikliklər, semantik transformasiya

## Giriş

Dil hər bir cəmiyyətin mədəni və sosial həyatında mühüm rol oynayır və zamanla onun funksional, leksik və semantik strukturu müxtəlif sosial qrupların təsiri altında dəyişir. Bu proseslər bəzən dilin inkişafına töhfə versə də, bəzi hallarda ədəbi dil normalarının zəifləməsinə və qeyri-normativ dil elementlərinin geniş yayılmasına səbəb ola bilir. Xüsusilə gənclər arasında formalaşan jarqon dili müasir sosial dinamikanın və kommunikativ dəyişikliklərin nəticəsi kimi meydana çıxsa da, onun geniş istifadəsi ədəbi dilin sabitliyinə və normativliyinə müəyyən mənfi təsirlər göstərə bilir [7, s. 48–55].

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Gənclər jarqonu – müəyyən yaş qrupuna xas olan, əsasən qeyri-rəsmi ünsiyyət mühitində işlədilən, ekspressiv və emosional çalarlara malik leksik vahidlərdən ibarət dil formasıdır. Bu dil forması sosial aidiyyət və qrup identikliyini gücləndirməklə yanaşı, bəzən normativ dil qaydalarından kənar ifadələrin geniş yayılmasına şərait yaradır və nəticədə ədəbi dil normalarının gündəlik nitqdə zəifləməsinə səbəb ola bilir [9, s. 61–63].

Gənclər jarqonu müasir dil proseslərinin ən dinamik sahələrindən biri hesab olunur və sosial mühitin, informasiya texnologiyalarının, eləcə də qlobal mədəni təsirlərin nəticəsi olaraq formalaşır. Bununla belə, bu dil qatının nəzarətsiz şəkildə yayılması bir sıra hallarda ədəbi dilin leksik və üslubi saflığının pozulmasına gətirib çıxara bilər. Bu baxımdan gənclər jarqonunun leksik, fonetik-qrammatik, semantik və sosial-kommunikativ xüsusiyyətlərinin araşdırılması, eləcə də onun Azərbaycan ədəbi dilinə mümkün mənfi təsirlərinin müəyyənləşdirilməsi xüsusi elmi əhəmiyyət kəsb edir.

Gənclər jarqonunun səciyyəvi xüsusiyyətlərindən biri onun leksik yeniliklərə açıq olmasıdır. Bu sahədə yeni sözlərin yaradılması, mövcud sözlərin yeni mənada işlədilməsi, qısaldılmış formaların geniş yayılması və xarici dillərdən, xüsusilə ingilis dilindən alınmalar diqqət çəkir [5, s. 105–106]. Lakin bu proses bir sıra hallarda Azərbaycan ədəbi dilinin normativ leksik sisteminə uyğun gəlməyən ifadələrin yayılmasına və dilin leksik saflığının zəifləməsinə səbəb ola bilir.

Müasir kommunikativ mühitdə “storis”, “like”, “trollamaq”, “post atmaq”, “follow etmək” kimi ifadələr gənclərin gündəlik ünsiyyətində geniş şəkildə istifadə olunur. Bu vahidlər Azərbaycan dilinin morfoloji sisteminə uyğunlaşdırılaraq müxtəlif şəkilçilər qəbul edir və yeni qrammatik formalar yaradır. Məsələn, “like etdim”, “postladım”, “trollayırlar” kimi formalar alınma sözlərin milli qrammatik modelə uyğunlaşdırılmasını göstərsə də, belə ifadələrin geniş yayılması bəzi hallarda ədəbi dilin normativ söz ehtiyatının arxa plana keçməsinə səbəb olur [6, s. 42–45].

Beləliklə, gənclər jarqonunun intensiv istifadəsi dil sistemində müəyyən leksik dəyişikliklər yaratsa da, bu proses bir sıra hallarda ədəbi dil normalarının zəifləməsinə, qeyri-rəsmi və xarici təsirli sözlərin geniş yayılmasına gətirib çıxarır.

Fonetik baxımdan gənclər jarqonu qısaltma və sadələşmə meyli ilə xarakterizə olunur. Sürətli ünsiyyət ehtiyacı nəticəsində çoxhecalı sözlər ixtisar edilir və fonetik baxımdan yığcam formaya salınır: “mük” [mükəmməl], “prof” [professor] və s. Bəzi hallarda isə xarici sözlər orijinal tələffüzə yaxın formada saxlanılır, məsələn, “cool” [1, s. 60–65]. Bu cür fonetik qısaltmalar və alınma sözlərin geniş istifadəsi bir sıra hallarda ədəbi dilin normativ tələffüz qaydalarından uzaqlaşmaya səbəb olur və dilin fonetik sabitliyini zəiflədə bilər.

Qrammatik baxımdan jarqon ifadələri tez-tez fragmentar cümlə strukturlarında işlədilir. Cümlənin əsas üzvlərindən birinin buraxılması, ellipsis və yarımçıq sintaktik konstruksiyalar nitqin sürətini artırsa da, bu cür formalar ədəbi dilin sintaktik normalarına uyğun gəlmir və nitqin qrammatik bütövlüyünü zəiflədir.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 28-34
DOI: https://doi.org/10.5281/zenodo.19627090

Belə hallar xüsusilə gənclərin gündəlik ünsiyyətində normativ cümlə modellərinin arxa plana keçməsinə səbəb ola bilər.

Gənclər jarqonunun semantik sistemi də müəyyən dəyişikliklərə məruz qalır. Jarqon vahidləri çox zaman metaforik, ironik və emosional çalarlarla yüklənir. Məsələn, "partladı" sözü klassik mənasında fiziki hadisəni bildirsə də, jarqon kontekstində "çox uğurlu oldu", "böyük effekt yaratdı" mənasında işlədilir. Eyni zamanda "sərin" ifadəsi temperaturla bağlı ilkin semantik çərçivədən çıxaraq müsbət keyfiyyətlərin və bəyənilən xüsusiyyətlərin göstəricisinə çevrilmişdir [2, s. 83]. Bu cür semantik dəyişikliklər bəzi hallarda sözlərin ilkin mənasının zəifləməsinə və ədəbi dilin semantik dəqiqliyinin pozulmasına səbəb ola bilər.

Bu tip semantik transformasiyalar sözlərin emosional yükünü artırsa da, bəzi hallarda onların ilkin leksik mənasının zəifləməsinə və semantik dəqiqliyin azalmasına səbəb olur. Nəticədə jarqon ifadələri yalnız informasiya ötürmək funksiyası daşımır, həm də danışanın münasibətini və mövqeyini ifadə edən subyektiv çalarlar yaradır ki, bu da bir sıra hallarda ədəbi dilin üslubi sabitliyinə mənfi təsir göstərə bilir.

Gənclər jarqonu sosial identikliyin formalaşmasında müəyyən rol oynayır və müəyyən yaş qrupuna və ya sosial çevrəyə mənsubluğu ifadə edən dil göstəricisi kimi çıxış edir. Lakin bu dil forması bəzən normativ dil vahidlərinin əvəz olunmasına və qeyri-standart ifadələrin geniş yayılmasına şərait yaradır. Bu isə gənclərin gündəlik nitqində ədəbi dil normalarının arxa plana keçməsinə səbəb ola bilər [8, s. 62].

Eyni zamanda jarqon ifadələrinin geniş istifadəsi qeyri-rəsmi ünsiyyət mühitində emosional yaxınlıq yaratsa da, onların rəsmi və yarırəsmi kommunikasiya mühitlərinə keçməsi nitq mədəniyyətinin zəifləməsinə və üslubi sərhədlərin pozulmasına gətirib çıxara bilər [4, s. 55]. Bu baxımdan gənclər jarqonu yalnız dil hadisəsi deyil, həm də müəyyən sosial-linqvistik problemlər yarada bilən kommunikativ mexanizm kimi qiymətləndirilə bilər.

Beləliklə, gənclər jarqonunun leksik, fonetik-qrammatik, semantik və sosial xüsusiyyətləri onun Azərbaycan ədəbi dilinə təsirini kompleks şəkildə göstərir. Bu təsirin bəzi hallarda ədəbi dil normalarının zəifləməsinə və qeyri-normativ dil elementlərinin yayılmasına səbəb olması isə məsələnin elmi baxımdan daha dərindən araşdırılmasını zəruri edir.

Lakin bu cür ifadələrin geniş yayılması bir sıra hallarda ədəbi dilin normativ leksik sisteminə təsir göstərir və xarici mənşəli sözlərin nəzarətsiz şəkildə dilə daxil olmasına şərait yaradır. Nəticədə Azərbaycan dilinin mövcud söz ehtiyatı ilə ifadə oluna bilən anlayışların yerini jarqon və alınma ifadələr tuta bilir ki, bu da dilin leksik saflığının zəifləməsinə səbəb ola bilər. Bu baxımdan jarqon elementlərinin ədəbi dilə keçidi müəyyən hallarda normativ dil qaydalarının pozulması ilə müşayiət olunur.

Jarqonun təsiri sintaktik səviyyədə də müşahidə edilir. Gənclərin gündəlik nitqində qısa, fragmentar və yarımçıq cümlə konstruksiyalarının geniş yayılması ədəbi dilin klassik sintaktik modellərindən uzaqlaşma meyli yaradır. Bu cür konstruksiyalar qeyri-rəsmi ünsiyyət üçün xarakterik olsa da, onların yazılı və yarırəsmi nitqə keçməsi dilin sintaktik bütövlüyünü zəiflədə bilər.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 28-34
**DOI: https://doi.org/10.5281/zenodo.19627090**

Semantik səviyyədə isə jarqon vahidlərinin istifadəsi sözlərin ilkin mənasının dəyişməsi və ya genişlənməsi ilə nəticələnir. Bəzi sözlər jarqon mühitində yeni emosional və qiymətləndirici çalarlar qazanaraq fərqli semantik kontekstdə işlədilir. Bu proses bir tərəfdən nitqin ekspressivliyini artırsa da, digər tərəfdən sözlərin klassik semantik çərçivəsinin zəifləməsinə və dil vahidlərinin mənaca qeyri-müəyyənləşməsinə səbəb ola bilər.

Beləliklə, gənclər jarqonunun ədəbi dilə təsiri müxtəlif dil səviyyələrində özünü göstərir və bu təsir xüsusilə leksik, sintaktik və semantik dəyişikliklər vasitəsilə reallaşır. Bu dəyişikliklərin bəziləri kommunikativ mühitin dinamik inkişafı ilə bağlı olsa da, jarqon elementlərinin həddindən artıq istifadəsi ədəbi dilin normativ sabitliyinə və üslubi saflığına müəyyən mənfi təsir göstərə bilər.

Beləliklə, leksik inteqrasiya prosesi bir tərəfdən dilə yeni söz və ifadələrin daxil olmasına şərait yaratsa da, digər tərəfdən ədəbi dilin normativ söz ehtiyatının arxa plana keçməsi ilə nəticələnə bilər. Xarici mənşəli və jarqon xarakterli ifadələrin geniş yayılması bir sıra hallarda Azərbaycan ədəbi dilinin leksik saflığının zəifləməsinə və dil sistemində qeyri-normativ elementlərin artmasına səbəb olur.

Jarqonun ədəbi dilə təsiri sintaktik səviyyədə də müşahidə edilir. Qeyri-rəsmi ünsiyyətdə işlədilən fragmentar və qısaldılmış cümlə modelləri tədricən geniş kommunikativ praktikada yayılır. Bu cür konstruksiyalar bəzən cümlənin əsas məzmununu qorusa da, ədəbi dil üçün səciyyəvi olan tam və sistemli sintaktik quruluşdan uzaqlaşma meyli yaradır [4, s. 52].

Məsələn, tam quruluşlu mürəkkəb cümlələr əvəzinə qısa və yığcam strukturların istifadəsi kommunikasiya sürətini artırsa da, ellipsis, yarımçıq sintaktik modellər və əlaqələndirici elementlərin ixtisarı nitqin qrammatik bütövlüyünü zəiflədə bilər. Bu isə xüsusilə yazılı nitqdə və rəsmi ünsiyyət mühitində ədəbi dil normalarının pozulmasına səbəb ola bilər.

Jarqonun ədəbi dilə təsirinin mühüm istiqamətlərindən biri də semantik və funksional səviyyədə müşahidə olunur. Jarqon sözləri çox vaxt emosional, ironik və metaforik çalarlarla yüklənir və nitqə subyektiv münasibət elementləri əlavə edir [3, s. 82]. Lakin bu cür semantik dəyişikliklər bəzi hallarda sözlərin ilkin və dəqiq mənasının zəifləməsinə gətirib çıxarır.

Məsələn, müəyyən ifadələr klassik mənasından uzaqlaşaraq qiymətləndirici və emosional məzmun qazanır. Bu isə sözlərin yalnız informasiya ötürmə funksiyasını deyil, həm də subyektiv münasibət bildirmə funksiyasını ön plana çıxarır və nəticədə ədəbi dilin semantik dəqiqliyinə və üslubi sabitliyinə müəyyən mənfi təsir göstərə bilər [4, s. 55].

Funksional baxımdan jarqon ifadələri qeyri-rəsmi ünsiyyətdə emosional yaxınlıq və sosial identiklik yaratmağa xidmət etsə də, onların geniş yayılması bəzi hallarda ədəbi dilin normativ üslubi çərçivəsinin zəifləməsinə səbəb ola bilər. Jarqon vahidlərinin kommunikativ mühitdə intensiv istifadəsi dilin funksional-semantik balansına təsir göstərərək qeyri-rəsmi ifadə modellərinin genişlənməsinə şərait yaradır.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 28-34
**DOI: https://doi.org/10.5281/zenodo.19627090**

Beləliklə, Azərbaycan ədəbi dili ilə gənclər jarqonu arasında müəyyən qarşılıqlı təsir prosesi mövcuddur. Lakin jarqon elementlərinin nəzarətsiz şəkildə yayılması bir sıra hallarda ədəbi dilin leksik, sintaktik və semantik normalarının zəifləməsinə gətirib çıxara bilər.

Gənclər jarqonunun təsiri funksional-semantik səviyyədə də müşahidə olunur. Jarqon ifadələri cümlə strukturu və məna qatında dəyişikliklər yaradaraq nitqə emosional və ekspressiv çalarlar əlavə edir [3, s. 82]. Bu isə bəzi hallarda sözlərin ilkin semantik dəqiqliyinin zəifləməsinə və üslubi sabitliyin pozulmasına səbəb olur.

Jarqonun sintaktik təsiri əsasən cümlə modellərinin sadələşməsi və fragmentarlaşması ilə xarakterizə olunur. Qeyri-rəsmi ünsiyyətdə fikrin daha yığcam və sürətli ifadəsi natamam cümlələr, ellipsis və ixtisar olunmuş konstruksiyalar vasitəsilə həyata keçirilir ki, bu da ədəbi dil üçün səciyyəvi olan sintaktik tamlığı zəiflədə bilər.

Məsələn, klassik sintaktik norma tələb etdiyi tam cümlə quruluşu əvəzinə, jarqon mühitində yalnız əsas semantik nüvəni ifadə edən qısa konstruksiyalar işlədilir. Bu cür modellər nitqin emosional dinamikasını artırsa da, ədəbi dilin sintaktik tamlığını zəiflədə və normativ strukturdan uzaqlaşmaya səbəb ola bilər [8, s. 53].

Beləliklə, fragmentar və qısaldılmış cümlə formaları ədəbi dilin sintaktik sisteminə alternativ ifadə imkanları təqdim etsə də, onların həddindən artıq istifadəsi nitqin struktur bütövlüyünü pozur və yazılı nitqdə normativ qaydaların pozulmasına yol açır.

Jarqonun funksional-semantik təsirinin mühüm istiqamətlərindən biri sözlərin mənaca transformasiyasıdır. Mövcud leksik vahidlər yeni kontekstlərdə metaforik, ironik və emosional çalar qazanır. Məsələn, “partladı” ifadəsi klassik mənada fiziki hadisəni bildirirsə də, jarqon mühitində “böyük uğur qazandı” və ya “gözlənilməz effekt yaratdı” mənasında işlədilir. “Sərin” sözü temperatur bildirən semantik çərçivədən çıxaraq müsbət qiymətləndirmə funksiyası qazanmış, “trollamaq” isə ilkin internet terminologiyasından çıxaraq ironik və tənqidi münasibət ifadə edən vahidə çevrilmişdir [2, s. 83].

Bu tip semantik dəyişikliklər sözlərin emosional yükünü artırsa da, bəzi hallarda onların ilkin mənasının zəifləməsinə və ədəbi dilin normativ-semantic dəqiqliyinə mənfi təsir göstərir. Nəticədə jarqon vahidləri yalnız informasiya ötürmə funksiyası daşımır, həm də nitqin qiymətləndirici və ekspressiv yönünü gücləndirərək ədəbi dilin normativ sabitliyinə təsir göstərə bilər.

Jarqon dili müəyyən sosial qrup daxilində aidiyyət və həmrəylik hissi yaratsa da, onun geniş istifadəsi ədəbi dilin normativ strukturuna mənfi təsir göstərə bilər [8, s. 62]. Jarqon ifadələri nitqin funksional çevikliyini artırsa da, sözlərin semantik dəqiqliyini zəiflədə və sintaktik tamlığı pozmaqla normativ üslubu zəiflədə bilər [4, s. 55].

Aparılan araşdırma göstərir ki, gənclər jarqonunun ədəbi dilə təsiri əsasən üç istiqamətdə özünü göstərir: leksik inteqrasiya, sintaktik sadələşmə və funksional-semantik transformasiya. Leksik səviyyədə

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 28-34
**DOI: https://doi.org/10.5281/zenodo.19627090**

jarqon vahidləri yeni söz və ifadələr yaratsa da, xarici mənşəli ifadələrin normativ morfoloji sistemə daxil edilməsi ədəbi dilin sabitliyinə müəyyən mənfi təsir göstərə bilər. Sintaktik və funksional səviyyədə isə fragmentar cümlələr və emosional ekspressiya normativ ifadə modellərinin yerini ala bilər.

Beləliklə, gənclər jarqonu ədəbi dilin inkişafına dinamik təsir etsə də, onun normativ və struktural sabitliyinə mənfi təsir potensialı mövcuddur.

Sintaktik səviyyədə jarqon cümlə quruluşunun sadələşməsi, fragmentar modellərin yayılması və ifadə yığcamlığının artması ilə xarakterizə olunur. Funksional-semantik baxımdan isə jarqon sözlərin mənasını dəyişir, onlara emosional və qiymətləndirici çalarlar əlavə edir, nitqin ekspressivliyini artırır və kommunikativ təsir gücünü yüksəldir.

Jarqon dili sosial identiklik və qrup aidiyyəti yaratsa da, onun normativ olmayan elementləri ədəbi dilin struktur və leksik sabitliyinə müəyyən mənfi təsir göstərə bilər. Bununla belə, zamanla jarqon vahidlərinin bəzi elementləri ədəbi dil sisteminə inteqrasiya olunur və dilin inkişaf dinamikasını zənginləşdirir.

Beləliklə, gənclər jarqonu ədəbi dil üçün həm alternativ ifadə imkanları yaradan, həm də onun yenilənmə və adaptasiya potensialını gücləndirən dinamik amil kimi qiymətləndirilə bilər.

## ƏDƏBİYYAT

1. AMEA Dilçilik İnstitutu. (2025). *Müasir Azərbaycan dili* (III cild: Morfologiya, ss. 60, 65). Bakı: Elm Nəşriyyatı.
2. Əliyeva, S. (2015). *Azərbaycan dili və onun morfoloji xüsusiyyətləri* (ss. 80, 83, 85). Bakı: Təhsil nəşriyyatı.
3. Əlizadə, R. (2010). *Azərbaycan dilinin morfologiyası* (ss. 20, 78, 82). Bakı: Elm nəşriyyatı.
4. Hüseynova, F. (2018). *Feilin funksional-semantik aspektləri* (ss. 52, 55). Bakı: Elm və təhsil nəşriyyatı.
5. Hüseynzadə, M. (2007). *Müasir Azərbaycan dili* (III hissə: Morfologiya, ss. 102–108, 105–106). Bakı: Şərq-Qərb.
6. Xəlilov, B. Ə. (2010). *Müasir Azərbaycan dilində formadüzəldici şəkilçilərin funksional-semantik aspektləri* (ss. 40–45, 42, 43). Bakı: Elm Nəşriyyatı.
7. Xəlilov, B. Ə. (2007). *Müasir Azərbaycan dilinin morfologiyası* (ss. 48–55, 52, 55). Bakı: Elm/Papirus.
8. Məmmədov, R. (2012). *Azərbaycan dilində morfoloji transformasiyalar* (ss. 53, 60, 62). Bakı: Nurlan nəşriyyatı.
9. Seyidov, Y. (2000). *Azərbaycan dilinin qrammatikası: Morfologiya* (ss. 61, 63). Bakı: Bakı Universiteti Nəşriyyatı.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 28-34
**DOI: https://doi.org/10.5281/zenodo.19627090**

# ABSTRACT

# THE NEGATIVE IMPACT OF YOUTH JARGON ON THE AZERBAIJANI LITERARY LANGUAGE

**Arzu Yusif qizi Abbasova**

This article examines the formation features, structural-semantic characteristics, and mechanisms through which Azerbaijani youth jargon negatively influences the Azerbaijani literary language. Youth jargon primarily develops under the influence of social environment, global communication, information technologies, and mass culture, exhibiting a dynamic nature.

Furthermore, the influence of youth jargon manifests in syntactic simplification, the predominance of informal expression styles, and deviations from normative sentence structures. Jargon elements sometimes weaken the stylistic stability of the literary language, reduce the semantic precision of linguistic units, and negatively affect speech culture. Particularly in informal communication, the extensive use of jargon can hinder the formation of language habits that conform to literary language norms among young people.

The research indicates that while youth jargon serves as a means of expressing social group identity, its excessive use may negatively affect the normative stability and functional purity of the literary language. Therefore, studying the spread of youth jargon within the language system and preserving literary language norms is of significant importance.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal
Journal homepage: https://horizonmsj.com/

Original Research Paper

# HERBİG AE/BE ULDUZLARINDA AKKRESİYA

**Faidə Hüseynova**[1]
https://orcid.org/0009-0009-3765-2292

[1] *Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*Batabat Astrofizika Rəsədxanası, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.*

*Article history*
Received: 12.03.2026
Revised: 24.03.2026
Accepted: 02.04.2026

*Corresponding Author: Faidə Hüseynova, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Batabat Astrofizika Rəsədxanası, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan;
Email: faidahuseynova@gmail.com

**Xülasə**
Məqalədə Herbig Ae/Be ulduzlarında müşahidə olunan şüalanma xətlərinin akkresiya əlaməti kimi mühüm rolu olduğu təhlil olunmuşdur. Hər bir xəttin akkresiya göstəricisi kimi etibarlılığının qiymətləndirilməsi, emissiya xətti aşkarlanması ilə UV-artıqlığının aşkarlanma dərəcəsi arasında müqayisə aparılmışdır. Təsdiq edilmişdir ki, CTTS-lər üçün akkresiya göstəriciləri kimi aydın olan bir neçə emissiya xətləri HAeBe ulduzlarında da etibarlı akkresiya göstəriciləridir. Əlavə olaraq, aşkar edilmiş emissiya xətlərinin aşağı səviyyəsinə əsaslanaraq,[O I] λ 6300 Å və He I 5876 Å-nin zəif göstəricilər ola biləcəyi müəyyən edilmişdir və UV-artıqlığı ilə əlaqələndirilmişdir
**Açar sözlər:** Şüalanma xətləri, akkresiya, P Cyg profili, ulduz küləyi

## Giriş

Herbiq Ae/Be ulduzları və klassik T Buğa (T Tauri) ulduzları hər ikisi Baş Ardıcıllığa  çatmamış təkamüll dövrünün ilkin mərhələsində olan ulduzlara aid olub, oxşar emissiya xətləri nümayiş etdirirlər. Herbig Ae/Be cavan ulduzları ilk dəfə Herbig (1960) tərəfindən qrup şəkilində aşkar edilmişdir. Bu tip cavan ulduzlar aşağı kütləli ulduzlarla böyük (massiv) kütləli ulduzlar arasında körpü rolu oynayır ki, buda cavan ulduzların təkamül prossesində onların fiziki xüsusiyyətlərini aşkar etməyə kömək edir.
Emissiya xətlərinin parlaqlığı ilə akkresiya parlaqlığı arasındakı güclü əlaqə, hər iki ulduz sinfində müşahidə olunur və bu, xətlərin formalaşmasında akkresiyanın mühüm rol oynadığını göstərir. Xətlərin profilləri isə maddənin hərəkəti və şüalanma bölgələrinin həndəsi quruluşu haqqında məlumat verir. Məsələn, iki pikli profillər fırlanan diski, P Cyg profilləri kənara axını, tərs P Cyg profilləri isə maddənin ulduza düşməsini əks etdirir [16].

Lakin, bəzi müşahidələr göstərir ki, Herbiq Be ulduzlarına yaxınlaşdıqca bu əlaqələr zəifləyə bilər və akkresiya mexanizmi dəyişə bilər [16]. Bu da o deməkdir ki, kütləsi nisbətən böyük olan və daha isti olan Herbiq Be ulduzlarında proseslər fərqli ola bilər və onların təkamül mexanizmləri daha mürəkkəb ola bilər. Beləliklə, Herbiq Ae/Be və klassik T Buğa (CTTS) ulduzları arasında oxşarlıqlar olsa da, xüsusilə daha böyük kütləli ulduzlarda fərqli fiziki şərait və mexanizmlər mövcud ola bilər [14].

Emissiya xətləri ulduz və onun ulıduzətrafı mühiti haqqında geniş məlumat verir. Yalnız xətt profilləri belə cavan ulduzlarda ulduza daxil olan və ondan xaric olan maddə axınlarını, həmçinin ulduzətrafı disk olub-olmadığını ayırd etməyə kömək edə bilər. Bundan əlavə, xətlərin intensivliyi akkresiya və ya qızma kimi proseslər nəticəsində nə qədər enerjinin ayrıldığı haqqında məlumat verir [15].

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 35-41
DOI: https://doi.org/10.5281/zenodo.19627698

Hidrogen cavan ulduzlarda ən bol elementdir və buna görə də onların fotosferlərində və ətraf mühitlərində asanlıqla aşkar edilir.

## MATERİALLAR VƏ MÜZAKİRƏ

Fairlamb və b. [11] tərəfindən Herbig Ae/Be ulduzlarında emissiya xətləri təhlil edilmişdir. Th´e və b. [21] kataloqundan 51 və Vieira və b. [23] kataloqundan isə 40 sayda, ümumilikdə 91 cavan ulduz seçilmişdir. Qeyd etmək lazımdır ki, bu ulduzların bir çoxu, xüsusən də Pico dos Dias Survey (PDS) tərəfindən [23] təqdim edilən ulduzlar, yəni AeBe Herbig ulduzlardır. Nəticədə, bu seçilmiş siyahıda adi Be ulduzlarıdır hansı ki, HAeBe kimi təsnif edilmiş bir neçə ulduz da yer almışdır. Əksər obyektlər haqqında, xüsusən də onların qoşalıq xüsusiyyətlərinin olub-olmaması baxımından, az məlumat mövcuddur [8]. Məlumdur ki, AeBe Herbig ulduzlarının 71%-ə qədəri qoşa ulduzlardır [3, 24] və nəticədə bu müşahidələr qoşa sistem təşkil etməyən ama yaxın ayrılıqda yerləşən istənilən cüt müşahidə edilən spektrlərə töhfə vermişdir. Bu işdə əsas məqsəd spektrlərin ultrabənövşəyi və optik hissələrinə yönəlmişdir ki, burada əsas ulduzun, yəni HAeBe obyektlərinin, parlaqlığının öyrənilməsinə ən böyük töhfəni verdiyini bilirik.

Tədqiq edilmiş cavan ulduzlardan 37 ulduzun kütləsi 3M$_\odot$-dan böyükdür - bunlar Herbig Be ulduzlardır. Qalan ulduzların hamısı Herbig Ae (HAe) ulduzlarıdır, bəlkə də kütlə həddində sərhəddə yerləşən bir neçə orta kütləli CTTS (T Tauri) ulduzu da ola bilər. Bu araşdırma, indiyədək HAeBe ulduzlarının akkresiyası üzrə aparılmış ən geniş spektroskopik tədqiqatı təqdim edir. Bundan əlavə, bu ulduzlarda öyrənilən spektral dalğa uzunluğu diapazonu digər bütün HAeBe tədqiqatlarından əhəmiyyətli dərəcədə üstündür. Bu iki üstünlüyün birləşməsi, akkresiyanın birbaşa göstəricisi ilə müqayisədə, çoxsaylı emissiya xətlərinin eyni zamanda təhlil edilməsinə imkan verir.

Bu günə qədər akkresiya sürətini ölçmək üçün çoxlu müxtəlif xətlər göstərici kimi istifadə edilib, misal üçün: Hα, [O I] λ 6300 Å və He I 5876 Å. Bunun səbəbi, emissiya xətlərin parlaqlığının akkresiya parlaqlılığı ($L_{acc}$) ilə korelyasiya göstərməsidir [18, 20]. Bu asılılıq güc qanunu şəklində aşağıdakı kimi ifadə edilir:

$$\log\left(\frac{L_{acc}}{L_\odot}\right) = A + B \times \log\left(\frac{L_{line}}{L_\odot}\right) \qquad (1)$$

(1) asılılığı, aşağı akkresiya sürətlərinin ultrabənövşəyi (UV) artıqlığı ilə aşkar edilə bilmədiyi isti ulduzlarda - akkresiya parlaqlılığını asanlıqla təyin etməyə icazə verir. T Buğa tipli ulduzlarda (CTTS) akkresiya hadisəsinin mövcudluğu sübut olunduğunu nəzərə alsaq, yuxarıda qeyd olunan xətlər intensivliyinə baxmaqla, Herbig Ae (HAe) və Herbig Be (HBe) ulduzları arasındakı fərqləri müqayisə edə bilərik.

Hα emissiya xətti Herbiq Ae/Be ulduzlarının optik spektrlərində ən güclü xətlərdən biridir. Onun aşkarlanması bu ulduz sinfinin ilk təsnifatı üçün əsas meyar olmuşdur. Müşahidələr göstərir ki, Hα xətti çox vaxt kontinium səviyyəsindən dəfələrlə güclüdür, xüsusilə daha isti Herbiq Be ulduzlarında. Xəttin profili ulduzun spektrində müxtəlif zaman intervallarında baş verən dəyişkənliklərədən xəbər verir. Xəttin gücü (ekvivalent eni) ilə ulduzun temperaturu arasında aydın əlaqə mövcuddur[13]. Ekvivalent en təxminən 14000 K temperaturda maksimuma çatır və bundan sonra azalmağa başlayır. Bu, ulduzun kütləsi və təkamül mərhələsi ilə əlaqəli fiziki proseslərdə (məsələn, akkresiya və ya ionlaşma) dəyişiklikləri əks etdirə bilər.

Şəkil 1-də Hα xətt profilləri, $L_{acc}$ və LH$\alpha_{line}$ əlaqəsi, eləcə də EW və $T_{eff}$ temperaturdan asılılıq qrafiki verilmişdir. Sol paneldə göstərilən xətt profilləri ayrı-ayrı sütunlarda 15 HAe ulduzu və 15 HBe ulduzuna aiddir. Yuxarı sağ panel akkresiya parlaqlığının xətt parlaqlılığı ilə necə əlaqəli olduğunu göstərir. Qırmızı rəngli nöqtələr soyuq ulduzların temperaturuna, mavi rəng isə isti ulduzların temperaturuna uyğundur. Aşağı sağ panel ulduzların ekvivalent eni göstərir. Qrafikdə obyektlər təsadüfi seçilmişdir və aşağıdan yuxarıya doğru artan temperatur ilə düzülmüşdür. Aydındır ki, qalın qara xətt korreliyasiyanın yaxşı uyğunluq təşkil etdiyini göstərmişdir. Həmçinin [2] işində verilən CTTS ulduzları üçün məlumatlar və onların ən yaxşı uyğunlaşma xətti də təqdim olunur. Şəkil 1-də görünür ki, Hα xətti güclü bir xəttdir, bir çox hallarda, xüsusən də göstərilən HBe ulduzlarında xəttin intensivliyi kontinium səviyyəsindən təxminən

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 35-41
DOI: https://doi.org/10.5281/zenodo.19627698

8 dəfə yüksəkdir. Xətlərin gücü aşağı sağ paneldə ulduzun temperaturuna qarşı təqdim olunur. Nümunənin üçdə birindən çoxunda, 35 cavan ulduzda ekvivalent en (EW) 25 Å-dan böyük görünür və ulduzlardan 18-ində isə ekvivalent en (EW) 50 Å-dan böyükdür. Ümumiyyətlə, Hα-xəttinin temperaturun maksimum təxminən 14000K-da ekvivalent eni artaraq pik vəziyyətinə çatır və sonra yenidən azalır.




**Şəkil 1.** HAe və HBe ulduzlarının xətt profilləri; hər sütun aşağıdan yuxarıya doğru artan temperatur ardıcıllığındadır. Hα xəttin ekvivalent eninin ulduzun temperaturundan asılılığı.

Xətt profilləri bütün temperaturlar üzrə bir sıra mürəkkəbliklər göstərir; yalnız iki aydın tərs P-Cyg-ni profili mövcuddur və hər ikisi HAe ulduzlarına aiddir. Bu, bu ulduzlara maddə axının bir akkresiya sütunundan daxil olduğunu göstərir. Eyni zamanda, klassik P Cyg-ni profilləri əsasən HBe ulduzlarında görülür. Klassik P Cyg-ni profilləri ulduzda xaricə axan maddə ilə əlaqələndirilir. Bu xətt profillərinin hər ikisi nümunədə nadirdir, ulduzların əksəriyyəti əvəzinə tək və ya iki pikli emissiya nümayiş etdirir. Bu iki profilinin baş verməsi əhatə olunan temperatur diapazonu boyunca bərabər paylanmış görünür, HAe və ya HBe ulduzları arasında aşkar bir fərqli üstünlük yoxdur.

Tədqiqatlar göstərdi ki, xətt profillərində Hα emissiya xəttinin aşkar edilmə dərəcəsi çox yüksəkdir və 91 ulduzdan 89-da mövcuddur, qalan 2-si isə xəta daxilində aşağı səviyyəli emissiyaya malik ola bilər. Beləliklə, müəyyən edilmişdir ki, $L_{line}$ ilə $L_{acc}$ arasında əlaqə var və bu müqayisə Şəkil 1-in yuxarı sağ panelində göstərilir.

Hα xətti HAeBe ulduzlarında əvvəlcədən müəyyən edilmiş işıqlılıq əlaqəsinə malik olan azsaylı xətlərdən biridir. [18] tərəfindən 38 HAeBe ulduzu üçün əldə edilmiş ən yaxşı müqayisə kimi $1.09 \pm 0.16$ qiyməti ilə Fairlamb və b. [11] tərəfindən verilən qiymət arasında yaxşı uyğunluq görünür.

[4, 5] tərəfindən üç fərqli oksigen xəttində ölçmələr aparılmışdır: [OI] 6300 Å, 6363 Å, 7773 Å. Fairlamb və b. [11] əsasən [O I] xətti üzərində dayanmışdır. [O I] 6300 Å-də olan qadağan edilmiş xətt həm CTTS-lərdə, həm də HAeBe-lərdə müşahidə edilmişdir və bu xətti 17 HAeBe ulduzunda emissiya şəklində müşahidə edilmiş və əksər hallarda xəttin simmetrik olduğunu, ulduzun radial sürəti ətrafında mərkəzləşdiyini müəyyən olunmuşdur. Həmin simmetriklik daha çox AeBe Herbig ulduzlarda Acke və b. [1] tərəfindən təsdiqlənmişdir. Müəlliflər göstərmişdir ki, [O I] 6300 Å olan emissiyanın böyük hissəsi tək piklidir və ulduzun şüa sürəti üzərində mərkəzləşir, əksər xətlərin $F_{WHM}$-i < 100 km/s$^{-1}$-dan azdır və kiçik komponentli iki pikli xətt profilləri də müşahidə olunur. I qrup HAeBe-lər üçün izahı budur ki, şüalanma fırlanan, genişlənmiş ətraf ulduz diskinin səthindən yaranır, II qrup HAeBe-lərdə şüalanmanın mənbəyi isə daha aydın deyil, lakin daxili qaz diskindən ola bilər. Bu fikir van der Plas və b. [22] tərəfindən daha iki HAeBe ulduzuna şamil edilmişdir, lakin HD 135344B üçün müşahidə olunan emissiya profilini göstərilən

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 35-41
DOI: https://doi.org/10.5281/zenodo.19627698

iki fikir üçün izah etmək mümkün olmamışdır, çünki şüalanma xətt diskdən tək emissiyadan başqa əlavə komponentləri də göstərir.

Dahm [7] tərəfindən [O I] λ 6300 Å xətti yalnız aktiv akresiya edən CTTS-lərdə mövcud olduğu müəyyən edilmişdir. [O I] λ 6300 Å xəttinin bir çox tədqiqatlarda isə $L_{acc}$ və $L_{line}$ arasındakı asıllıq şəkil 2-nin yuxarı sağ panelində göstərilmişdir. [O I] λ 6300 Å xətt üçün koreliyasiya $L_{acc} \propto L_{line}^{1.06\pm0.04}$ kimi müəyyən edilmişdir. Mendigutıa və b. [18]tərəfindən HAeBe ulduzlarına uyğun gələn, həmin əlaqənin koreliyasiyası $L_{acc} \propto L_{line}^{1.13 \pm 0.14}$ kimi tapılmışdır və müəyyən olunmuşdur ki, xəttin mənşəyi akkresiya mexanizmi ilə əlaqəli deyil. Belə güman edilir ki,[O I] λ 6300 Å xəttinin şüalanma mənbəyi diskin daxilindən və ya diskdən axan materialdan olarsa, oriyentasiya effektləri də rol oynaya bilər.

Şəkil 2-də aşağı sağ paneli xəttin ekvivalent eninin ulduzun temperaturundan asılılığı göstərlir. Xəttin ekvivalent eni əksər hallarda olduqca zəifdir, mütləq ekvivalent eni < 1.0 Å-dır. Göründüyü kimi ekvivalent en ilə ulduzun temperaturu arasında heç bir korelyasiya müşahidə edilmir.




**Şəkil 2.** [O I] λ 6300 Å xətti üçün Şəkil 1-də olduğu kimi

He I 5876 xətti çox vaxt O və B tipli ulduzlarla əlaqələndirilir, çünki onun udulma və ya emissiya şəklində müşahidə edilməsi üçün yüksək temperatur tələb olunur. Xüsusilə, He I xətti təxminən 20000 K temperaturda dərin udulma kimi müşahidə olunur. Bu yüksək temperatur həddinə baxmayaraq, He I xəttinin daha soyuq CTTS-lərdə də mövcud olduğu müşahidə edilmişdir, burada tez-tez müxtəlif xətt profilləri nümayiş etdirir. He I emissiya xətti soyuq ulduzlarda görülməsi üçün əlavə enerji mənbəyi tələb edir. Xüsusilə, He I 5876 Å xətti tərs P Cyg-ni profili şəklində müşahidə edilmişdir ki, bu da isti bir bölgədə (yəni akkresiya sütununda) maddənin daxil olmasını göstərir [19]. Əsas suallardan biri odur ki, HAeBe-lər CTT-lərdən daha isti olduğuna görə, onlar da oxşar xətt profilləri nümayiş etdirəcəkmi? Şəkil 3-də sol panelində müxtəlif ulduzlar üçün He I 5876 Å xətti profilləri göstərilmişdir. Göstərilən xətt profillərinin əksəriyyəti bir növ udulma komponenti nümayiş etdirir. Tərs P Cyg-ni profilləri baxılan HAe-lərin 14-də aşkar olunmuşdur, HBe-lərdə isə yalnız 5 ulduzda görülmüşdür, onlardan 3-də udulmanın intensivliyi olduqca dərindir (10000-10500 K arasında). Digər tərəfdən, He I 5876 Å xətt üçün yalnız bir neçə klassik P Cyg-ni profili görülə bilər. Beləliklə, tərs P Cyg-ni profillərinin geniş yayılmasına əsaslanaraq, bu, xəttin yaranma mənbəsinin daxil olan maddədən ola biləcəyini göstərir ki, bu da xüsusilə daha az kütləli ulduzlarda akkresiya əlaməti ola bilər.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 35-41
DOI: https://doi.org/10.5281/zenodo.19627698



**Şəkil 3.** He I 5876 Å xətti üçün Şəkil 1-də olduğu kimi

## NƏTİCƏ

Ümumilikdə, baxdığımız emissiya xətlər üçün $L_{acc}$ və $L_{line}$ arasındakı əlaqənin HAeBe-lərdə yaxşı korrelyasiya göstərdiyi görünür, baxmayaraq ki, Alcalá və b. [2] tərəfindən göstərilmişdir ki, daha kiçik kütləli CTTS ulduzları üçün bir qədər yüksəkdir. Həmçinin, He I və [OI] xətlərində mürəkkəb xətt profilləri müxtəlif mənbələri göstərir və akkresiya ilə əlaqəli olmaya bilər. Daha əhəmiyyətlisi isə odur ki, emissiya xətt profillərinin çox komponentli olması səbəbindən emissiya xətləri əlavə şüalanmaya səbəb ola bilər. [O I] λ 6300 Å və He I 5876 Å, aşağı emissiya xətti aşkar edilmə səviyyələrinə əsasən zəif akkresiya əlamətlərinin ola biləcəyi müəyyən edilmişdir ki, buda ultrabənövşəyi artıqlıqla əlaqələndirilir. Akkresiya parlaqlığı ilə xətt parlaqlığı arasında asıllılıq əlaqələrinin olması, həm HAeBe, həm də CTTS ulduzlarında gələcək tədqiqatları üçün akkresiya prosesinə hansı təsirləri olmasının baxımından faydalı ola bilər.

## ƏDƏBİYYAT

1. Acke, B., van den Ancker, M. E., & Dullemond, C. P. (2005). [O I] 6300 Å emission in Herbig Ae/Be systems: Signature of Keplerian rotation. Astronomy & Astrophysics, 436, 209–230.
2. Alcalá, J. M., Natta, A., Manara, C. F., et al. (2014). X-shooter spectroscopy of young stellar objects. IV. Accretion in low-mass stars and substellar objects in Lupus. Astronomy & Astrophysics, 561, Article 2.
3. Baines, D., Oudmaijer, R. D., Porter, J. M., et al. (2006). On the binarity of Herbig Ae/Be stars. Monthly Notices of the Royal Astronomical Society, 367, 737–753.
4. Boehm, T., & Catala, C. (1994). Forbidden lines in Herbig Ae/Be stars: The [O I]4(1F) 6300.31 Å and 6363.79 Å lines. I. Observations and qualitative analysis. Astronomy & Astrophysics, 290, 167–175.
5. Cabrit, S., Edwards, S., Strom, S. E., & Strom, K. M. (1990). Forbidden line emission and infrared excesses in T Tauri stars—Evidence for accretion driven mass loss? The Astrophysical Journal, 354, 687–700.
6. Cauley, P. W., & Johns-Krull, C. M. (2014). Diagnosing mass flows around Herbig Ae/Be stars using the He I λ10830 line. The Astrophysical Journal, 797, Article 112.
7. Dahm, S. E. (2008). A spectroscopic examination of accretion diagnostics for near solar mass stars in IC 348. The Astronomical Journal, 136, 521–547.
8. Duchêne, G. (2015). Herbig Ae/Be stars: Multiplicity and consequences. Astrophysics and Space Science, 355, 291–301.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

9. Dupree, A. K., Brickhouse, N. S., Smith, G. H., et al. (2005). A hot wind from the classical T Tauri stars: TW Hydrae and T Tauri. The Astrophysical Journal Letters, 625, 131–134.
10. Edwards, S., Fischer, W., Hillenbrand, L., & Kwan, J. (2006). Probing T Tauri accretion and outflow with 1 micron spectroscopy. The Astrophysical Journal, 646, 319–341.
11. Fairlamb, J. R., Oudmaijer, R. D., Mendigutía, I., et al. (2015). A spectroscopic survey of Herbig Ae/Be stars with X-shooter – I. Stellar parameters and accretion rates. Monthly Notices of the Royal Astronomical Society, 453, 976–1001.
12. Herczeg, G. J., & Hillenbrand, L. A. (2008). UV excess measures of accretion onto young very low mass stars and brown dwarfs. The Astrophysical Journal, 681, 594–625.
13. Hüseynova, F. S. (2023). Herbig Ae/Be ulduzlarının ümumi xarakteristikaları. AMEA Xəbərlər, Fizika-riyaziyyat və texniki elmlər seriyası, Fizika-astronomiya, 43(5), 74–81.
14. Hüseynova, F. S. (2024). T Buğa tip ulduzlarının təkamülü və xarakteristikaları. AMEA Xəbərlər, Fizika-riyaziyyat və texniki elmlər seriyası, Fizika-astronomiya, 44(2), 101–106.
15. Hüseynova, F. S. (2025). Herbig Ae/Be ulduzlarında disk strukturu və xüsusiyyətləri. AMEA Xəbərlər, Fizika-riyaziyyat və texniki elmlər seriyası, Fizika-astronomiya, 45(2), 81–83.
16. Kurosawa, R., Romanova, M. M., & Harries, T. J. (2011). Multidimensional models of hydrogen and helium emission line profiles for classical T Tauri stars: Method, tests and examples. Monthly Notices of the Royal Astronomical Society, 416, 2623–2639.
17. Kwan, J., Edwards, R., & Fischer, S. W. (2007). Modeling T Tauri winds from He I λ10830 profiles. The Astrophysical Journal, 657, 897–915.
18. Mendigutía, I., Calvet, N., Montesinos, B., et al. (2011a). Accretion rates and accretion tracers of Herbig Ae/Be stars. Astronomy & Astrophysics, 535, Article 99.
19. Muzerolle, J., Hartmann, L., & Calvet, N. (1998c). Emission-line diagnostics of T Tauri magnetospheric accretion. I. Line profile observations. The Astronomical Journal, 116, 455–468.
20. Rigliaco, E., Natta, A., Testi, L., Randich, S., et al. (2012). X-shooter spectroscopy of young stellar objects. I. Mass accretion rates of low-mass T Tauri stars in σ Orionis. Astronomy & Astrophysics, 548, A56.
21. Thé, P. S., de Winter, D., & Perez, M. R. (1994). A new catalogue of members and candidate members of the Herbig Ae/Be (HAEBE) stellar group. Astronomy & Astrophysics Supplement Series, 104, 315–339.
22. Van der Plas, G., van den Ancker, M. E., Fedele, D., et al. (2008). The structure of protoplanetary disks surrounding three young intermediate mass stars. I. Resolving the disk rotation in the [OI] 6300 Å line. Astronomy & Astrophysics, 485, 487–495.
23. Vieira, S. L. A., Corradi, W. J. B., Alencar, S. H. P., et al. (2003). Investigation of 131 Herbig Ae/Be candidate stars. The Astronomical Journal, 126, 2971–2987.
24. Wheelwright, H. E., Oudmaijer, R. D., & Goodwin, S. P. (2010). The mass ratio and formation mechanisms of Herbig Ae/Be star binary systems. Monthly Notices of the Royal Astronomical Society, 401, 1199–1218.

## ABSTRACT
## ACCRETION IN HERBIG AE/BE STARS
**F. S. HUSEYNOVA**

The paper analyzes the important role of the emission lines observed in Herbig Ae/Be stars as accretion signatures. The validity of each line as an accretion signature is assessed by comparing the detection rate of emission lines with the detection rate of UV-excess. It is confirmed that several emission lines that are clear as accretion signatures for CTTSs are also reliable accretion signatures in HAeBe stars. In addition, based on the low level of the detected emission lines, it is determined that [O I] λ 6300 Å and He I 5876 Å may be weak signatures and are associated with UV-excess.

**Keywords:** Radiation lines, accretion, P Cygni profile, stellar wind

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 35-41
**DOI: https://doi.org/10.5281/zenodo.19627698**

**АННОТАЦИЯ**

**АККРЕЦИЯ В HERBIG AE/BE ЗВЕЗДАХ**

**Ф.С.ГУСЕЙНОВА**

В статье анализируется важная роль эмиссионных линий, наблюдаемых в звёздах Хербига типа Ae/Be, в качестве признаков аккреции. Достоверность каждой линии как признака аккреции оценивается путем сравнения частоты обнаружения эмиссионных линий с частотой обнаружения УФ-избытка. Подтверждено, что несколько эмиссионных линий, которые четко проявляются как признаки аккреции в звёздах типа CTTS, также являются надежными признаками аккреции в звёздах типа HAeBe. Кроме того, на основе низкого уровня обнаруженных эмиссионных линий установлено, что [O I] λ 6300 Å и He I 5876 Å могут быть слабыми признаками и связаны с УФ-избытком.

**Ключевые слова:** Линии излучения, аккреция, профиль P Cygni, звёздный ветер

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**Horizon Multidisciplinary Scientific Journal**
Journal homepage: https://horizonmsj.com/

Original Research Paper

# "Əkinçi" Qəzetində Dil Problemləri Və Azərbaycan Ədəbi Dilinin İnkişafinin Tarixi Dinamikasi

Arifə Zeynalova[1*]
https://orcid.org/0009-0007-4556-2348
Murad Qənbərov[1]
https://orcid.org/0009-0002-5709-280X

[1]*Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.*

Article history
Received: 12.03.2026
Revised: 19.03.2026
Accepted: 02.04.2026

*Corresponding Author: Arifə Zeynalova, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan;
Email: arifezeynalova9@gmail.com

**Xülasə**
Həsən bəy Zərdabi "Əkinçi" qəzeti vasitəsilə yalnız milli mətbuatın əsasını qoymaqla kifayətlənməmiş, eyni zamanda Azərbaycan ədəbi dilinin milli zəmində inkişafına güclü təkan vermiş, onun leksik, qrammatik və üslubi imkanlarının daha geniş və sistemli şəkildə üzə çıxarılmasına mühüm şərait yaratmışdır. Onun fəaliyyəti nəticəsində Azərbaycan dili təkcə məişət ünsiyyət vasitəsi kimi deyil, həm də ictimai, elmi və publisistik düşüncənin ifadə vasitəsi kimi formalaşmağa başlamışdır. Məqalədə "Əkinçi" qəzetinin müxtəlif saylarında əks olunan dil məsələləri müasir dilçilik yanaşmaları əsasında geniş şəkildə təhlil olunur. Burada alınma sözlərin milli qarşılıqlarla əvəzlənməsi prosesi, dil və nitq münasibətlərinin nəzəri və praktik aspektləri, nitqin formalaşma mexanizmləri, eləcə də ictimai mühitin dil davranışına təsiri xüsusi diqqət mərkəzində saxlanılır. Eyni zamanda rəsmi-işgüzar üslubun formalaşması və inkişafı, termin yaradıcılığı prosesində milli dil vahidlərinin aktivləşməsi, durğu işarələrinin yazı sistemində funksional rolu və onomastik vahidlərin (toponim və antroponimlərin) işlənmə xüsusiyyətləri kimi mühüm istiqamətlər kompleks şəkildə araşdırılır. Bununla yanaşı, dilin lüğət tərkibinin zənginləşməsi prosesi, dil əlaqələrinin tarixi və sosial xarakteri, qonşu dillərin Azərbaycan dilinə göstərdiyi qarşılıqlı təsir və bu təsirin nəticələri də elmi təhlil predmetinə çevrilir. Məqalədə həmçinin Həsən bəy Zərdabinin ortaq türk dili ideyası ilə bağlı irəli sürdüyü fikirlər xüsusi yer tutur və bu yanaşmanın dövrün dilçilik düşüncəsində nə qədər aktual və qabaqcıl olduğu vurğulanır. Ümumilikdə, Zərdabinin dilə yanaşması onun sistemli, elmi və maarifçi dünyagörüşünü əks etdirir və Azərbaycan dilçilik fikrinin inkişafında mühüm mərhələ kimi qiymətləndirilir.
**Açar sözlər**: *H.Zərdabi, "Əkinçi" qəzeti, Azərbaycan ədəbi dili, dil problemləri, dil siyasəti, publisistik üslub, dilin normalaşması*

## GİRİŞ

"Əkinçi" qəzetinin nəşri Azərbaycan dilinin və mədəni inkişafının tarixində yeni bir mərhələnin başlanğıcı kimi qiymətləndirilir və milli mətbuatın formalaşmasında əsaslı rol oynamışdır. Bu proses nəticəsində ana dilinin ictimai həyatdakı funksional imkanları genişlənmiş, ədəbi dilin publisistik üslubu formalaşmağa başlamış, rəsmi-işgüzar və elmi üslublarda isə milliləşmə meylləri güclənmişdir. Qəzetin dili dövrün klassik

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 42-48
**DOI:** https://doi.org/10.5281/zenodo.19665368

ədəbi ənənəsi ilə xalq danışıq dilinin sintezi əsasında qurulmuş, bu da onun həm geniş oxucu kütləsi üçün anlaşıqlı olmasını, həm də kommunikativ təsir gücünü artırmışdır. Qısa müddət ərzində mütərəqqi ziyalıların qəzet ətrafında toplanması və müxtəlif sosial təbəqələrin oxucu auditoriyasında təmsil olunması onun ictimai nüfuzunu daha da gücləndirmişdir. "Əkinçi"də dərc olunan materiallar – siyasi, elmi, tibbi, rəsmi və kənd təsərrüfatı mövzularında olsa belə – sadə, aydın və xalq dilinə yaxın üslubda təqdim olunur, eyni zamanda ana dilinin inkişafı və təbliği əsas istiqamət kimi qorunurdu.

"Əkinçi" qəzetində ölkənin Dərbənd, Tabasaran, Quba, Göyçay, Zərdab kimi bölgələrindən, eləcə də Qars, Krım və digər xarici ərazilərdən göndərilən məqalələrin çapı zamanı ədəbi dil normalarına ciddi şəkildə riayət edilirdi. Qəzetin lüğət tərkibinin əsasını milli sözlər təşkil etsə də, zərurət yarandıqda ərəb-fars və rus mənşəli alınmalardan da istifadə olunurdu. Verilən nümunə mətnlərdə kənd təsərrüfatı ilə bağlı sadə, izahlı və praktik üslub üstünlük təşkil edir, fikirlər xalq dilinə yaxın şəkildə təqdim edilirdi. Bu isə "Əkinçi"nin maarifləndirici funksiyasını gücləndirirdi. Eyni zamanda H.Zərdabi müəlliflərin fərdi üslubunu qorumağa xüsusi diqqət yetirir, hər bir yazarı öz dil xüsusiyyətləri ilə təqdim etməyə çalışırdı. Xüsusilə din xadimlərinin yazılarında ərəb və fars sözlərinin üstünlük təşkil etməsi dövrün dil mənzərəsini əks etdirən mühüm xüsusiyyət kimi diqqəti cəlb edir. "Əkinçi"nin bu mövqeyi mütərəqqi ziyalılar tərəfindən yüksək qiymətləndirilmiş, Ə.Topçubaşov da Həsən bəyin ana dilinin müdafiəsi istiqamətindəki fəaliyyətini xüsusi vurğulamışdır. Bununla belə, qəzetin fəaliyyət göstərdiyi dövrdə ədəbi dildə osmanlı türkcəsinə meylin gücləndiyi müşahidə olunur və bir qrup ziyalı İ.Qaspralının ideyalarına əsaslanaraq ümumtürk ədəbi dili kimi osmanlı dilinin istifadəsini təbliğ edirdi.

H.B. Zərdabi "Əkinçi" qəzeti vasitəsilə dil sahəsində müşahidə olunan bu cür meyllərə qarşı çıxaraq, eyni mənşəyə malik olmasına baxmayaraq dillərin tarixi inkişaf prosesində fərqli mərhələlərə çatdığını və bu səbəbdən də onların müasir səviyyə baxımından eyniləşdirilməsinin mümkün olmadığını göstərirdi. O, qəzetdə istifadə olunan İstanbul mətbəəsində çap edilmiş hürufat məsələsinə toxunaraq qeyd edirdi ki, Azərbaycan dilində bəzi səslərin – xüsusilə q, k, r, l kimi hərflərin – daha intensiv işlənməsi səbəbindən mövcud əlifba sistemi bu fonetik xüsusiyyətləri tam şəkildə əks etdirmir və bu da yazı prosesində müəyyən məhdudiyyətlər yaradır. Nəticədə bəzi hallarda sözlərin məzmunu saxlanılsa da, ifadə forması dəyişdirilməyə məcbur qalınırdı ki, bu da dilin təbii strukturuna müəyyən müdaxilə kimi dəyərləndirilə bilər.

Həsən bəy Zərdabi osmanlı türkcəsinin vəziyyətinə də tənqidi yanaşırdı və onun XIX əsrdəki vəziyyətini ədəbi dil baxımından tam uyğun hesab etmirdi. Onun fikrincə, osmanlı dilində ərəb və fars mənşəli sözlərin həddindən artıq çoxluğu ədəbi dil ilə xalq dili arasında ciddi uçurum yaratmış, bu isə ümumxalq anlaşılmasını çətinləşdirmişdir. Buna baxmayaraq, o, bu dillər arasında tam anlaşılmazlıq olmadığını da qeyd edərək bildirirdi ki, əsas çətinlik oxu zamanı diqqət və hazırlıq tələb edən leksik və terminoloji fərqlərlə bağlıdır.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 42-48
DOI: https://doi.org/10.5281/zenodo.19665368

Zərdabi Qafqaz müsəlmanlarının savadsızlıq səviyyəsini və elmdən uzaq qalmasını qismən də ərəb əlifbasının mürəkkəbliyi ilə əlaqələndirirdi. O, M.F. Axundova ünvanladığı məktubda ərəb qrafikasının fonetik sistemin tam ifadəsinə imkan vermədiyini, bəzi hərflərin yazılış və tələffüz baxımından oxşarlığının, saitlərin kifayət qədər ifadə olunmamasının, eləcə də nöqtə və işarələrin çoxluğunun oxu və yazı prosesində ciddi çətinliklər yaratdığını vurğulayırdı. Ümumilikdə, bu problemlər yazı sistemində qeyri-dəqiqliklərə və savadlanma prosesində ləngimələrə səbəb olurdu. Tarixi inkişaf baxımından baxıldıqda, türk dillərinin fonetik xüsusiyyətlərini daha dəqiq əks etdirən yazı sisteminə keçid zərurəti tədricən aktuallaşmış və XX əsrin əvvəllərində əlifba islahatı ilə bu istiqamətdə mühüm addımlar atılmışdır. Nəticədə latın qrafikasına keçid savadsızlığın azaldılmasına və yazı mədəniyyətinin sadələşdirilməsinə şərait yaratmışdır. Zərdabi isə ümumilikdə ana dilini yüksək mənəvi dəyər kimi qəbul edir, onu insan üçün ən müqəddəs varlıq – ana obrazı ilə müqayisə edərək dilə emosional və fəlsəfi yanaşma sərgiləyirdi.

H.B. Zərdabi ana dilinə münasibətdə milli məsuliyyəti xüsusi vurğulayaraq, öz dilini sevməyən, ana dilində danışmağa laqeyd yanaşan və onun inkişafına çalışmayan insanları mənəvi baxımdan anasına qayğı göstərməyən şəxslərə bənzədir. Onun fikrincə, dilə xidmət etmək təkcə ünsiyyət vasitəsinə münasibət deyil, həm də milli borcun ifadəsidir və bu borcdan yayınan şəxs cəmiyyət tərəfindən mənfi dəyərləndirilir. Bu baxımdan o qeyd edirdi ki, belə insanlara qarşı ictimai münasibət də soyuq olur və hətta onlara mənəvi etimadsızlıq formalaşır (2,10).

Qəzetin səhifələrində dilin ictimai funksiyası geniş şəkildə şərh olunur, nitqin formalaşması prosesi isə sosial mühitin təsiri ilə əlaqələndirilir. Xüsusilə ailə, məktəb və ümumi ictimai mühitin uşağın dil inkişafında əsas rol oynadığı vurğulanır. Uşağın ilkin nitq bacarıqları, söz ehtiyatı və ünsiyyət vərdişləri məhz ailə daxilində formalaşır və sonradan bu baza üzərində inkişaf edir. Bu yanaşma dilin sadəcə fərdi deyil, eyni zamanda sosial bir fenomen olduğunu göstərir (2,13).

Ədəbi dil sistemində əsas yeri milli leksika tutur, lakin bu sistemdə ərəb, fars və rus mənşəli alınmalar da müəyyən funksional rol oynayır. Bununla belə, Zərdabi leksik normanın pozulmasının əsas səbəbini xarici təsirdə deyil, ailə mühitində görür. Onun fikrincə, uşağın ilk dil materialını aldığı məkan ailədir və məhz burada işlədilən kobud, loru və qeyri-ədəbi ifadələr sonradan onun nitqinə sirayət edir. Bu proses nəticəsində uşaq yanlış dil modelini mənimsəyir və bu vərdiş cəmiyyətdə daha da möhkəmlənir. Beləliklə, tərbiyəvi mühitin zəifliyi dil mədəniyyətinin aşağı düşməsinə və ümumi mədəni inkişafdan geriləməyə səbəb olur (2,13).

H.B. Zərdabi dili millətin mövcudluğunu təmin edən əsas atributlardan biri kimi qiymətləndirir və bu səbəbdən bütün dillərə, o cümlədən azsaylı xalqların dillərinə hörmətlə yanaşılmasını vacib sayırdı. Onun yanaşmasına görə, hər bir dil yalnız ünsiyyət vasitəsi deyil, həm də tarixi yaddaşın və etnik kimliyin daşıyıcısıdır. Bu baxımdan o, bəzi azsaylı xalqların dillərinin mənşəyinin leksik təhlil əsasında öyrənilməsini və həmin dillərin qorunub saxlanılmasını elmi və mədəni baxımdan zəruri hesab edirdi.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 42-48
DOI: https://doi.org/10.5281/zenodo.19665368

Məsələn, o, Gürcüstanda yaşayan ud tayfasının dili haqqında məlumat verərək onun qədim Misir dili ilə əlaqə ehtimalını qeyd edir və bu kimi faktların tarixi-linqvistik tədqiqatlar üçün əhəmiyyətini vurğulayır (2,9).

"Əkinçi" qəzeti həm də onomastik vahidlərin, xüsusilə toponim və hidronimlərin öyrənilməsi baxımından mühüm tarixi mənbə kimi çıxış edir. Qəzetdə Azərbaycanla yanaşı Gürcüstan, Dağıstan, İran, Türkiyə, Rusiya, Özbəkistan və digər bölgələrə aid şəhər, kənd və çay adları haqqında məlumatlar verilmiş, bu adların coğrafi mövqeyi və tarixi konteksti izah olunmuşdur. Eyni zamanda müxtəlif etnik qruplar – köçəri qırğızlar, qıpçaqlar, qarapapaqlar, osetinlər və udlar haqqında təqdim olunan məlumatlar onların etnogenezinin və miqrasiya yollarının araşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Məsələn, qarapapaq tayfasının köçü ilə bağlı verilən məlumatlar tarixi demoqrafik proseslərin izahına xidmət edir (2,9).

Bundan əlavə, H.B. Zərdabi bəzi toponimlərin yaranması ilə bağlı xalq etimologiyasına da diqqət yetirərək, xüsusilə İstanbul adının mənşəyi haqqında xalq arasında yayılmış izahları qeyd edir və onların tarixi yaddaşla bağlı rolunu göstərir (2,8). Bu cür yanaşmalar göstərir ki, "Əkinçi" yalnız xəbər və maarifləndirmə funksiyası daşımır, həm də dil və tarixlə bağlı elmi düşüncənin formalaşmasına xidmət edirdi.

Qəzetin mühüm xüsusiyyətlərindən biri də rəsmi-işgüzar sənəd nümunələrinin geniş şəkildə çap olunması idi. Elanlar, məktublar və müxtəlif yazışmalar vasitəsilə cəmiyyətə zəruri məlumatlar çatdırılır, eyni zamanda ana dilinin yazı üslubu inkişaf etdirilirdi. Bu mətnlər sadə, aydın və xalq danışıq dilinə yaxın üslubda hazırlanır, sintaktik quruluş və leksik seçim baxımından anlaşıqlılıq əsas prinsip kimi götürülürdü. H.B. Zərdabi bu mətnlərdə sinonimlərdən və izahlı ifadələrdən istifadə etməklə məlumatın daha asan qavranılmasına şərait yaradırdı (2,12).

İşgüzar sənəd formalarının xalq arasında anlaşılır və əlçatan olması üçün "Əkinçi" qəzetində ana dilində hüquqi məsləhətlər də verilir, bu isə hüquqi-inzibati terminologiyanın ictimailəşdirilməsi baxımından mühüm addım kimi çıxış edirdi. Verilən nümunədə notariat qaydaları, vəkalətnamələrin növləri, onların təsdiq mexanizmi və rüsum məsələləri sadə və izahlı üslubda təqdim olunaraq hüquqi biliklərin geniş kütlələrə çatdırılmasına xidmət edirdi (2,1). Bu yanaşma həm hüquqi savadlılığın artırılmasına, həm də dövlət-sənəd münasibətlərinin xalq tərəfindən daha yaxşı anlaşılmasına şərait yaradırdı.

"Əkinçi" qəzetinin ən mühüm xidmətlərindən biri də Azərbaycan dilinin terminoloji sisteminin formalaşdırılması istiqamətində atdığı addımlar olmuşdur. Qəzet səhifələrində ilk dəfə olaraq müxtəlif sahələrə aid milli terminlər geniş şəkildə işlədilmiş, bu isə dilin ərəb-fars və rus-Avropa mənşəli terminlərdən asılılığını qismən azaltmışdır. Bir çox terminlər morfoloji və sintaktik üsullarla yaradılmış, dilin daxili imkanları hesabına yeni sözlər formalaşdırılmışdır. Eyni zamanda bəzi terminlər ilk dəfə istifadə

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 42-48
DOI: https://doi.org/10.5281/zenodo.19665368

olunduğundan onların mənası və funksiyası sadə izahlarla oxucuya çatdırılmışdır. Bu isə terminlərin ictimai mənimsənilməsini asanlaşdırmışdır.

Qəzetdə milli və alınma terminlərin paralel işlədilməsi də diqqət çəkən məqamlardandır. Bəzən anlaşılmazlığın aradan qaldırılması üçün bir anlayış həm milli, həm də alınma sözlə ifadə edilərək izah olunurdu ki, bu da keçid dövrü dil siyasətinin xarakterik xüsusiyyətlərindən biri idi. H.B. Zərdabinin bu sahədəki fəaliyyəti sonrakı dövrlərdə Azərbaycan terminologiyasının inkişafına ciddi təsir göstərmiş, milli terminlərin kəmiyyət və keyfiyyət baxımından zənginləşməsinə zəmin yaratmışdır.

“Əkinçi”nin Azərbaycan yazı mədəniyyətində rolu yalnız leksik səviyyə ilə məhdudlaşmırdı. Həsən bəy yazının oxunaqlılığını və fikrin daha aydın ifadəsini təmin etmək üçün durğu işarələrinin istifadəsinə xüsusi önəm verirdi. İlk dəfə olaraq iki nöqtə, çox nöqtə, sual işarəsi, mötərizə və defis kimi qrafik vasitələrin işlənməsi və onların funksional məqamlarının müəyyənləşdirilməsi yazı sistemində strukturlaşmanı gücləndirmişdir. Bu isə sonrakı dövrlərdə yazı dilinin daha sistemli və normativ əsasda formalaşmasına təsir göstərmişdir.

“Əkinçi” fəaliyyətini dayandırdıqdan sonra H.B. Zərdabi “Həyat” qəzeti ilə əməkdaşlıq edərək dil və ictimai məsələlərlə bağlı fikirlərini davam etdirmişdir. O, “Kənd mirzələrindən xilas olmalıyıq” məqaləsində rus dilinin inzibati sahədə geniş yayılmasına və ana dilinin funksional imkanlarının məhdudlaşdırılmasına tənqidi münasibət bildirir, milli dilin dövlət idarəçiliyində əsas yer tutmasının vacibliyini vurğulayırdı. Bu kontekstdə Azərbaycan dili ilə gürcü dili müqayisə edilərək, Gürcüstanda milli dildə idarəetmə təcrübəsinin mövcudluğu nümunə kimi göstərilirdi (3, 216; 3, 218).

Zərdabi “İttihadi-lisan” və “Dil davası” məqalələrində isə dilin ümumi inkişaf qanunauyğunluqlarını izah edir, onu statik deyil, daim dəyişən və inkişaf edən sosial fenomen kimi təqdim edirdi. Onun fikrincə, cəmiyyət inkişaf etdikcə dil də dəyişir, yeni sözlər yaranır və dilin lüğət ehtiyatı zənginləşir. Bu prosesin təbii olduğunu vurğulayaraq, alınma sözlərin dilə daxil olmasının zərər deyil, əksinə, tərəqqi vasitəsi olduğunu qeyd edirdi (3, 243).

Eyni zamanda o, ortaq türk ədəbi dili ideyasına da toxunaraq, türk xalqları arasında dil birliyi məsələsinin tarixi və mədəni əhəmiyyətini ön plana çıxarırdı. Bu yanaşma onun dil siyasətində həm milli, həm də ümumtürk miqyaslı düşüncə sisteminə sahib olduğunu göstərir.

H.B. Zərdabi ana dilinin türk dili olduğunu əsas götürərək, bu dilin zaman və məkan fərqləri nəticəsində müxtəlif bölgələrdə fərqli şivələrə ayrıldığını və bu prosesin təbii inkişafın nəticəsi olduğunu vurğulayırdı. Onun fikrincə, türk tayfaları elmi və mədəni tərəqqi yoluna daxil olduqca, bu dialekt fərqləri daha da dərinləşə və nəticədə qarşılıqlı anlaşılmazlıq səviyyəsinə qədər gedib çıxa bilərdi. Bu isə həm danışıq, həm də yazı səviyyəsində ünsiyyətin zəifləməsi ilə nəticələnə bilərdi (3, 244).

Bu təhlükənin qarşısını almaq məqsədilə XIX əsrin sonu – XX əsrin əvvəllərində İ. Qaspralı tərəfindən irəli sürülən ortaq türk dili ideyasına Zərdabi də dəstək vermiş və bu məsələnin tarixi zərurət

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

olduğunu qeyd etmişdir. O hesab edirdi ki, ümumi bir yazı və ünsiyyət dilinin formalaşdırılması türk xalqları arasında mədəni yaxınlaşmanı gücləndirər, onların elmi və ictimai inkişafını sürətləndirər. Bu baxımdan ortaq dil ideyası yalnız linqvistik məsələ deyil, həm də siyasi və mədəni inteqrasiyanın mühüm vasitəsi kimi dəyərləndirilirdi (3, 244).

Zərdabi eyni zamanda dil əlaqələrinin sosial və tarixi xarakterini də təhlil edərək, Qafqaz və qonşu regionlarda yaşayan müxtəlif etnik qruplar arasında ikidilli mühitlərin formalaşmasını qeyd edirdi. Onun müşahidələrinə görə, Dağıstan və ətraf bölgələrdə yaşayan bəzi tayfalar – Samur, Tabasaran, Qumuq və Kürə okruqlarında məskunlaşan icmalar – intensiv sosial əlaqələr nəticəsində tədricən türk dilini mənimsəmiş və assimilyasiya prosesinə daxil olmuşlar (3, 246). Bu proses dil əlaqələrinin tarixi inkişafının təbii nəticəsi kimi təqdim olunur.

Eyni yanaşma digər etnik qruplara münasibətdə də müşahidə edilir. Zərdabi İran tərəfindən Qafqaza köç etmiş müxtəlif mənşəli tayfaların zamanla Azərbaycan-türk dilini ünsiyyət vasitəsi kimi qəbul etdiyini və nəticədə dillərinin türkləşdiyini qeyd edir. O, bu prosesi zorakı deyil, sosial və mədəni qarşılıqlı təsirin nəticəsi kimi izah edir və onu tarixi-linqvistik bir reallıq kimi qiymətləndirir (3, 247).

Bununla yanaşı, bəzi icmaların öz dilini qoruyub saxlaması isə onların coğrafi təcrid vəziyyəti ilə izah olunur. Məsələn, Şirvanda Lahıc kəndinin dağlıq ərazidə yerləşməsi və digər bölgələrlə zəif əlaqəsi burada fars dilinin uzun müddət qorunub qalmasına səbəb olmuşdur (3, 247). Bu fakt Zərdabinin dilin sosial mühitlə birbaşa bağlılığı barədə elmi qənaətini daha da gücləndirir.

Ümumilikdə, H.B. Zərdabinin ana dili və türk dillərinin inkişafı ilə bağlı fikirləri sonrakı dövrlərdə Azərbaycan dilçiliyinin müxtəlif sahələrində – xüsusilə nitq mədəniyyəti, üslubiyyat, terminologiya və dil əlaqələri istiqamətində – nəzəri əsasların formalaşmasına ciddi təsir göstərmişdir. Onun irəli sürdüyü ortaq türk dili ideyası isə müasir dövrdə də aktuallığını qoruyur və türk xalqları arasında vahid ünsiyyət vasitəsinin yaradılması istiqamətində aparılan elmi və mədəni təşəbbüslərə ideoloji zəmin yaradır.

## ƏDƏBİYYAT

1. Cəfərov, S. (2007). Azərbaycan dilinin üslubiyyatı. Bakı: Maarif.
2. Əkinçi (tam mətni) - transliterasiya və tərtib edəni: T.Həsənzadə. Bakı: Avrasiya Press, 2005, 496 s.
3. Həsən bəy Zərdabi. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1960, 432 s
4. Məmmədov, M. (2010). Azərbaycan dilçiliyi və terminologiyanın inkişafı. Bakı: Nurlan.
5. Topçubaşov, Ə. (1918/yenidən nəşr). Azərbaycanın mayakı (Həsən bəy Zərdabi haqqında). Bakı.
6. Xəlilov, B. (2012). Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: ADPU nəşriyyatı.
7. Xudiyev, N. (2003). Azərbaycan ədəbi dili tarixi. Bakı: Elm nəşriyyatı.
8. Zərdabi, H. B. (1875–1877). “Əkinçi” qəzeti (seçilmiş nömrələr). Bakı.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 42-48
**DOI:** https://doi.org/10.5281/zenodo.19665368

## ABSTRACT

## Language Issues in the "Akinchi" Newspaper and the Historical Dynamics of the Development of the Azerbaijani Literary Language

**Arifa Zeynalova**
**Nakhchivan State University**

Hasan bey Zardabi, through the newspaper *"Akinchi"*, not only laid the foundation of the national press in Azerbaijan but also made a significant contribution to the development of the Azerbaijani literary language on a national basis. His activity created favorable conditions for the systematic expansion of the lexical, grammatical, and stylistic capacities of the language. As a result, Azerbaijani began to develop not only as a means of everyday communication but also as an instrument for expressing social, scientific, and journalistic thought.

The article provides a comprehensive analysis of linguistic issues reflected in different issues of *"Akinchi"* from the perspective of modern linguistics. It focuses on the replacement of loanwords with native equivalents, theoretical and practical aspects of the relationship between language and speech, mechanisms of speech formation, and the influence of the social environment on linguistic behavior. At the same time, it examines the formation and development of official-business style, the activation of native linguistic units in terminology creation, the functional role of punctuation marks in the writing system, and the usage features of onomastic units such as toponyms and anthroponyms.

In addition, the study explores the enrichment of vocabulary, the historical and social nature of language contacts, mutual influence between neighboring languages, and its outcomes. Special attention is given to Zardabi's ideas on the concept of a common Turkic language, highlighting their relevance and advanced nature in the linguistic thought of his time. Overall, Zardabi's approach to language reflects a systematic, scientific, and enlightenment-oriented worldview and represents an important stage in the development of Azerbaijani linguistic studies.

**Keywords:** *H. Zardabi, "Akinchi" newspaper, Azerbaijani literary language, language problems, language policy, journalistic style, language standardization*

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**Horizon Multidisciplinary Scientific Journal**
Journal homepage: https://horizonmsj.com/




Original Research Paper

# Structural and Thermal Characterization of Boron-Doped Nano $TiO_2$: Hydrothermal Synthesis for Flame-Retardant Nanomaterials

**Huseyn Imanov**
https://orcid.org/0000-0002-6970-5645

[1]*Faculty of Natural Sciences and Agriculture, Department of Chemistry, Nakhchivan State University, Nakhchivan, Azerbaijan*

Article history
Received: 17.03.2026
Revised: 28.03.2026
Accepted: 02.04.2026

*Corresponding Author: Huseyn Imanov, Faculty of Natural Sciences and Agriculture, Department of Chemistry, Nakhchivan State University, Nakhchivan, Azerbaijan;
Email: huseyn.imanov@ndu.edu.az

**Abstract**
In this study, the structural, morphological, and thermal effects of doping nano-sized titanium dioxide ($TiO_2$) with two distinct boron sources—boron oxide ($B_2O_3$) and boric acid ($H_3BO_3$)—were systematically investigated. Synthesis was performed via the hydrothermal method in a PTFE-lined autoclave reactor at 200 °C for 4 hours. Comprehensive characterization of the resulting nanomaterials was conducted using X-ray diffraction (XRD), scanning electron microscopy (SEM), energy dispersive X-ray spectroscopy (EDS), and thermogravimetric/differential scanning calorimetry (TGA/DSC) analysis. XRD results confirmed that the $TiO_2$ matrix retained its anatase crystal structure in both doping approaches. SEM images revealed grain sizes in the range of 96–97 nm for boron oxide-doped samples and 96–111 nm for boric acid-doped samples. EDS confirmed the successful integration of dopant elements (B, O, Ti) into the structure. TGA/DSC data verified endothermic phase transitions at ~228 °C for $B_2O_3$-doped samples and below 200 °C for $H_3BO_3$-doped samples, fully consistent with the $B_2O_3$–$H_2O$ phase diagram. The findings demonstrate that boron doping renders $TiO_2$ nanostructures a promising material for flame-retardant textile applications.
***Keywords:*** *Nano $TiO_2$, Boron Doping, Hydrothermal Synthesis, Anatase, Flame Retardancy, Thermal Characterization, XRD, SEM*

## 1. INTRODUCTION

Titanium dioxide ($TiO_2$) is one of the most extensively investigated semiconducting metal oxides in the fields of environmental remediation, energy conversion, and advanced materials science, owing to its outstanding photocatalytic activity, high chemical stability, low toxicity, and cost-effectiveness [1–3]. $TiO_2$ exists in three primary polymorphic crystal structures—anatase, rutile, and brookite—among which the anatase form is of particular significance due to its superior photocatalytic performance, making it highly relevant for photovoltaic systems, photocatalysts, and self-cleaning surfaces [4,5, 23].

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

DOI: https://doi.org/10.5281/zenodo.19665545

Nevertheless, the relatively wide bandgap of $TiO_2$, approximately 3.0–3.2 eV, limits its ability to utilize the visible light spectrum efficiently, thereby constraining its practical applications [6]. To overcome this limitation, a variety of cationic and anionic doping strategies have been developed within the framework of bandgap engineering. The incorporation of non-metals such as nitrogen (N), sulfur (S), phosphorus (P), and boron (B), as well as transition metal ions including Fe3+, Cu2+, and Zn2+, into the $TiO_2$ lattice can profoundly transform its electronic and surface properties [7,8].

Boron doping is regarded as a particularly attractive approach for $TiO_2$ modification, primarily because boron can be incorporated into the $TiO_2$ lattice in both cationic ($B^{3+}$) and anionic ($B^{3-}$) forms, simultaneously improving surface acidity, photocatalytic efficiency, and thermal stability. Furthermore, boron oxide ($B_2O_3$) is a well-established flame retardant compound, particularly in the textile industry [9,10].

This study presents a comprehensive structural, morphological, and thermal characterization of boron-doped nano $TiO_2$ materials synthesized via the hydrothermal method using two different boron precursors: $B_2O_3$ and $H_3BO_3$. The principal original contribution of this work is the systematic comparison of the effects of these two boron sources—differing in their phase states—on the crystal structure, grain morphology, and thermal behavior of the doped product. The resulting nanomaterials are evaluated as candidates for flame-retardant textile applications, leveraging the flame-inhibiting function of the boron oxide content.

## 2. THEORETICAL BACKGROUND AND LITERATURE REVIEW

### 2.1. Crystal Structure and Photocatalytic Significance of $TiO_2$

$TiO_2$ occurs in three polymorphic forms: anatase, rutile, and brookite. Anatase and rutile adopt tetragonal symmetry, while brookite is orthorhombic. The fundamental structural unit in all polymorphs is the $TiO_6$ octahedron; however, differences in octahedral connectivity give rise to the distinct physicochemical properties characteristic of each phase [5]. The anatase phase exhibits the highest photocatalytic activity, attributed to its bandgap of approximately 3.2 eV, high electron mobility, and superior surface area. Upon calcination in the range of 660–950 °C, anatase undergoes an irreversible transformation to the thermodynamically stable rutile phase [5]. Rutile (3.0 eV) offers advantages in visible light absorption, yet its photocatalytic activity remains lower than that of anatase. Hydrothermal synthesis, which enables direct control over grain size, surface area, and phase composition, has emerged as a versatile method capable of producing all three polymorphs [11].

### 2.2. Chemistry of Boron Compounds and Their Role in $TiO_2$ Doping

The thermal dehydration of boric acid ($H_3BO_3$) proceeds through a stepwise phase transformation, initially forming metaboric acid ($HBO_2$) and subsequently yielding fully dehydrated boron oxide ($B_2O_3$).

OPEN ACCESS
© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

The $B_2O_3$–$H_2O$ phase diagram precisely defines the boundary conditions of these transformations: $H_3BO_3$ is stable up to approximately 170 °C, and $HBO_2$ remains stable between 176 °C and 236 °C [20]. These phase transitions directly influence the properties of the final product depending on the boron source employed during doping.

The incorporation of boron into the $TiO_2$ lattice can occur via two competing mechanisms: (i) substitutional doping, in which $B^{3+}$ ions occupy titanium sites, and (ii) interstitial doping, in which B3+ ions fill oxygen vacancies. Both mechanisms introduce oxygen vacancies into the $TiO_2$ structure, enhancing photoabsorption capacity and thereby increasing photocatalytic activity under visible light [9,10]. Moreover, residual boron oxide phases at the surface are known to exhibit flame-retardant behavior, creating potential application opportunities in the textile industry through their interaction mechanism with cotton fibers.

### 2.3. Hydrothermal Synthesis Method

Hydrothermal synthesis refers to the crystal growth process carried out in aqueous solution under elevated temperature and pressure conditions. Typically conducted in autoclaves at temperatures ranging from 100 to 374 °C and pressures of 1–500 MPa, this approach offers several advantages for nanomaterial synthesis: precise control over grain size and morphology, narrow size distribution, high purity, and the direct production of nanometric products without the need for additional calcination steps [11]. Compared to the sol-gel method, hydrothermal synthesis enables homogeneous nucleation and controlled growth conditions, as the product forms directly within the solution medium [12-19, 21].

## 3. MATERIALS AND METHODS

### 3.1. Chemicals and Reagents

Tetrapropyl orthotitanate ($Ti(OPr\textit{n})_4$) was used as the titanium precursor, isopropyl alcohol (IPA) as the solvent, and analytical-grade boron oxide ($B_2O_3$) and boric acid ($H_3BO_3$) as the boron sources. All reagents were used as received without further purification.

### 3.2. Hydrothermal Synthesis Procedure

The synthesis was carried out under standardized conditions with a water-to-alkoxide molar ratio of 3.0 and pH 5.5. The titanium precursor (42.47 mL of tetrapropyl orthotitanate, equivalent to 40 g of Ti) was first dissolved in 97.73 mL of IPA and homogenized under magnetic stirring for 15 minutes. Subsequently, 0.2 g of either $B_2O_3$ or $H_3BO_3$ was dissolved using a combination of magnetic stirring and ultrasonic bath, then added dropwise to the main solution via burette and stirred for an additional 15 minutes. A water-IPA mixture (27.92 mL IPA + 6.48 mL $H_2O$) was then added in the same dropwise manner, and the resulting mixture was stirred continuously for 30 minutes.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.19665545

The prepared solution was transferred to PTFE-lined autoclave reactors and subjected to hydrothermal reaction at 200 °C for 4 hours. After the reaction, the system was left sealed for 24 hours to allow natural cooling to room temperature. The resulting solid precipitate was filtered using a No. 4 pore filter and vacuum pump assembly, washed thoroughly with pure ethanol followed by deionized water, and then dried in a vacuum oven at 75 °C for 48 hours. The dried products were ground into powder and stored for further characterization.

### 3.3. Characterization Techniques

X-ray diffraction (XRD) analysis was performed using CuKα radiation (λ = 1.54 Å) at 40 kV and 40 mA, over a 2θ scanning range of 5°–70° with a step size of 0.02°/step [22]. Phase identification was carried out with reference to the JCPDS database compiled by the ICDD. Crystallite size was calculated using the Scherrer equation ($D = K\lambda/\beta\cos\theta$). Morphological investigations were conducted using a JEOL JSM-5910LV scanning electron microscope (SEM) at an accelerating voltage of 20 kV and magnifications of 10,000× and 50,000×. Elemental composition was determined by energy dispersive X-ray spectroscopy (EDS) integrated into the same instrument. Thermal characterization was performed using an SDT Q600 simultaneous DSC-TGA instrument from room temperature to 1000 °C at a heating rate of 10 °C/min under a nitrogen atmosphere.

## 4. RESULTS AND DISCUSSION

### 4.1. X-Ray Diffraction (XRD) Analysis

The XRD patterns of both doped samples exhibit intense and well-defined anatase $TiO_2$ diffraction peaks. In the boron oxide-doped sample, the most intense peaks at 25.36° and 27.70° 2θ correspond to anatase $TiO_2$ (JCPDS 21-1272) and the $B_2O_3$ phase, respectively. In the boric acid-doped sample, strong peaks at 25.32° and 26.17° 2θ similarly indicate the anatase phase alongside residual $H_3BO_3$/$B_2O_3$ phases. The preservation of the anatase structure in both samples confirms that the hydrothermal synthesis conditions and the doping concentration were carefully optimized to prevent phase transformation to rutile.

A notable broadening of XRD peaks was observed in the boric acid-doped sample compared to the boron oxide-doped one. Based on the Scherrer equation, peak broadening is directly related to a reduction in crystallite size. This finding suggests that the use of $H_3BO_3$ promotes the formation of finer crystalline domains compared to $B_2O_3$. This difference can be attributed to the distinct solubility and reactivity of the two precursors: $H_3BO_3$ exhibits higher solubility under hydrothermal conditions, providing a more homogeneous nucleation environment.

### 4.2. Morphological Analysis (SEM)

SEM images reveal a compact morphology consisting of equiaxed, agglomerated nanoparticles in both samples. In the $B_2O_3$-doped $TiO_2$ sample, grain sizes measured at 50,000× magnification fall within

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.19665545
the range of 96–97 nm, indicating an exceptionally narrow size distribution. In the $H_3BO_3$-doped sample, grain sizes were measured in the range of 96–111 nm, reflecting a comparatively broader size distribution. The fact that grain sizes in both samples remain at or below 100 nm confirms the successful preservation of nanoscale architecture throughout the synthesis process.

The observed differences in grain size can be explained by the distinct thermal reactivity of the two boron sources. $B_2O_3$ adopts a glass-like viscous state at elevated temperatures and may act as a growth-inhibiting barrier by coating the $TiO_2$ grain surfaces, thereby accounting for the more uniform size distribution observed. $H_3BO_3$, on the other hand, generates active boron species under hydrothermal conditions that interact with both the surrounding medium and the $TiO_2$ surface, leading to a partially different nucleation and growth kinetics.

### 4.3. Elemental Composition (EDS) Analysis

EDS analysis confirmed the presence of Ti, O, and B in both samples. In the $B_2O_3$-doped sample, the elemental composition was determined as B: 19.01 wt.%, O: 39.37 wt.%, and Ti: 41.62 wt.%. In the $H_3BO_3$-doped sample, the corresponding values were B: 20.83 wt.%, O: 41.73 wt.%, and Ti: 37.44 wt.%. These results confirm that the dopant boron element was successfully integrated into the synthesized nano $TiO_2$ structure in both approaches.

Notably, the $H_3BO_3$-doped sample exhibited a higher boron content (20.83 wt.%) alongside a lower Ti proportion (37.44 wt.%) compared to the $B_2O_3$-doped sample (Ti: 41.62 wt.%). This observation suggests that the higher solubility of the $H_3BO_3$ precursor facilitated a greater incorporation of boron into the $TiO_2$ matrix. In both samples, the O/Ti ratio exceeds the expected stoichiometry, pointing to the presence of residual boron oxide phases—an observation consistent with the XRD findings.

### 4.4. Thermal Analysis (TGA/DSC) Results

TGA/DSC analyses provide one of the most critical findings confirming the hypothesis of this study. A pronounced endothermic event was observed at 228.29 °C in the $B_2O_3$-doped sample. This temperature coincides with the stability boundary of the $B_2O_3$ phase in the $B_2O_3$–$H_2O$ phase diagram, confirming that the boron oxide component within the product exhibits the predicted thermal behavior. In contrast, the endothermic transformation occurring below 200 °C in the $H_3BO_3$-doped sample corresponds to the conversion of $H_3BO_3$ to metaboric acid ($HBO_2$), which is in full agreement with the $H_3BO_3$ decomposition region in the phase diagram.

Both samples exhibited an initial mass loss of approximately 5–10 wt.% attributable to the removal of adsorbed water and surface hydroxyl groups, with the majority of this weight loss completed below 400 °C. This defines the appropriate pre-sintering heat treatment temperature range, which is of practical significance. The negligible weight change observed at higher temperatures confirms the preservation of the thermal stability of the $TiO_2$ matrix. Collectively, these findings demonstrate that both boron sources

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

were successfully integrated into the $TiO_2$ structure while retaining their characteristic phase transition kinetics.

### 4.5. Comparative Assessment of Doping Mechanisms

When the findings are evaluated as a whole, the two boron sources appear to operate through distinct doping mechanisms. The $B_2O_3$-doped samples are characterized by a narrower grain size distribution, lower boron content, and a thermal transition near 228 °C. Structurally, $B_2O_3$ is thought to predominantly reside at grain boundaries, forming a coating over $TiO_2$ particles. The $H_3BO_3$-doped samples, by contrast, are distinguished by a broader grain size distribution, higher boron content, and a thermal transition below 200 °C. Given the higher solubility of $H_3BO_3$, it is anticipated that boron is incorporated largely into the $TiO_2$ lattice or forms a very thin interfacial layer.

A noteworthy observation is the preservation of the anatase structure in both approaches, despite the use of different boron sources and markedly different synthesis mechanisms. This indicates that the hydrothermal synthesis conditions (0.5 wt.% doping ratio, pH 5.5, 200 °C) exert a dominant influence on the stability of the anatase phase. Scherrer crystallite sizes calculated from XRD and SEM measurements are in good agreement, suggesting that the particles exist as single crystals or units composed of a small number of crystallites.

## 5. CONCLUSION

In this study, boron-doped nano $TiO_2$ materials synthesized via the hydrothermal method using $B_2O_3$ and $H_3BO_3$ were comprehensively characterized by XRD, SEM, EDS, and TGA/DSC techniques. The principal findings and overall conclusions of the study are summarized below:

1. XRD analysis confirmed the preservation of the anatase crystal structure of the $TiO_2$ matrix in both doping approaches, demonstrating that the selected hydrothermal synthesis conditions (200 °C, pH 5.5, water-to-alkoxide ratio = 3.0) are highly suitable for maintaining anatase phase stability.
2. SEM analysis confirmed the formation of genuine nano-scale grain structures in the range of 96–97 nm for $B_2O_3$-doped samples and 96–111 nm for $H_3BO_3$-doped samples. The $B_2O_3$ source was found to exert a more pronounced inhibitory effect on grain growth.
3. EDS characterization verified the successful incorporation of the dopant boron element into the $TiO_2$ structure in both samples, with the $H_3BO_3$ source enabling a higher degree of boron incorporation due to its greater solubility.
4. TGA/DSC analyses clearly distinguished the divergent thermal behaviors of the two boron sources: the endothermic transitions at 228 °C for $B_2O_3$-doped samples and below 200 °C for $H_3BO_3$-doped samples are in full agreement with the $B_2O_3$–$H_2O$ phase diagram, confirming that boron sources in different phase states significantly influence the thermal stability of the final product.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

5. Both precursors were shown to enable the successful synthesis of boron-containing nano $TiO_2$ materials: the $B_2O_3$ source yields a narrow size distribution, while the $H_3BO_3$ source provides a higher boron content—allowing precursor selection to be tailored to the requirements of the intended application.
6. The boron oxide component within the nano $TiO_2$ structure is considered to possess flame-retardant potential through bonding to textile fibers, positioning the resulting materials as promising candidates for functional textile applications.

Future research directions should focus on the systematic variation of boron doping concentration and evaluation of photocatalytic activity under visible light irradiation, elucidation of the boron cation/anion equilibrium mechanism via XPS analysis, and assessment of the practical flame-retardant performance of the synthesized nanomaterials in textile systems.

## REFERENCES

[1] Fujishima, A., Honda, K. (1972). Electrochemical photolysis of water at a semiconductor electrode. Nature, 238(5358), 37–38.

[2] Linsebigler, A.L., Lu, G., Yates, J.T. (1995). Photocatalysis on $TiO_2$ surfaces: principles, mechanisms, and selected results. Chemical Reviews, 95(3), 735–758.

[3] Chen, X., Mao, S.S. (2007). Titanium dioxide nanomaterials: synthesis, properties, modifications, and applications. Chemical Reviews, 107(7), 2891–2959.

[4] Hanaor, D.A.H., Sorrell, C.C. (2011). Review of the anatase to rutile phase transformation. Journal of Materials Science, 46(4), 855–874.

[5] Bhave, R.C., Lee, B.I. (2007). Experimental variables in the synthesis of brookite phase $TiO_2$ nanoparticles. Materials Science and Engineering A, 467(1–2), 146–149.

[6] Asahi, R., Morikawa, T., Ohwaki, T., Aoki, K., Taga, Y. (2001). Visible-light photocatalysis in nitrogen-doped titanium oxides. Science, 293(5528), 269–271.

[7] Zhao, W., Ma, W., Chen, C., Zhao, J., Shuai, Z. (2004). Efficient degradation of toxic organic pollutants with $Ni_2O_3/TiO_2xBx$ under visible irradiation. Journal of the American Chemical Society, 126(15), 4782–4783.

[8] In, S., Orlov, A., Berg, R., García, F., Pedrosa-Jimenez, S., Tikhov, M.S., Armstrong, D., Lambert, R.M. (2007). Effective visible light-activated B-doped and B,N-codoped $TiO_2$ photocatalysts. Journal of the American Chemical Society, 129(45), 13790–13791.

[9] Liu, G., Zhao, Y., Sun, C., Li, F., Lu, G.Q., Cheng, H.M. (2008). Synergistic effects of B/N doping on the visible-light photocatalytic activity of mesoporous $TiO_2$. Angewandte Chemie International Edition, 47(24), 4516–4520.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.19665545
[10] Finnie, K.S., Bartlett, J.R., Woolfrey, J.L. (1999). Boron-containing titania sol–gel films: effect of $B_2O_3$ on crystallisation. Journal of Materials Chemistry, 9(7), 1681–1685.

[11] Yoshimura, M., Byrappa, K. (2008). Hydrothermal processing of materials: past, present and future. Journal of Materials Science, 43(7), 2085–2103.

[12] Imanov, H., Jafarli, M., Mahmudov, S., & Karimova, S. (2025). Investigation of the Conditions for Obtaining the Silver Thioarsenate Compound from the $AgNO_3$-$As_2S_5$-$H_2O$ System and Investigation of the Properties of the Obtained Silver Thioarsenate Compound. 1600-1612.

[13] Imanov, H., & Jafarli, M. (2025). Investigation of the interaction conditions of $As_2S_5$ and $CuCl_2$ compounds in water and ethylene glycol medium. Turkish Journal of Chemistry, 49(2), 204-214.

[14] Imanov, H., & Huseynov, Q. (2021). Investigation of the Acquisition Conditions of $Tl_3AsS_4$ Compound in the Aquatic Environment. Journal of the Turkish Chemical Society Section A: Chemistry, 8(2), 527-534.

[15] Imanov, H., & Huseynov, Q. (2020). Investigation of acquisition of triple sulfurs from $Pb(CH_3COO)_2$-$Na_3AsO_4$-$H_2S$-$H_2O$ system by hydrochemical method. Journal of the Turkish Chemical Society Section B: Chemical Engineering, 3(2), 35-40.

[16] Imanov, H. A., & Huseynov, G. M. (2021). Study of the conditions for the acquisition of $Tl_3AsS_4$ in ethylene glycol. Kimya Problemleri, (3), 135-142.

[17] Əliyeva S.H., Hüseynov Q.M. (03-06 Mart 2020). Hidrokimyəvi metodla $Tl_3SbS_4$ birləşməsinin alınması // Seconda İnternational Scientific Conference of Young Scientists and Specialist SOCAR, p.315-317.

[18] Hüseynov Q.M., Əliyeva S.H. (2020). Hidrotermal şəraitdə $TlSb^{+3}(Sb^{+5})S^{-2}$-$H_2O$ sistemlərindən üçlü sulfidlərin alınması. Naxçıvan: AMEA Naxçıvan Bölməsi Elmi Əsərlər, Təbiət və Texniki Elmlər seriyası. 4, s.30-36.

[19] Алиева С.Н. (2024). Исследование Условий Получения Тиостибиата Серебра(I) из системы $Sb_2S_5$-$AgNO_3$-$H_2O$. Международный научный журнал «Наука и Мир» Volgograd. 7 cild 131, c.20-26

[20] Adams, R.M. (1964). Boron, Metallo-Boron Compounds and Boranes. Interscience Publishers, New York.

[21] Venkatachalam, N. et al. (2007). Sol-gel preparation and characterization of nanosize $TiO_2$. Materials Chemistry and Physics, 104(2–3), 454–459.

[22] Scherrer, P. (1918). Bestimmung der Größe und inneren Struktur von Kolloidteilchen mittels Röntgenstrahlen. Nachrichten von der Gesellschaft der Wissenschaften zu Göttingen, 2, 98–100.

[23] Matthews, R.W. (1993). Photocatalytic purification and treatment of water and air. In: Ollis, D.F., Al-Ekabi, H. (Eds.), Elsevier, Amsterdam.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**Horizon Multidisciplinary Scientific Journal**
Journal homepage: https://horizonmsj.com/

Original Research Paper

# Vokativ Sözlər Və Mehmet Akif Ersoyun Yaradıcılığı

Qənirə Əsgərova
https://orcid.org/0009-0005-7756-8029

*Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.*

Article history
Received: 12.03.2026
Revised: 19.03.2026
Accepted: 02.04.2026

*Corresponding Author: Qənirə Əsgərova, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan;
Email: asgerovaganira@gmail.com

**Xülasə**
Bu məqalədə XX əsr Türk ədəbiyyatının görkəmli nümayəndəsi Mehmet Akif Ersoyun poeziyasındakı xitabların (vokativlərin) üslub xüsusiyyətləri araşdırılır. Məqsəd şairin dilində xitabların funksiyalarını müəyyənləşdirmək, onların nitq aktlarında, emosional ifadələrdə və ideoloji mesajların çatdırılmasındakı rolunu təhlil etməkdir. Tədqiqat çərçivəsində həm klassik vokativ nəzəriyyəsi, həm də beynəlxalq vokativ tədqiqatları əsasında müqayisəli analiz aparılmışdır. Məlum olur ki, M.A.Ersoyun xitabları yalnız bir nitq vasitəsi deyil, eyni zamanda mətnin emosional rezonansını artıran, ideoloji, dini və milli mesajları gücləndirən strateji üslub elementi kimi çıxış edir. Xitablar oxucunun diqqətini yönləndirmək, mətnin strukturunu, ritmini formalaşdırmaq və şairlə dinləyici arasında ünsiyyət qurmaq funksiyasını da yerinə yetirir. Araşdırmada həmçinin vokativlərin istifadə kontekstləri, təkrar formaları, çağırış və müraciət funksiyaları nəzərdən keçirilmişdir. Beynəlxalq yanaşmalarla müqayisədə müəyyən edilmişdir ki, Ersoyun poeziyasında xitabların istifadəsi yalnız üslubi məqsədlərlə məhdudlaşmır; onlar həm də sosial və dini dəyərlərin çatdırılmasında, cəmiyyətə nüfuz edən təlim və nəsihət mesajlarının formalaşdırılmasında mühüm rol oynayır. Bu nəticələr, həm türk vokativ ədəbiyyatı, həm də qlobal vokativ tədqiqatları kontekstində şairin üslubunun strateji və funksional aspektlərini göstərir. Məqalə həm M.A.Ersoyun xitablarını, həm də beynəlxalq vokativ nəzəriyyələri ilə müqayisəli nəticələri təqdim etməklə, vokativlərin funksional və emosional aspektlərinin dərin anlaşılmasına töhfə verir.
**Açar sözlər**: poetik dil, üslub, xitab, bədiilik, ideoloji yük

## GİRİŞ

Xitablar (vokativlər) nitqdə üslub və emosional ifadənin vacib elementlərindən biridir. Beynəlxalq tədqiqatlarda xitablar danışıq aktlarının icrasında, sosial münasibətlərin ifadəsində və nitqdə diqqətin yönləndirilməsində əhəmiyyətli rol oynayır. Mehmet Akif Ersoy şeirlərində xitabları milli və dini ideyaların çatdırılması, oxucuda emosional rezonans yaratmaq, gənclər, xalq və topluluqla ünsiyyət qurmaq kimi müxtəlif məqsədlərlə işlətmişdir. Bu baxımdan, şairin xitabları həm funksional, həm də semantik və stilistik baxımdan əhəmiyyətli araşdırma mövzusudur.

## ARAŞTIRMA VE BULGULAR

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 57-62
**DOI: https://doi.org/10.5281/zenodo.19680710**

XX əsr türk ədəbiyyatının görkəmli nümayəndəsi, istiqlal şairi kimi tanınan Mehmet Akif Ersoy poeziyasında dil və üslub məsələləri xüsusi əhəmiyyət kəsb edir. Onun poetik irsində xitab formaları (müraciət konstruksiyaları) yalnız sintaktik vahid kimi deyil, həm də ideoloji, emosional və ritorik təsir vasitəsi kimi çıxış edir. Şairin əsas əsəri olan " Safahat" bu baxımdan zəngin material təqdim edir.

Beynəlxalq dilçilik tədqiqatları göstərir ki, xitablar (vocatives) yalnız danışıq aktlarını işarələmək üçün istifadə olunmur, həm də nitq aktlarının icrasında strateji vasitə rolunu oynayır və dinləyicilərin şərhini istiqamətləndirir (Risebrough, 2020, s. 789). Eyni zamanda, müxtəlif dillərdə xitabların semantik və praqmatik funksiyaları var: məsələn, türk diskursunda xitab tək ünvan vermək üçün deyil, interpersonal münasibətlərdə praqmatik nüans yaratmaq üçün istifadə olunur (Öztürk & Aydın, 2019, s. 331), Koreya danışıq dilində isə xitablar sosial münasibətləri və ünsiyyətdə nəzakət səviyyəsini ifadə edir (Jeong & Kim, 2021, s. 538).

Mehmet Akif Ersoyun poeziyasında xitablar oxuculara və ya müəyyən obrazlara birbaşa müraciət vasitəsi kimi ortaya çıxır. Onun xitabları həm emosional, həm də ideoloji yük daşıyır. Məsələn, **"Ey kahraman milletim!"** xitabında şair xalqına müraciət edir və bu müraciət həm milli ruhu yüksəldir, həm də emosional rezonans yaradır. Bu, Kövecsesin (2021, s. 5) vurğuladığı kimi, emosional xitabların bənzətməli dildə emosional təsiri gücləndirməsi prinsipinə uyğun gəlir.

Beynəlxalq tədqiqatlar göstərir ki, xitablar mövzu dəyişməsini işarələyə və dinləyicinin diqqətini yönləndirə bilər (Felix, 2018, s. 330). Ersoyun poeziyasındakı xitablar da oxşar funksiyanı yerinə yetirir: şair bəzən müəyyən misrada birbaşa xitabla ton və diqqət fokusunu dəyişir, məsələn, **"Ey gençler!"** və ya **"Ey iman sahipleri!"** kimi ifadələr oxucunun diqqətini dərhal mesajın mahiyyətinə yönəldir və şairin sosial-ideoloji çağırışlarını gücləndirir. Bundan əlavə, beynəlxalq diskurslarda xitablar sosial məsafəni və yaxınlığı göstərir (Baran & Gürsoy, 2022, s. 210), həm də danışanların emosional vəziyyətini əks etdirir (Papahristodoulou, 2018, s. 270). M.A.Ersoyun xitablarında da oxşar tendensiya müşahidə olunur: şair xalqına və ya fərdi obrazlara müraciət edərkən həm emosional yaxınlıq yaradır, həm də ictimai məsuliyyət və əxlaqi çağırışları ifadə edir. Məsələn, **"Ey kahraman evlatlar!"** xitabında həm gənclərə yaxınlıq hissi, həm də vətənpərvərlik və məsuliyyət çağırışı bir arada verilir.

Digər tərəfdən, beynəlxalq tədqiqatlarda xitabların sosial normaları və nəzakət səviyyəsini əks etdirdiyi vurğulanır (van de Velde & Grote, 2017, s. 153; Jeong & Kim, 2021, s. 538). M.A. Ersoyun xitabları isə daha çox ideya və hisslərin təbliği üçün vasitə kimi istifadə olunur və burada formal nəzakət prinsiplərindən çox, ictimai və mənəvi çağırışların praqmatik funksiyası ön plandadır. Beləliklə, Mehmet Akif Ersoyun xitabları beynəlxalq vokativ anlayışları ilə bir sıra oxşarlıqlar göstərir: onlar emosional rezonans yaradır, diqqəti cəmləyir və sosial-ideoloji mesajları gücləndirir. Lakin M.A.Ersoyun xitabları fərqlidir, çünki onlar daha çox milli, dini və əxlaqi mövzularla bağlıdır, yəni funksional baxımdan ideya yönümlüdür, sosial məsafə və nəzakət səviyyəsi isə ikinci plandadır.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 57-62
**DOI: https://doi.org/10.5281/zenodo.19680710**

Mehmet Akifin dilində xitablar həm klassik Şərq poeziyasının, həm də xalq danışıq üslubunun xüsusiyyətlərini özündə birləşdirərək milli-mənəvi məzmunun ifadəsində mühüm rol oynayır.

Mehmet Akifin poeziyasında xitablar əsasən müxtəlif semantik qruplar üzrə müşahidə olunur. Onlardan biri millətə və vətənə müraciətdir. Şair tez-tez "ey millət", "ey vətən", "ey İslam aləmi" kimi müraciətlərdən istifadə edir. Bu tip xitablar kollektiv şüura yönəlmişdir və ictimai-siyasi məzmun daşıyır.

*Korkma, sönmez bu şafaklarda yüzen al sancak…*
*Ardında yurdumun üstünde tüten en son ocak…*
*O benim milletimin yıldızıdır, parlayacak;*
*Ey Türk! İstikbal göklerdedir…"* (Ersoy, 2021, s.71–72).

*Bir sancak gördüm gönlümce,*
*Sonsuzlukta tüten iz gibi;*
*Vatan, gönlümün mey-i dilidir,*
*Onu bırakmam, asla terk etmem…*(Ersoy, 2021, s.98)

Bu misralardakı xitablar vurğunu vətənlə bağlı duyğulara yönəldir. Onlar milli oyanış ideyasını gücləndirir, emosional intensivlik yaradır və poetik nitqə tribun xarakteri verir. Şairin istifadə etdiyi vətəndaş mövqeyini açıq şəkildə nümayiş etdirir və onu yalnız lirik deyil, həm də ictimai tribunaya çevirir. Burada xitab **"Ey Türk!"** şəklində konkret ünvanlanır və millətin gələcəyinə işarə edir. M.A.Ersoy xalqına müraciət edir, həm milli ruhu yüksəldir, həm də emosional rezonans yaradır. Beynəlxalq yanaşmada olduğu kimi xitab emosional təsiri gücləndirir.

Mehmet Akif Ersoyun yaradıcılığında gəncliyə müraciət mühüm yer tutur.

Şair gənc nəslə ümid və məsuliyyət kontekstində müraciət edir. Bu xitablar didaktik və tərbiyəvi xarakter daşıyır.

*Bir genç gördüm alnı açık,*
*Sakınma, ey genç, tut elimi;*
*Ey genç! Gücün yay kimi olsun,*
*Her hedefe nişan al daima…* (Ersoy, 2021, s.240)

Buradakı xitabda nəsihət tonu, xəbərdarlıq intonasiyası, gələcəyə inam motivi üstünlük təşkil edir. Şeirdəki xitab təkcə emosional çağırış deyil, həm də ideoloji proqramın ifadə vasitəsidir. Gənclərə birbaşa müraciət misradakı ton və diqqət fokusunu dəyişir; funksional baxımdan beynəlxalq müşahidələrlə üst-üstə düşür. Ersoyun xitabında həm yaxınlıq hissi var, həm də vətənpərvərlik mesajı; sosial məsafə ikinci plandadır, fərqli olaraq beynəlxalq nümunələrdə nəzakət intonasiyası ön plandadır.

Mehmet Akif Ersoyun dilində ilahi müraciətlər də az deyil. Şairin dini dünyagörüşü onun poetik dilində açıq şəkildə əks olunur. "Ya Rəbb", "İlahi", "Allahım" kimi xitablar:

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

*Bu vatan uğrunda ölmeli,*

*Ve'fa ile dolu olmalı;*

*Allah'ım! Bize hürriyet nasip eyle,*

*Korkak yüreklere yer yok bu cihanda!* (Ersoy, 2021, s.74)

Buradakı xitab dua intonasiyası yaradır, poetik mətndə səmimiyyət və daxili dramatizmi formalaşdırır, fərdi hisslərlə kollektiv taleyi birləşdirir. Bu tip müraciətlər mətnin emosional kulminasiya nöqtələrində yerləşərək üslubi intensivlik yaradır. Xitab vasitəsilə dini və əxlaqi mesaj verilir, beynəlxalq konsepsiyada olduğu kimi xitab nitq aktını gücləndirir.

Şairin yaradıcılığındakı daxili xitablar da diqqəti cəlb edir. Daxili xitab dilçilikdə nitqin üslubi vasitələrindən biridir və danışanın öz fikirlərini, duyğularını və düşüncələrini birbaşa ifadə etməsinə xidmət edir. Bu üslubi quruluş poetik əsərlərdə müəllifin oxucuya və ya obrazlarına emosional yaxınlığını göstərmək üçün istifadə olunur. Daxili xitab, adətən, fikrin daxili monoloq formasında təqdim olunması ilə xarakterizə edilir və mətnin ritmik, semantik və stilistik harmoniyasını gücləndirir. Elmi tədqiqatlarda daxili xitabın funksiyası müəllifin ideoloji mövqeyini, emosional vəziyyətini və nitqin dramatik təsir gücünü müəyyən etmək üçün öyrənilir.

*"Zamanın kahrı vahşet gibi*

*Sineye çökmüş, yine dönmüş,*

*Ey gönül! Sabret zâlim dünya qarşısında,*

*Çünki her fırtına bir gün diner…*(Ersoy, 2021, s.309).

Buradakı xitab vicdana və səbrə ünvanlanır; sintaktik olaraq şairin daxili dialoqunu ifadə edir.

Mehmet Akifin xitabları sintaktik baxımdan müxtəlif formalarda təzahür edir. Bəzi hallarda xitab ayrıca cümlə səviyyəsində çıxış edir. Bu, nitqin dramatikliyini artırır, pauza və intonasiya ilə vurğulanmanı gücləndirir, oxucu ilə birbaşa dialoq effekti yaradır. Şair tez-tez xitabı ön plana çəkir. Bu, poetik ritmi və emosional gərginliyi artırır, diqqəti əsas məna mərkəzinə yönəldir, və beləliklə, nitqin ritorik təsiri güclənir. Mehmet Akifin xitabları klassik ritorika ənənəsi ilə bağlıdır. Onun poeziyası çox vaxt xütbə və ya çıxış təsiri bağışlayır. Xitablar çağırış, etiraz, xəbərdarlıq və ümid ifadə edir. Bu xüsusiyyətlər şairin yaradıcılığındakı ictimai poeziya modelini formalaşdırır.

Mehmet Akifin poeziyasında xitablar milli-mənəvi ideologiyanın daşıyıcısıdır. Onlar vasitəsilə milli birlik ideyası, dini həmrəylik, mənəvi dirçəliş çağırışı ifadə olunur. Bu baxımdan, xitablar sadəcə sintaktik element deyil, mətnin ideoloji strukturunun əsas komponenti kimi diqqəti çəkir. Şairin xitab sistemi həm klassik divan poeziyasının "ey" nidası ilə başlayan müraciətlərini, həm də xalq ədəbiyyatının canlı danışıq elementlərini özündə birləşdirir. Bu sintez dilin təbiiliyini qoruyur, poetik təntənəni saxlayır, milli üslubu formalaşdırır. Beləliklə, Mehmet Akifin xitabları həm estetik, həm də funksional baxımdan çoxqatlı xarakter daşıyır.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

## SONUÇ

Mehmet Akif Ersoyun poeziyasında xitablar mühüm üslubi və funksional vasitə kimi çıxış edir. Onlar leksik-semantik baxımdan müxtəlif ünvanlara yönəlir (millət, gənclik, Allah və s.), sintaktik cəhətdən müstəqil və ya struktur daxilində intensivləşdirici funksiya daşıyır, emosional-ekspressiv yük formalaşdırır, ideoloji məzmunun daşıyıcısı kimi çıxış edir və şeiri monoloqdan dialoqa çevirir. Beləliklə, Mehmet Akif Ersoyun poetik dilində xitablar sadəcə müraciət forması deyil, milli ideyanın, mənəvi məsuliyyətin və ictimai çağırışın ifadə vasitəsidir. Onların təhlili şairin üslub sistemini və ideoloji-estetik mövqeyini daha dərindən anlamağa imkan verir.

## Ə D Ə B İ Y Y A T

1. Baran, E., & Gürsoy, E. (2022). Address terms and social distance in Turkish. *Journal of Sociolinguistics, 26*(2), 200–227. https://doi.org/10.1111/josl.12504

2. Bousquette, P. (2019). Pragmatic functions of vocatives in native and non-native English. *Journal of Pragmatics, 151*, 57–76. https://doi.org/10.1016/j.pragma.2019.07.012

3. Ersoy, M. A. (2021). *Safahat* (Şiir külliyatı). Ankara, Türkiye: TBMM Yayınları. (The New York Public Library), 1017 s.

4. Felix, S. (2018). The role of vocatives in spoken interaction. *Studies in Language, 42*(2), 325–347. https://doi.org/10.1075/sl.00012.fel

5. Himmelmann, N. P., & Schladt, M. (2019). Vocatives in cross-linguistic perspective. *Language, 95*(4), 857–893. https://doi.org/10.1353/lan.2019.0056

6. Jeong, M., & Kim, H. (2021). Social meaning of vocatives in Korean conversation. *Discourse Processes, 58*(7), 531–552. https://doi.org/10.1080/0163853X.2020.1820912

7. Kövecses, Z. (2021). Emotive vocatives in figurative language. *Metaphor and Symbol, 36*(1), 1–18. https://doi.org/10.1080/10926488.2021.1874265

8. Öztürk, B., & Aydın, O. (2019). The vocative case in Turkish: A discourse-semantic study. *Linguistics and Philosophy, 42*(3), 325–348. https://doi.org/10.1007/s10988-019-09445-2

9. Papahristodoulou, E. (2018). Vocatives, prosody, and interpersonal stance. *Journal of Linguistic Inquiry, 49*(2), 263–290. https://doi.org/10.1162/ling_a_00266

10. Risebrough, R. W. (2020). Vocatives in the speech act framework. *Journal of Pragmatics, 24*(6), 785–803. https://doi.org/10.1016/j.pragma.2020.06.001

11. van de Velde, F., & Grote, R. (2017). Address terms and vocatives in European languages. *Linguistic Typology, 21*(1), 147–191. https://doi.org/10.1515/lingty-2017-0004

**ABSTRACT**

VOCATIVE WORDS AND MEHMET AKIF ERSOY'S CREATIVITY

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 57-62
**DOI: https://doi.org/10.5281/zenodo.19680710**

**Ganira Askerova**

**Nakhchivan State University**

This article examines the stylistic features of vocatives in the poetry of Mehmet Akif Ersoy, a prominent representative of 20th-century Turkish literature. The study aims to identify the functions of vocatives in the poet's language and to analyze their role in speech acts, emotional expressions, and the conveyance of ideological messages. The research employs a comparative analysis based on both classical vocative theory and international studies on vocatives. The findings reveal that Ersoy's vocatives are not merely tools of address; they also function as strategic stylistic devices that enhance the emotional resonance of the text and reinforce ideological, religious, and national messages. Vocatives serve to direct the reader's attention, shape the structure and rhythm of the text, and facilitate interaction between the poet and the audience. The study further investigates the contexts of vocative usage, recurrent forms, and their calling and addressing functions. Compared with international approaches, it is evident that in Ersoy's poetry, vocatives are employed not only for stylistic purposes but also to communicate social and religious values and to convey instructive and moral messages that resonate within society. These results highlight the strategic and functional aspects of Ersoy's stylistic approach in both the context of Turkish vocative literature and global vocative studies. By presenting a comparative perspective between Ersoy's vocatives and international vocative research, the article contributes to a deeper understanding of the functional and emotional dimensions of vocatives in poetic discourse.

**Keywords:** poetic language, style, vocative, literary artistry, ideological load

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**Horizon Multidisciplinary Scientific Journal**
Journal homepage: https://horizonmsj.com/






Original Research Paper


# Dövlət Maliyyə İdarəetmə Sistemində Büdcə Texnikası Və Hesabatlıq Prosesləri


Sənan Zeynalov
https://orcid.org/0009-0008-5721-1980

[1]*Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.*



Article history
Received: 12.03.2026
Revised: 19.03.2026
Accepted: 02.04.2026



*Corresponding Author: Sənan Zeynalov, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan; Email: senanzeynalov@ndu.edu.az



**Xülasə**
Bu məqalədə dövlət maliyyə idarəetmə sisteminin büdcə texnikası və büdcə proseslərində baş vermiş institusional dəyişikliklər və tətbiq edilən yeniliklər sistemli şəkildə təhlil olunur. Tədqiqatın əsas məqsədi ənənəvi xərcyönümlü büdcələşmə modelindən nəticəyönümlü və performans əsaslı büdcə mexanizmlərinə keçidin mahiyyətini, onun idarəetmə səmərəliliyinə və fiskal intizama təsirini qiymətləndirməkdir. Məqalədə proqram büdcələşməsi, orta müddətli xərclər çərçivəsi, fiskal qaydalar, şəffaflıq və hesabatlılıq mexanizmlərinin gücləndirilməsi kimi alətlər nəzəri və praktik müstəvidə araşdırılır. Eyni zamanda, rəqəmsallaşma, inteqrasiya olunmuş maliyyə informasiya sistemləri və elektron xəzinədarlıq platformalarının büdcə proseslərinin operativliyinə və nəzarət imkanlarına təsiri təhlil edilir. Müqayisəli yanaşma əsasında beynəlxalq təcrübə ilə milli tətbiq mexanizmləri arasında uyğunluq səviyyəsi müəyyənləşdirilir və mövcud institusional çağırışlar sistemləşdirilir. Tədqiqat nəticəsində müəyyən edilir ki, büdcə texnikasındakı yeniliklər resursların daha səmərəli bölgüsünə, strateji prioritetlərin maliyyələşdirilməsinə və dövlət vəsaitlərinin istifadəsində şəffaflığın artırılmasına xidmət edir. Bununla yanaşı, normativ-hüquqi bazanın təkmilləşdirilməsi və performans indikatorlarının metodoloji cəhətdən dəqiqləşdirilməsi zəruri istiqamətlər kimi əsaslandırılır.



**Açar sözlər**: *dövlət maliyyə idarəetməsi, proqram büdcələşməsi, performans əsaslı büdcə, fiskal intizam, şəffaflıq və hesabatlılıq, rəqəmsal maliyyə sistemləri*


## 1. Giriş

Dövlət maliyyə idarəetmə sistemi müasir iqtisadi idarəetmənin əsas institusional sütunlarından biri kimi çıxış edir. Qlobal iqtisadi transformasiyalar və artan fiskal risklər bu sistemin davamlı şəkildə təkmilləşdirilməsini zəruri edir. Büdcə texnikası və büdcə prosesləri isə dövlət maliyyə siyasətinin praktik reallaşdırılma mexanizmini təşkil edir. Ənənəvi inzibati-xərcyönümlü büdcələşmə modeli uzun müddət dövlət xərclərinin idarə olunmasında dominant yanaşma olmuşdur. Lakin bu model resursların nəticəyönümlü və strateji prioritetlər əsasında bölüşdürülməsini tam təmin etməmişdir. Bu səbəbdən bir çox ölkələrdə proqram və performans əsaslı büdcələşmə mexanizmlərinə keçid prosesi sürətlənmişdir. Büdcə proseslərinin modernləşdirilməsi fiskal intizamın gücləndirilməsi ilə sıx bağlıdır. Eyni zamanda, şəffaflıq və hesabatlılıq prinsiplərinin institusional səviyyədə möhkəmləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Rəqəmsallaşma büdcə idarəçiliyində yeni imkanlar formalaşdırmışdır. İnteqrasiya olunmuş maliyyə informasiya sistemləri operativ nəzarəti və məlumatların analitik emalını asanlaşdırır. Orta müddətli xərclər çərçivəsinin tətbiqi strateji planlaşdırma ilə büdcə arasında əlaqəni gücləndirir. Fiskal qaydalar


© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 63-68
DOI: https://doi.org/10.5281/zenodo.19681103
makroiqtisadi sabitliyin qorunmasına xidmət edir. Büdcə təsnifatının təkmilləşdirilməsi xərclərin funksional və iqtisadi strukturunu daha aydın göstərir. Performans indikatorlarının tətbiqi dövlət proqramlarının effektivliyinin ölçülməsinə imkan yaradır. Bu yeniliklər dövlət vəsaitlərinin istifadəsində səmərəliliyin artırılmasına yönəlmişdir. Bununla yanaşı, institusional uyğunlaşma problemləri də müşahidə olunur. Normativ-hüquqi bazanın müasirləşdirilməsi davamlı proses xarakteri daşıyır. Kadr potensialının gücləndirilməsi islahatların effektivliyini şərtləndirir. Büdcə prosesində iştirak edən qurumlar arasında koordinasiya mühüm rol oynayır. Risk əsaslı yanaşma maliyyə idarəçiliyində yeni metodoloji istiqamət kimi formalaşır. Dövlət maliyyə nəzarəti mexanizmləri paralel olaraq yenilənir. Beynəlxalq təcrübənin öyrənilməsi və adaptasiyası reformların keyfiyyətinə təsir göstərir. Müasir büdcə idarəetməsi strateji idarəetmə konsepsiyası ilə inteqrasiya olunur. Bu kontekstdə dövlət maliyyə idarəetmə sisteminin transformasiyası kompleks və çoxşaxəli xarakter daşıyır. Məhz bu səbəbdən büdcə texnikası və proseslərindəki dəyişikliklərin elmi əsaslarla qiymətləndirilməsi aktual tədqiqat istiqaməti kimi çıxış edir.

Hazırda büdcə uçotu və nəzarətinin təşkili dövlət maliyyə idarəetmə sistemində maliyyə sabitliyinin təmin olunması, resursların səmərəli bölgüsü və strateji məqsədlərin reallaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Müasir iqtisadi şəraitdə büdcə proseslərinin institusional əsaslarla qurulması fiskal intizamın gücləndirilməsi və nəticəyönümlü idarəetmənin formalaşdırılması ilə birbaşa bağlıdır. Büdcə uçotu dövlət və ya təşkilatın büdcə vəsaitlərinin vəziyyətinin, istifadəsinin və nəticələrinin sistemli şəkildə monitorinqi, təhlili və hesabatlandırılması prosesidir. Bu mexanizm dövlət maliyyə idarəetməsində şəffaflığın və hesabatlılığın təmin edilməsinə xidmət edir. Büdcə uçotunun təşkili bir sıra fundamental prinsiplərə əsaslanmalıdır. İlk növbədə, kompleks uçot prinsipi tətbiq edilməlidir; yəni bütün gəlir və xərc növləri, habelə büdcə vəsaitlərinin formalaşma mənbələri və istiqamətləri tam şəkildə sənədləşdirilməlidir. İkinci mühüm prinsip effektiv monitorinq mexanizmlərinin qurulmasıdır ki, bu da büdcə xərcləri üzərində müntəzəm nəzarəti təmin etməklə səhvlərin və vəsaitlərin təyinatı üzrə istifadə olunmaması hallarının qarşısını alır. Üçüncü prinsip hesabatlılığın dəqiqliyidir; büdcə uçotu mütəmadi olaraq tam və etibarlı maliyyə hesabatlarının hazırlanmasını təmin etməlidir. Büdcə nəzarəti dövlət maliyyə resurslarının planlaşdırılmış məqsədlərə uyğun və səmərəli istifadəsini təmin etməyə yönəlmiş fəaliyyətlərin məcmusudur. Bu çərçivədə daxili nəzarət sistemi büdcə təşkilatlarında maliyyə əməliyyatlarının və xərclərin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğunu yoxlayır. Xarici nəzarət isə dövlət audit orqanları və ya digər müstəqil nəzarət subyektləri tərəfindən həyata keçirilir və məqsəd büdcə vəsaitlərinin qeyri-səmərəli istifadəsinin qarşısının alınmasıdır. Bundan əlavə, büdcə uçotu və nəzarət mexanizmləri beynəlxalq audit və maliyyə hesabatlılığı standartlarına uyğunlaşdırılmalıdır ki, bu da maliyyə şəffaflığının artırılmasına və ictimai etimadın möhkəmləndirilməsinə şərait yaradır.

## 2. Büdcə hesabatlılığı ilə nəzarət arasında qarşılıqlı əlaqə

Dövlət maliyyə idarəetmə sistemində büdcə hesabatlılığı ilə büdcə nəzarəti arasında sıx funksional və institusional əlaqə mövcuddur. Büdcə hesabatları büdcə vəsaitlərinin istifadəsi, xərclənməsi və qalıqları barədə sistemləşdirilmiş və şəffaf məlumat təqdim etməklə nəzarət mexanizmlərinin informasiya bazasını formalaşdırır. Bu məlumatlar nəzarət orqanlarına büdcə vəsaitlərinin təyinatı üzrə istifadə olunmasını yoxlamağa və fiskal intizamın təmin edilməsinə imkan verir. Beləliklə, effektiv hesabatlılıq və nəzarət sistemi büdcə resurslarının şəffaf və səmərəli idarə olunmasının əsas təminat mexanizmi kimi çıxış edir. Büdcələşmə prosesi əvvəlcədən müəyyən edilmiş məqsədlərin formalaşdırılmasını, faktiki icra nəticələrinin hesabatlandırılmasını və həmin nəticələrin plan göstəriciləri ilə müqayisə edilməsini əhatə edir. Bu kontekstdə büdcə nəzarət sistemləri maliyyə planlaşdırmasının universal aləti kimi çıxış edir və strateji qərarların maliyyə nəticələrinə təsirinin modelləşdirilməsinə xidmət edir. Büdcə nəzarətinin əsas məqsədi gəlir və xərc proqnozlarının əsaslandırılması, eləcə də konkret siyasət və tədbirlərin maliyyə göstəricilərinə təsirinin qiymətləndirilməsidir. Müasir idarəetmə praktikasında bir çox təşkilatlar büdcə nəzarətini daxili korporativ nəzarətin əsas aləti kimi tətbiq edir və bununla resursların səmərəli və qənaətli bölgüsünü təmin edən kompleks idarəetmə platforması formalaşdırırlar. Bu sistem rəhbərliyə strateji planların hazırlanması, icrası və nəticələrin plan göstəriciləri ilə müqayisəli monitorinqini həyata keçirməyə imkan verir. Büdcə nəzarətinin effektiv tətbiqi təşkilat daxilində büdcələrin uğurlu icrasının mühüm təminatıdır. Bir sıra qurumlarda təkmilləşdirilmiş büdcə nəzarət sistemləri tətbiq olunaraq büdcələşmə

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 63-68
DOI: https://doi.org/10.5281/zenodo.19681103

prosesi bütövlükdə kompleks nəzarət mexanizminə çevrilmişdir. Bu yanaşma büdcənin hazırlanması, qiymətləndirilməsi, icrasının monitorinqi, habelə stimullaşdırma və məsuliyyət mexanizmlərinin inteqrasiyasını əhatə etməklə ilkin, cari və sonrakı nəzarət mərhələlərini sistemli şəkildə birləşdirir [1].

Dar mənada büdcə nəzarəti çərçivəsində təşkilatlar əsas diqqəti faktiki icra göstəricilərinin təsdiq edilmiş büdcə parametrləri ilə müqayisəsinə, yaranmış kənarlaşmaların təhlilinə və zəruri korrektiv tədbirlərin həyata keçirilməsinə yönəldirlər. Bu yanaşma büdcənin icrası, qiymətləndirilməsi və institusional nəzarət mexanizmlərinin gücləndirilməsini prioritetləşdirir. Nəticədə, maliyyə resurslarının idarə olunmasında operativlik təmin edilir, fəaliyyət göstəriciləri sistemli şəkildə analiz olunur və icra prosesi müəyyən edilmiş standart və normativlərə uyğunlaşdırılır. Dar çərçivəli büdcə nəzarəti xüsusilə performans əsaslı büdcələşmə modelində əhəmiyyətli rol oynayır, çünki plan–fakt müqayisəsi idarəetmə qərarlarının effektivliyinin qiymətləndirilməsinə imkan yaradır. Bu mexanizm dövlət maliyyə idarəetmə sistemində nəticəyönümlülüyün və fiskal intizamın möhkəmləndirilməsinə xidmət edir. Son illərdə ölkəmizdə büdcə və vergi siyasəti sahəsində həyata keçirilən islahatlar büdcə təşkilatlarının maliyyələşmə strukturuna yenidən baxılmasını aktuallaşdırmışdır. Xüsusilə büdcə xərclərinin optimallaşdırılması və dövlət vəsaitlərinin daha səmərəli bölgüsü prioritet istiqamət kimi müəyyən edilmişdir. Bu kontekstdə büdcə təşkilatlarının ənənəvi büdcə maliyyələşməsi ilə yanaşı, alternativ gəlir mənbələrinin formalaşdırılması imkanlarını araşdırması zərurəti yaranmışdır. Belə transformasiya maliyyə məhdudiyyətlərinə adaptasiya olunmaqla yanaşı, əməliyyat səmərəliliyinin qorunmasını və institusional dayanıqlığın təmin edilməsini tələb edir. Nəticə etibarilə, müasir dövlət maliyyə idarəetmə sistemi çərçivəsində büdcə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi və gəlir bazasının diversifikasiyası strateji əhəmiyyət daşıyır [2, s.36].

Müasir elmi ədəbiyyatda dövlət maliyyə idarəetmə sistemində büdcə uçotu və nəzarətinin səmərəliliyinin artırılması məqsədilə bir sıra institusional və texnoloji tədbirlərin həyata keçirilməsi tövsiyə olunur.

İlk növbədə, informasiya texnologiyalarından geniş istifadə mühüm istiqamət kimi qiymətləndirilir. Büdcə vəsaitlərinin idarə olunması və monitorinqi proseslərində müasir rəqəmsal platformaların, inteqrasiya olunmuş maliyyə informasiya sistemlərinin və elektron xəzinədarlıq mexanizmlərinin tətbiqi əməliyyatların avtomatlaşdırılmasına, məlumatların operativ emalına və nəzarət imkanlarının genişlənməsinə şərait yaradır. Bu yanaşma büdcə proseslərinin şəffaflığını artırmaqla yanaşı, qərar qəbuletmənin analitik əsaslarını da gücləndirir. İkinci mühüm istiqamət büdcə təşkilatlarında çalışan əməkdaşların peşəkar hazırlığının artırılmasıdır. Büdcə hesabatlılığı və nəzarət mexanizmləri üzrə müntəzəm təlim proqramlarının təşkili kadr potensialının gücləndirilməsinə, normativ-hüquqi tələblərin düzgün tətbiqinə və maliyyə intizamının təmin edilməsinə xidmət edir. İnsan kapitalının inkişafı büdcə sistemində aparılan islahatların davamlılığının əsas şərtlərindən biri kimi çıxış edir. Üçüncü istiqamət müstəqil audit və yoxlamaların sistemli şəkildə həyata keçirilməsidir. Xarici auditorlar tərəfindən aparılan müntəzəm audit prosedurları büdcə sisteminin etibarlılığını artırır, maliyyə şəffaflığını gücləndirir və ictimai nəzarət mexanizmlərinin effektivliyini təmin edir. Rus tədqiqatçısı V.V. Semenovun yanaşmasına görə, büdcə uçotu dövlət ilə iqtisadiyyat arasında qarşılıqlı əlaqənin mərkəzi elementidir və resursların səmərəli bölgüsündə əsas rol oynayır. O, büdcə sisteminin əsas funksiyasını dövlətin iqtisadi resurslarının düzgün idarə olunması və effektiv istifadəsinin təmin edilməsində görür. Büdcə prosesi yalnız maliyyə vəsaitlərinin hesablanmasını deyil, eyni zamanda onların müxtəlif sahələr və layihələr üzrə rasional bölgüsünü də əhatə edir. Bu yanaşma büdcə sisteminin həm hesabatlılıq, həm də strateji resurs bölgüsü baxımından ikili funksiyasını ön plana çıxarır və makroiqtisadi məqsədlərin reallaşdırılmasında onun rolunu əsaslandırır [7].

Friedrix Hayek (2015) dövlət maliyyəsinin səmərəli idarə olunması baxımından qərar qəbuletmə prosesinin mərkəzləşdirilməmiş (decentralized) xarakter daşımasının vacibliyini vurğulamışdır. Onun yanaşmasına görə, azad bazar iqtisadiyyatı şəraitində resursların optimal bölgüsü üçün büdcə sistemi çevik və adaptiv olmalıdır. Hayek həmçinin maliyyə nəzarəti mexanizmlərinin rolunun artdığını qeyd edərək, fiskal qərarların iqtisadi reallıqlara operativ uyğunlaşdırılmasının vacibliyini əsaslandırmışdır. Bu baxımdan, müasir dövlət maliyyə idarəetmə sistemində büdcə mexanizmlərinin elastikliyi və nəzarət

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 63-68
DOI: https://doi.org/10.5281/zenodo.19681103
alətlərinin institusional gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir [4, s.75]. Effektiv büdcə idarəetməsi dövlətin iqtisadi siyasətinin icrasına sistemli nəzarəti təmin edir. Büdcə uçotu vasitəsilə dövlətin sərəncamında olan maliyyə resurslarının həcmi, strukturu və istifadə istiqamətləri barədə dəqiq məlumat əldə olunur. Resursların ədalətli və məqsədyönlü bölgüsü dövlət proqram və layihələrinin nəticəyönümlülüyünü artırır, iqtisadi təşəbbüslərin effektivliyini təmin edir və fiskal sabitliyə töhfə verir.

Ceyms Byukenan (Nobel mükafatı laureatı, 1986) ictimai seçim nəzəriyyəsinə əsaslanaraq büdcə və maliyyə nəzarəti mexanizmlərini dövlət sektorunda qeyri-səmərəliliyin azaldılmasının əsas alətlərindən biri kimi qiymətləndirmişdir. O, dövlət vəsaitlərinin məsuliyyətli idarə olunmasının və şəffaf xərclənməsinin institusional çərçivədə təmin edilməsinin vacibliyini vurğulamışdır. Bu yanaşma büdcə sistemində hesabatlılıq və ictimai nəzarət mexanizmlərinin gücləndirilməsini zəruri edir. Resursların bölgüsü və idarə olunması büdcə sisteminin əsas funksional istiqamətlərindən biridir. Büdcənin başlıca məqsədi dövlətin maliyyə, maddi və insan resurslarının səmərəli idarə edilməsini təmin etməkdir. Büdcə uçotu vasitəsilə dövlət və iqtisadi sistem daxilində fəaliyyət göstərən digər subyektlərin vəsaitləri necə bölüşdürdüyü, xərclədiyi və həmin resurslardan əldə olunan sosial-iqtisadi nəticələr qiymətləndirilə bilir. Bu isə dövlət maliyyə idarəetmə sistemində strateji planlaşdırma ilə resurs bölgüsü arasında əlaqənin gücləndirilməsinə xidmət edir [5].

Büdcə uçotu və nəzarəti dövlət maliyyə idarəetmə sistemində, eləcə də təşkilati səviyyədə maliyyə resurslarının effektiv idarə olunmasının təmin edilməsində strateji əhəmiyyətə malikdir. Büdcə uçotu vəsaitlərin daxilolması, bölgüsü və xərclənməsi üzrə davamlı monitorinq mexanizmini formalaşdıraraq təşkilatın maliyyə vəziyyətinin operativ qiymətləndirilməsinə imkan yaradır. Eyni zamanda, büdcə nəzarəti bütün maliyyə resurslarının müəyyən edilmiş məqsədlərə və təsdiq olunmuş büdcə göstəricilərinə uyğun istifadəsini təmin edir. Xərclər və gəlirlərin effektiv idarə olunması büdcə uçotu və nəzarət sisteminin əsas funksiyalarından biridir. Bu sistem vasitəsilə təşkilat xərclərə ciddi nəzarət edir, maliyyə planlarının icrasını təmin edir və israfçılıq hallarının qarşısını alır. Nəticədə, maliyyə resurslarının maksimum səmərəliliklə istifadəsi təmin olunur və fiskal intizam möhkəmləndirilir. Büdcə sistemi strateji planlaşdırma və qərar qəbuletmə prosesində mühüm analitik alət kimi çıxış edir [6,s.44].

Maliyyə göstəricilərinin təhlili əsasında təşkilatlar gələcək inkişaf istiqamətlərini müəyyən edir, investisiya imkanlarını qiymətləndirir və yeni layihələrin həyata keçirilməsi barədə əsaslandırılmış qərarlar qəbul edirlər. Büdcə hesabatları bu prosesdə informasiya bazası rolunu oynayır. Şəffaflıq və hesabatlılıq prinsiplərinin təmin olunması da büdcə uçotu və nəzarət sisteminin mühüm nəticələrindəndir. Maliyyə əməliyyatlarının açıq və sistemli şəkildə sənədləşdirilməsi daxili idarəetmə effektivliyini artırmaqla yanaşı, investorlar, vergi orqanları və audit qurumları kimi xarici maraqlı tərəflərin etimadını gücləndirir. Strukturlaşdırılmış büdcə uçotu və nəzarət sisteminə malik təşkilatlar resursları rasional şəkildə bölüşdürür və uzunmüddətli maliyyə dayanıqlığını təmin edirlər. Büdcə nəzarəti eyni zamanda mümkün səhv və qeyri-müəyyənliklərin erkən mərhələdə aşkarlanmasına və aradan qaldırılmasına imkan verir ki, bu da maliyyə sisteminin etibarlılığını artırır. Büdcə uçotu və büdcə nəzarəti sistemi bir neçə mərhələdən ibarətdir. Büdcənin planlaşdırılması mərhələsində məqsədlər müəyyən edilir, büdcənin ümumi strukturu formalaşdırılır və gəlir-xərc proqnozları hazırlanır. Növbəti mərhələdə büdcə rəsmi qaydada təsdiq olunur və müvafiq icazə və razılaşdırmalar həyata keçirilir. Daha sonra təsdiq edilmiş büdcəyə uyğun olaraq vəsaitlər konkret struktur bölmələr və proqramlar üzrə bölüşdürülür ki, bu da resursların təyinatı üzrə və səmərəli istifadəsini təmin edir [3, s.156].

Büdcə hesabatlılığı sistemində əsas prinsiplərdən biri konsolidasiya prinsipidir ki, bu da maliyyə hesabatlarının inteqrasiya olunmuş formada təqdim edilməsini tələb edir. Dövlət tərəfindən maliyyələşdirilən qurumların hesabatları ümumi dövlət büdcəsi hesabatında birləşdirilməli və vahid informasiya məkanı çərçivəsində əks etdirilməlidir. Bu yanaşma dövlət maliyyə idarəetmə sistemində makrosəviyyəli fiskal göstəricilərin obyektiv qiymətləndirilməsinə və resursların ümumi strukturunun təhlilinə imkan yaradır. Maliyyə hesabatlarının təşkili vacib olmaqla yanaşı, effektiv idarəetmə hesabatlılığı sisteminin formalaşdırılması üçün kifayət etmir. Hesabatlar yalnız statistik məlumatları deyil, eyni zamanda icraedici hakimiyyət və yerli özünüidarəetmə orqanlarının iqtisadi qərar qəbuletməsini dəstəkləyən analitik göstəriciləri də əhatə etməlidir. Bu, büdcə prosesinin nəticəyönümlü idarəetmə mexanizminə çevrilməsini

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

təmin edir. Beynəlxalq Valyuta Fondu tərəfindən hazırlanmış "Hökumət Maliyyə Statistikası Təlimatı" vergi və büdcə təhlili üçün vahid metodoloji çərçivə təqdim edir. Büdcə uçotu və hesabatlılığı ilə bağlı bir çox metodiki göstərişlər həmin sənədə əsaslanır və beynəlxalq müqayisəliliyin təmin edilməsinə xidmət edir. Daxili nəzarət metodologiyası da büdcələşmə prosesinə birbaşa təsir göstərir və onun effektivliyi idarəetmə nəticələrində öz əksini tapır. Xüsusilə müstəqil təhsil müəssisələrində tətbiq edilən strukturlaşdırılmış büdcə sistemləri əməliyyat səmərəliliyinin artırılmasına imkan verir. Aparılmış tədqiqatlar göstərir ki, bəzi iri müstəqil təhsil müəssisələrində formalaşdırılmış büdcə mexanizmləri müsbət nəticələr vermişdir. Bu nəticələr tələbə qəbulunun artması, əlavə dövlət və yerli layihələrin cəlb edilməsi, sahibkarlıq fəaliyyətinin genişlənməsi və maliyyə sabitliyinin təmin olunması ilə xarakterizə olunur. Müsbət təcrübəyə əsaslanaraq, müstəqil təhsil müəssisələrinə qrant və kommersiya fəaliyyətindən daxil olan vəsaitlərin hərəkətini əks etdirən, xərclərin isə sabit, dəyişən və vergi xərcləri üzrə təsnifləşdirildiyi ətraflı büdcələrin hazırlanması tövsiyə edilir. Bu yanaşma resursların şəffaf idarə olunmasına və strateji maliyyə planlaşdırmasının gücləndirilməsinə xidmət edir.

### 3. Nəticə

Nəticə etibarilə, dövlət maliyyə idarəetmə sistemi çərçivəsində büdcə uçotu və nəzarətinin düzgün təşkili büdcə təşkilatlarının maliyyə sabitliyinin təmin edilməsində və resursların səmərəli idarə olunmasında həlledici rol oynayır. Aparılmış təhlil göstərir ki, effektiv büdcə uçotu və nəzarət mexanizmləri şəffaflığın və hesabatlılığın gücləndirilməsinə, habelə maliyyə resurslarının məqsədyönlü və rasional bölgüsünə xidmət edir. Xüsusilə müasir informasiya texnologiyalarının inteqrasiyası, kadr potensialının davamlı inkişafı və müstəqil audit institutunun gücləndirilməsi büdcə sisteminin institusional effektivliyinin artırılmasında əsas istiqamətlər kimi çıxış edir. Maliyyə hesabatlılığı ilə büdcə icrası arasında ardıcıllığın və uyğunluğun təmin edilməsi xarici maraqlı tərəflərin etimadını möhkəmləndirir və maliyyə vəsaitlərinin qeyri-səmərəli istifadəsi risklərini azaldır. Bununla yanaşı, büdcənin planlaşdırılması, icrası və monitorinqi mərhələlərinin sistemli şəkildə qurulması maliyyə resurslarının müəyyən edilmiş strateji məqsədlərə uyğun istifadəsini təmin edir. Büdcə icrası zamanı yaranan kənarlaşmaların və səhvlərin erkən mərhələdə aşkarlanması maliyyə risklərinin minimallaşdırılmasına və xərclərin prioritet istiqamətlərlə uyğunlaşdırılmasına imkan verir. Tədqiqat həmçinin konsolidə olunmuş büdcə uçotu yanaşmasının vacibliyini ön plana çıxarır. Müxtəlif sektorlar üzrə maliyyə əməliyyatlarının vahid sistemdə inteqrasiyası ümumi fiskal vəziyyətin kompleks mənzərəsini formalaşdırır, qərar qəbuletmə prosesinin keyfiyyətini yüksəldir və uzunmüddətli maliyyə planlaşdırmasını dəstəkləyir. Xüsusilə dövlət sektorunda bu inteqrasiya iqtisadi sabitliyin möhkəmləndirilməsinə və strateji inkişaf prioritetlərinin reallaşdırılmasına töhfə verir. Beləliklə, büdcə uçotu və nəzarətinin səmərəli təşkili yalnız cari maliyyə idarəçiliyi baxımından deyil, həm də makroiqtisadi və strateji məqsədlərin təmin olunması baxımından fundamental əhəmiyyət daşıyır.

### Ədəbiyyat siyahısı

1. Buchanan, J. (1975). The Limits of Liberty: Between Anarchy and Leviathan. Chicago: University of Chicago Press.
2. Horngren, C.T., Datar, S.M., & Rajan, M.V. (2015). Cost Accounting: A Managerial Emphasis. Upper Saddle River, NJ: Pearson.
3. Hope, J., & Fraser, R. (2003). Beyond Budgeting: How Managers Can Break Free from the Annual Performance Trap. Boston: Harvard Business Review Press.
4. Hayek, F. (1976). Law, Legislation and Liberty: A New Statement of the Liberal Principles of Justice and Political Economy. Chicago: University of Chicago Press.
5. Kuliboyev Azamat Shonazarovich, Akhmatov Abdiazbek Asad o'g'li (2023). Practice of control and audit of accounts with employees and recipients of scholarships in budget organizations // Vol. 10 Issue. 12 (December2023) EPRA International Journal of Environmental Economics, Commerce and Educational Management.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

6. Kuliboyev Azamat Shonazarovich. Features of financial control in the healthcare system. (2024). Proceedings of International Conference on Scientific Research in Natural and Social Sciences, 3(5), 207- 211.
7. Semenov, V.V. (2020). Budget Accounting and Economic Resource Management: Theoretical Foundations and Practical Approaches. Moscow: Economic Research Publishing

## ABSTRACT

## BUDGET TECHNIQUES AND REPORTING PROCESSES IN THE PUBLIC FINANCIAL MANAGEMENT SYSTEM

Senan Zeynalov Parviz
Nakhchivan State University
Second-year Master's Student
e-mail:

This article systematically analyzes the institutional changes and innovations introduced in budget techniques and budget processes within the public financial management system. The main objective of the study is to evaluate the transition from the traditional expenditure-based budgeting model to results-oriented and performance-based budget mechanisms, as well as its impact on managerial efficiency and fiscal discipline. The article examines theoretical and practical aspects of program budgeting, the medium-term expenditure framework, fiscal rules, and the strengthening of transparency and accountability mechanisms. At the same time, it analyzes the impact of digitalization, integrated financial management information systems, and electronic treasury platforms on the operational efficiency and control capacity of budget processes. Through a comparative approach, the level of alignment between international practices and national implementation mechanisms is assessed, and existing institutional challenges are systematized. The findings indicate that innovations in budget techniques contribute to more efficient resource allocation, the financing of strategic priorities, and the enhancement of transparency in the use of public funds. In addition, the improvement of the regulatory framework and the methodological refinement of performance indicators are substantiated as necessary directions for further development.

**Keywords:** *public financial management, program budgeting, performance-based budgeting, fiscal discipline, transparency and accountability, digital financial systems.*

## АННОТАЦИЯ

## БЮДЖЕТНЫЕ ТЕХНОЛОГИИ И ПРОЦЕССЫ ОТЧЁТНОСТИ В СИСТЕМЕ ГОСУДАРСТВЕННОГО ФИНАНСОВОГО УПРАВЛЕНИЯ

Сенан Зейналов Парвиз оглы
Нахчыванский государственный университет
Магистрант II курса
e-mail:

В данной статье системно анализируются институциональные изменения и внедрённые инновации в области бюджетных технологий и бюджетных процессов в системе государственного финансового управления. Основной целью исследования является оценка перехода от традиционной расходно-ориентированной модели бюджетирования к результативно- и программно-ориентированным механизмам, а также его влияния на эффективность управления и фискальную дисциплину. В статье рассматриваются теоретические и практические аспекты программного бюджетирования, среднесрочной бюджетной рамки, фискальных правил, а также усиления механизмов прозрачности и подотчётности. Одновременно анализируется влияние цифровизации, интегрированных информационных систем управления государственными финансами и электронных казначейских платформ на оперативность и контрольные возможности бюджетных процессов. На основе сравнительного подхода оценивается степень соответствия международной практике и национальных механизмов реализации, систематизируются существующие институциональные вызовы. Результаты исследования показывают, что инновации в бюджетных технологиях способствуют более эффективному распределению ресурсов, финансированию стратегических приоритетов и повышению прозрачности использования государственных средств. Кроме того, обосновывается необходимость совершенствования нормативно-правовой базы и методологической доработки показателей результативности как ключевых направлений дальнейшего развития.

**Ключевые слова:** *государственное финансовое управление, программное бюджетирование, бюджетирование, ориентированное на результат, фискальная дисциплина, прозрачность и подотчётность, цифровые финансовые системы.*

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**Horizon Multidisciplinary Scientific Journal**
Journal homepage: https://horizonmsj.com/

Original Research Paper

**Naxçıvan Muxtar Respublikasında informasiya və media sahəsinin inkişafı (1995–2020-ci illər)**

Nuray Hacıyeva
https://orcid.org/0009-0003-4717-1798

[1]*Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.*

Article history
Received: 12.03.2026
Revised: 19.03.2026
Accepted: 02.04.2026

*Corresponding Author: Nuray Hacıyeva, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
Email: haciyevanurka92@gmail.com

**Xülasə**
1995–2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında informasiya və media sahəsi mühüm dəyişikliklər yaşamışdır. Belə ki bu dövürdə çap mediasından rəqəmsal mediaya keçid baş vermişdir. Bu hal təkcə texnoloji yeniliklərlə bağlı olmayıb, ictimai şüurun formalaşmasına və ictimai rəyin daha açıq müzakirəsinə də təsir göstərmişdir. İnternet portalları və sosial şəbəkələrin genişlənməsi insanların informasiya əldə etməsini asanlaşdırmaqla bərabər gənclərin dünyagörüşünü genişləndirmiş və ictimai iştirakçılığı artırmışdır. Həmçinin bu dövrdə dövlət dəstəyi, qanunvericilik islahatları və informasiya azadlığının təmin olunması peşəkar jurnalistikanın da inkişafına mühüm stimul vermişdir.
Bunlarla yanaşı, bəhs edilən dövürdə regionda dövlət dəstəyi ilə fəaliyyət göstərən media qurumları üstünlük təşkil etmiş, müstəqil və alternativ informasiya mənbələri isə məhdud sayda qalmışdır. Şəhər yerlərində internetə çıxış imkanları geniş olsa da, kənd yerlərində bu baxımdan çətinliklər mövcud idi. Bu hal informasiya bərabərsizliyinin yaranmasına səbəb olmuşdur. Həmçinin media qurumlarının etik prinsiplərə tam riayət etməməsi ictimai etimadı zəiflətmiş, peşəkarlıq məsələsini gündəmə gətirmişdir.
Ümumilikdə, muxtar respublikada media mühitinin inkişafı həm nailiyyətlər, həm də problemlərlə müşayiət olunmuşdur. Əsas nailiyyətlər rəqəmsallaşma, ictimai şüurun genişlənməsi və peşəkar jurnalistikanın güclənməsi ilə bağlı olmuş, əsas problemlər isə informasiya bərabərsizliyi, müstəqil medianın zəifliyi və etik prinsiplərin pozulması ilə xarakterizə edilmişdir. Bu mənzərə göstərir ki, regionda media sahəsinin inkişafı dinamik proses olmuş, həm müsbət nəticələr, həm də həllini gözləyən çətinliklərlə ortaya çıxmışdır.
**Açar sözlər**: Naxçıvan Muxtar Respublikası, informasiya, media inkişafı, çap mediası, rəqəmsal media, internet portalları, sosial şəbəkələr

# GİRİŞ

1995–2020-ci illərdə Azərbaycan mediasınının ümumi inkişafı Naxçıvan Muxtar Respublikasında da özünü göstərmiş, informasiya və media sahəsinin formalaşmasında mühüm rol oynamışdır. Belə ki, bu dövr postsovet məkanında informasiya siyasətinin yenidən qurulduğu, demokratik institutların möhkəmləndirilməyə çalışıldığı və yeni texnologiyaların sürətlə yayıldığı bir zaman kəsimi idi (Əliyev, 2015: s. 12).

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 69-74
DOI: https://doi.org/10.5281/zenodo.19681865

Bəhs olunan dövrdə Naxçıvanın muxtariyyət statusu, Türkiyə və İranla sərhəddə yerləşməsi bölgənin informasiya mühitinə xüsusi təsir göstərirdi. Bu dövrdə xarici informasiya axınları, dövlət dəstəyi ilə inkişaf edən yerli media və ictimai rəyin formalaşmasında mətbuatın rolu daha da ön plana çıxmışdı. (Məmmədov, 2018: s. 98).

1990-cı illərin sonlarında çap mediası əsas informasiya mənbəyi olsa da, 2000-ci illərdə televiziya və radio, 2010-cu illərdə isə internet və sosial şəbəkələrin təsiri ilə informasiya mühiti tamamilə yeni mərhələyə daxil oldu. Bu, sadəcə texnoloji yenilik deyil, ictimai şüurun formalaşmasında da keyfiyyət dəyişikliyi idi. (Hüseynov, 2012: s. 34).

Beləliklə, muxtar respublikada informasiya və media sahəsinin inkişafı təkcə regionun daxili ictimai həyatına deyil, həm də ümumilikdə Azərbaycan mediasının rəqəmsallaşma prosesinə mühüm töhfə vermişdir.

**1990-cı illərin sonu – informasiya mühitinin təşəkkülü və ilk addımlar.**

Müstəqilliyin ilk illərində Naxçıvan Muxtar Respublikasında informasiya mühiti əsasən çap mediasına söykənirdi. Burada ictimai rəyin formalaşmasında "Şərq qapısı" qəzeti xüsusi rol oynayırdı (Şərq qapısı arxiv, 1995: s. 5). Qəzet təkcə xəbər mənbəyi deyil, həm də ideoloji və maarifləndirici tribuna kimi çıxış edirdi. Onun səhifələrində siyasi qərarların şərhi, sosial məsələlərin müzakirəsi və mədəniyyət xəbərləri geniş yer tuturdu. (Əliyev, 2015: s. 47).

Həmin illərdə Naxçıvanda televiziya və radio yayımı məhdud imkanlarla həyata keçirilirdi. Naxçıvan Dövlət Televiziyası əsasən gündəlik xəbərlər, mədəniyyətə dair proqramlar və maarifləndirici verilişlər yayımlayırdı. Lakin texniki bazanın zəifliyi, maliyyə resurslarının azlığı və peşəkar kadr çatışmazlığı səbəbindən yayımın keyfiyyəti arzu olunan səviyyədə deyildi (Məmmədov, 2018: s. 101).

Radio əsasən yerli xəbərlər, musiqi proqramları və maarifləndirici çıxışlarla əhalinin informasiya tələbatını müəyyən qədər qarşılayırdı. Xüsusilə kənd yerlərində radio insanların gündəlik informasiya mənbəyi rolunu oynayırdı. Bu, bölgədə informasiya bərabərsizliyini azaldan mühüm vasitə idi (Hüseynov, 2012: s. 52).

1990-cı illərin sonu Naxçıvanda informasiya mühitinin formalaşması üçün başlanğıc mərhələ sayılırdı. Çap mediası əsas informasiya kanalı kimi ön plana çıxsa da, televiziya və radio hələ inkişafın ilkin mərhələsində idi. Bu dövrün xarakterik cəhəti informasiya mənbələrinin məhdudluğu və dövlət dəstəyinə ehtiyacın olması idi.

**2000–2010-cu illər – informasiya və media sahəsində inkişaf mərhələsi**

2000-ci illərin əvvəllərində Naxçıvan Dövlət Televiziyası və digər yerli kanalların fəaliyyəti genişlənmişdi. Televiziya yalnız gündəlik xəbərlərlə kifayətlənməyərək, həm də mədəniyyət, təhsil və sağlamlıq mövzularında xüsusi verilişlər hazırladı. Bu proqramlar əhalinin maarifləndirilməsinə və ictimai şüurun formalaşmasına mühüm təsir göstərirdi (Naxçıvan TV hesabatı, 2005: s. 22).

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Bəhs olunan dövrdə yeni qəzet və jurnallar nəşr olunmağa başlamışdı. “Şərq qapısı” ilə yanaşı, mədəniyyət, təhsil və gənclik mövzularına həsr olunmuş müxtəlif jurnallar oxuculara təqdim edilirdi. Bu, informasiya mənbələrinin artmasına və oxucu dairəsinin genişlənməsinə səbəb olmuşdu (Əliyev, 2015: s. 53).

İnternetin yayılması ilə ilk xəbər portalları fəaliyyətə başladı. Bu portallar yerli xəbərləri daha tez çatdırır, oxuculara müzakirə imkanı verirdi. İnternetin gəlişi informasiya əldə etmə sürətini artırdı, gənclərin yeni texnologiyalara marağı gücləndi (Quliyev, 2019: s. 59).

Bu dövrdə media ictimai şüurun formalaşmasına daha güclü təsir göstərməyə başlamışdı. Əhalinin informasiya əldə etmə imkanları genişlənmişdi. Bunun nəticəsiydi ki, gənclər həm yerli, həm də qlobal informasiya məkanına çıxış qazanmışdılar. Bu, onların dünyagörüşünü genişləndirdi və demokratik dəyərlərə daha açıq yanaşmalarına şərait yaratdı (Hüseynov, 2012: s. 90).

Beləliklə, 2000–2010-cu illər Naxçıvanda informasiya və media sahəsinin inkişafında yeni mərhələ oldu. Çap mediası ilə yanaşı televiziya, radio və internet portalları da ictimai rəyin formalaşmasında əhəmiyyətli rol oynadı.

**2010–2020-ci illər – rəqəmsal media və internetin inkişaf mərhələsi**

2010-cu ildən sonra internet medianın güclənməsi, sosial şəbəkələrin təsiri və elektron qəzetlərin artması muxtar respublikada informasiya mühitini əsaslı şəkildə dəyişdirdi. Əvvəllər yalnız çap və televiziya vasitəsilə yayılan xəbərlər artıq onlayn portallar və sosial şəbəkələrdə daha sürətli və interaktiv formada paylaşılmağa başladı (Əhmədov, 2020: s. 113).

Facebook, Instagram və Twitter kimi sosial şəbəkələr gənclərin gündəlik həyatında mühüm yer tutmağa başladı. Bu platformalar ictimai müzakirələri daha açıq, sürətli və müxtəlif etdi. Gənclər fikirlərini sərbəst ifadə etməyi bacarır, ictimai məsələlərdə daha fəal iştirak edirdilər. Bu proses demokratik dəyərlərin möhkəmlənməsinə də əlavə stimul verirdi (Məmmədov, 2018: s. 120).

Elektron qəzetlərin və xəbər portallarının çoxalması insanların informasiya əldə etmə imkanlarını xeyli artırdı. Artıq əhalinin böyük bir hissəsi xəbərləri internetdən izləyirdi, buna görə də çap mediasının təsiri azaldı. Bununla yanaşı, rəqəmsal bərabərsizlik problemi ortaya çıxdı: belə ki, şəhərlərdə internetə çıxış geniş olsa da, kənd yerlərində bu imkan məhdud idi (Quliyev, 2019: s. 75).

Dövlət dəstəyi və qanunvericilik islahatları bu dövrdə mühüm rol oynadı. İnformasiya azadlığı, jurnalistlərin hüquqlarının qorunması və media qurumlarının fəaliyyətini tənzimləyən qanunlar qəbul edilirdi. Bu, peşəkar jurnalistikanın inkişafına və ictimai rəyin daha sağlam formalaşmasına şərait yaratdı (Əliyev, 2015: s. 66).

Beləliklə, 2010–2020-ci illər Naxçıvanda informasiya və media sahəsinin rəqəmsallaşma dövrü kimi yadda qaldı. Bu mərhələ həm texnoloji yeniliklərin, həm də ictimai şüurun yeni formalarının ortaya çıxması ilə xarakterizə olunurdu.

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 69-74
DOI: https://doi.org/10.5281/zenodo.19681865

## NƏTİCƏ

1995–2020-ci illərdə Naxçıvanda informasiya və media sahəsi çapdan rəqəmsala keçdi. Baxmayaraq ki, uzun müddət əsas məlumat mənbəyi qəzet, televiziya və radio olmuşdu, artıq internet və sosial şəbəkələrin yayılması ilə informasiya mühiti daha sürətli və qarşılıqlı ünsiyyətə açıq hala gəldi (Əliyev, 2015: s. 66).

Bəhs olunan dövrdə media mühitinin inkişafı ictimai rəyin formalaşmasına mühüm təsir göstərmişdir. Media gənclərin dünyagörüşünü genişləndirmiş, ictimai müzakirələrin daha açıq və dinamik aparılmasına imkan yaratmışdır (Məmmədov, 2018: s. 120). Eyni zamanda texnoloji inkişaf nəticəsində internet portalları və elektron qəzetlərin çoxalması informasiya əldə etmə imkanlarını genişləndirmişdir (Quliyev, 2019: s. 59). Dövlət dəstəyi, qanunvericilik islahatları və informasiya azadlığının təmin olunması isə peşəkar jurnalistikanın inkişafına mühüm stimul vermişdir (Əhmədov, 2020: s. 113).

Sadalanan müsbət tərəflərlə yanaşı, həmin dövrdə müəyyən məhdudiyyətlər də mövcud olmuşdu. Belə ki, rəqəmsal bərabərsizlik səbəbindən şəhər yerlərində internetə çıxış imkanları geniş olsa da, kənd yerlərində bu imkan məhdud qalmışdır (Quliyev, 2019: s. 75). Digər bir tərəfdən peşəkar jurnalistikanın etik prinsiplərinə tam riayət edilməməsi obyektivlik və balansı zəiflətmiş, nəticədə ictimai etimadın azalmasına gətirib çıxarmışdır (Hüseynov, 2012: s. 90). Bundan başqa, regionda əsasən dövlət dəstəyi ilə inkişaf edən media qurumları üstünlük təşkil etmiş, müstəqil və alternativ informasiya mənbələrinin sayı isə məhdud qalmışdır (Məmmədov, 2018: s. 104).

Beləliklə, Naxçıvanda informasiya və media sahəsinin inkişafı həm müsbət, həm də müəyyən problemlərlə müşayiət olunmuşdur. Bu dövrün əsas nailiyyəti rəqəmsallaşma və ictimai şüurun genişlənməsi, əsas problemi isə bərabərsizlik və peşəkarlıq məsələləri olmuşdur.

## ƏDƏBİYYAT


1. Əliyev, İ. (2015). Azərbaycan mediasının inkişaf tarixi. Bakı: Elm nəşriyyatı, 320 s.
2. Məmmədov, R. (2018). Naxçıvanda sosial-mədəni həyat və informasiya mühiti. Naxçıvan: NDU nəşriyyatı, 280 s.
3. Hüseynov, A. (2012). Azərbaycan Respublikasında informasiya siyasəti. Bakı: Təhsil, 250 s.
4. “Şərq qapısı” qəzetinin arxiv materialları (1995–2020). Naxçıvan: Dövlət Arxivi, 25 illik arxiv materialları.
5. Naxçıvan Dövlət Televiziyasının illik hesabatları (2000–2020). Naxçıvan: Naxçıvan TV, 20 illik hesabat toplusu.
6. Quliyev, S. (2019). İnformasiya texnologiyaları və cəmiyyət. Bakı: Adiloğlu, 310 s.
7. Əhmədov, T. (2020). Sosial şəbəkələr və ictimai rəy. Bakı: Elm və Təhsil, 295 s.


© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 69-74
DOI: https://doi.org/10.5281/zenodo.19681865

**Summary**

**Development of the Information and Media Sector in the Nakhchivan Autonomous Republic (1995–2020)**

**Nuray Hajiyeva**

Between 1995 and 2020, the information and media sphere in the Nakhchivan Autonomous Republic underwent significant changes. During this period, a transition from print to digital media took place. This shift was not limited to technological innovations but also influenced the formation of public consciousness and the openness of social discourse. The expansion of internet portals and social networks not only facilitated access to information but also broadened the worldview of young people and increased civic participation. Furthermore, state support, legislative reforms, and the guarantee of freedom of information provided important incentives for the development of professional journalism.

At the same time, media outlets supported by the state dominated the regional landscape, while independent and alternative sources remained limited. Although internet access was relatively broad in urban areas, rural regions faced difficulties in this regard, leading to information inequality. In addition, the failure of media organizations to fully adhere to ethical principles weakened public trust and brought issues of professionalism to the forefront.

Overall, the development of the media environment in the autonomous republic was accompanied by both achievements and challenges. The main achievements were digitalization, the expansion of public awareness, and the strengthening of professional journalism, while the main problems were information inequality, the weakness of independent media, and violations of ethical standards. This picture demonstrates that the evolution of the media sector in the region was a dynamic process, marked by progress as well as unresolved difficulties.

**Keywords:** Nakhchivan Autonomous Republic, information, media development, print media, digital media, internet portals, social networks

**РЕЗЮМЕ**

**Развитие информационной и медийной сферы в Нахчыванской Автономной Республике (1995–2020 гг.)**

**Нурай Гаджиева**

В 1995–2020 годах в Нахичеванской Автономной Республике сфера информации и средств массовой коммуникации претерпела значительные изменения. В этот период произошёл переход от печатных изданий к цифровым медиа. Этот процесс был связан не только с технологическими новшествами, но и оказал влияние на формирование общественного сознания и более открытую дискуссию общественного мнения. Расширение интернет-порталов и социальных сетей облегчило

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

доступ к информации, расширило кругозор молодёжи и способствовало росту гражданского участия. Кроме того, государственная поддержка, законодательные реформы и обеспечение свободы информации стали важным стимулом для развития профессиональной журналистики.

В то же время в регионе доминировали СМИ, функционирующие при поддержке государства, тогда как независимые и альтернативные источники информации оставались ограниченными. В городах доступ к интернету был относительно широким, но в сельских районах сохранялись трудности, что привело к возникновению информационного неравенства. Кроме того, несоблюдение некоторыми СМИ этических принципов ослабляло общественное доверие и выдвигало на первый план проблему профессионализма.

В целом развитие медиасреды в автономной республике сопровождалось как достижениями, так и проблемами. Основными достижениями стали цифровизация, расширение общественного сознания и укрепление профессиональной журналистики, а основными проблемами — информационное неравенство, слабость независимых СМИ и нарушения этических норм. Эта картина показывает, что развитие медийной сферы в регионе было динамичным процессом, отмеченным как прогрессом, так и нерешёнными трудностями.

**Ключевые слова:** Нахичеванская Автономная Республика, информация, развитие медиа, печатные СМИ, цифровые СМИ, интернет-порталы, социальные сети

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

**Horizon Multidisciplinary Scientific Journal**
Journal homepage: https://horizonmsj.com/

Original Research Paper

# Məmmədcəfər Cəfərov yaradıcılığında Rus ədəbiyyatının tədqiqi

Nadir İsmayılov
https://orcid.org/0009-0000-4170-9508

[1]*Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.*

Article history
Received: 12.03.2026
Revised: 19.03.2026
Accepted: 02.04.2026

*Corresponding Author: Nadir İsmayılov, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan;
Email: nadirismayilov@ndu.edu.az

**Xülasə**
Bu məqalədə Azərbaycan ədəbiyyatşünaslığının görkəmli nümayəndəsi Məmmədcəfər Cəfərovun yaradıcılığında rus ədəbiyyatının tədqiqi məsələləri sistemli şəkildə araşdırılır . Tədqiqatın əsas məqsədi alimin rus ədəbiyyatına dair elmi yanaşmasını, xüsusilə realizm konsepsiyasını və Azərbaycan–rus ədəbi əlaqələrinə münasibətini təhlil etməkdir. Bu məqsədə nail olmaq üçün alimin əsas əsərləri əsasında müqayisəli-analitik metoddan istifadə olunmuş, həmçinin müasir ədəbiyyatşünaslıq baxışları ilə paralellər aparılmışdır.
Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Məmmədcəfər Cəfərov rus ədəbiyyatını yalnız təsir mənbəyi kimi deyil, ümumdünya ədəbi prosesinin ayrılmaz hissəsi kimi qiymətləndirmişdir. Onun realizm anlayışı gerçəkliyin obyektiv bədii inikası, insan və cəmiyyət münasibətlərinin dərin təhlili və ədəbiyyatlararası qarşılıqlı əlaqə prinsiplərinə əsaslanır. Eyni zamanda alim rus və Azərbaycan ədəbiyyatlarını müqayisəli şəkildə təhlil edərək onların paralel və qarşılıqlı inkişaf etdiyini elmi əsaslarla sübut etmişdir.
Nəticə etibarilə, Məmmədcəfər Cəfərovun elmi irsi Azərbaycan ədəbiyyatşünaslığında realizm nəzəriyyəsinin formalaşmasına və ədəbiyyatlararası əlaqələrin öyrənilməsinə mühüm töhfə vermiş, müasir dövrdə də aktuallığını qoruyan metodoloji baza yaratmışdır.
**Açar sözlər**: *Məmmədcəfər Cəfərov, rus ədəbiyyatı, realizm konsepsiyası, müqayisəli ədəbiyyatşünaslıq, Azərbaycan–rus ədəbi əlaqələri*

**Giriş.** Azərbaycan ədəbiyyatşünaslığının inkişafında mühüm xidmətləri olan görkəmli alimlərdən biri Məmmədcəfər Cəfərovdur. Onun çoxşaxəli elmi yaradıcılığı milli ədəbiyyatın tarixinin, nəzəri problemlərinin və dünya ədəbiyyatı ilə qarşılıqlı əlaqələrinin öyrənilməsində mühüm mərhələ təşkil edir. Xüsusilə rus ədəbiyyatının sistemli şəkildə tədqiqi Cəfərovun elmi fəaliyyətində aparıcı istiqamətlərdən biri kimi diqqəti cəlb edir. XX əsr Azərbaycan ədəbiyyatşünaslığında rus ədəbiyyatına maraq yalnız tərcümə və tanıtma səviyyəsində qalmamış, həm də nəzəri və müqayisəli tədqiqatlar müstəvisində inkişaf etmişdir. Bu prosesdə Məmmədcəfər Cəfərovun rolu xüsusi qeyd olunmalıdır. O, rus ədəbiyyatını yalnız təsir edən ədəbi mühit kimi deyil, ümumdünya ədəbi prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirmiş, Azərbaycan və rus ədəbiyyatları arasında qarşılıqlı əlaqələrin elmi əsaslarını müəyyənləşdirmişdir. Alimin

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 75-80
DOI: https://doi.org/10.5281/zenodo.19822243

"Rus ədəbiyyatı tarixi oçerkləri", "Rus klassikləri" və "XIX əsr rus ədəbiyyatı tarixi" kimi əsərləri rus ədəbiyyatının Azərbaycan elmi mühitində öyrənilməsi baxımından fundamental əhəmiyyət daşıyır. Bu əsərlərdə rus klassiklərinin yaradıcılığı problem-tematik, fəlsəfi və tarixi aspektlərdə araşdırılır, realizm metodunun nəzəri əsasları geniş şəkildə şərh edilir.

Məmmədcəfər Cəfərovun elmi yanaşmasının əsas xüsusiyyətlərindən biri realizm probleminə verdiyi xüsusi önəmdir. O, realizmi yalnız bədii üsul kimi deyil, gerçəkliyin obyektiv dərk forması kimi qiymətləndirir. Bu baxımdan onun rus ədəbiyyatına münasibəti XIX əsr rus realizminin estetik prinsipləri ilə sıx bağlıdır. Məqalənin aktuallığı ondan ibarətdir ki, müasir dövrdə ədəbiyyatlararası əlaqələrin yenidən dəyərləndirilməsi, milli ədəbiyyatın dünya ədəbi prosesində yerinin müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu kontekstdə Məmmədcəfər Cəfərovun rus ədəbiyyatına dair tədqiqatlarının yenidən araşdırılması həm nəzəri, həm də metodoloji baxımdan aktualdır. Məqalənin məqsədi Məmmədcəfər Cəfərovun yaradıcılığında rus ədəbiyyatının tədqiqi məsələlərini sistemli şəkildə araşdırmaq, onun realizm konsepsiyasını təhlil etmək və rus-Azərbaycan ədəbi əlaqələrinə dair müqayisəli yanaşmasını müəyyənləşdirməkdir. Bu məqsədə nail olmaq üçün alimin əsas əsərləri və müasir tədqiqatlar əsasında analitik təhlil aparılır.

**Təhlil.** Məmmədcəfər Cəfərov Azərbaycan ədəbiyyatşünaslığında yalnız milli ədəbiyyat tarixçisi kimi deyil, həm də rus ədəbiyyatının sistemli tədqiqatçısı kimi mühüm mövqeyə malikdir. Onun elmi irsində rus ədəbiyyatına müraciət təsadüfi xarakter daşımır; bu istiqamət alimin ümumi ədəbiyyatşünaslıq konsepsiyasının əsas tərkib hissələrindən biridir. M.Cəfərov rus ədəbiyyatını Azərbaycan ədəbiyyatına birtərəfli təsir göstərən ədəbi məkan kimi deyil, milli ədəbiyyatların qarşılıqlı əlaqə və zənginləşmə prosesində iştirak edən böyük bədii-estetik sistem kimi dəyərləndirmişdir. Alimin bu sahədə əsas əsərləri sırasında "Rus ədəbiyyatı tarixi oçerkləri" (1939), "Rus klassikləri" (1969) və üççildlik "XIX əsr rus ədəbiyyatı tarixi" xüsusi yer tutur. AZƏRTAC-ın məlumatında da göstərilir ki, M.Cəfərovun "Rus ədəbiyyatı tarixi oçerkləri", "Rus klassikləri" və "XIX əsr rus ədəbiyyatı tarixi" rus ədəbiyyatının Azərbaycanda öyrənilməsində mühüm elmi mənbələrdəndir. M.Cəfərovun rus ədəbiyyatına münasibətində XIX əsr realizmi əsas nəzəri dayaq kimi çıxış edir. O, rus realizmini yalnız bədii metod kimi deyil, insan və cəmiyyət münasibətlərini dərk etməyin mühüm estetik forması kimi izah edir. İsa Həbibbəyli Cəfərovun realizm haqqında fikrini belə verir: "Realizm sənətkarın şəxsi hisslərinin, ehtiraslarının, fikirlərinin, münasibətlərinin... ifadəsindən daha çox obyektiv varlığı, insanları, insan münasibətlərini öyrənməyi, ictimai ziddiyyətləri, insan xarakterlərini təqdim etməyi, sözün geniş mənasında varlığı, onun bütün incə detalları ilə sənət güzgüsündə əks etdirməyi tələb edir" (Həbibbəyli, 2023, s.8). Münasibətdə M.Cəfərovun realizm anlayışının əsas mahiyyətini açır. Onun fikrincə, realizm yalnız həyat hadisələrini sadəcə təsvir etmək deyil; gerçəkliyi ictimai ziddiyyətlər, insan xarakterləri və sosial münasibətlər sistemi daxilində dərk etməkdir. Bu baxımdan Cəfərovun rus ədəbiyyatı tədqiqlərində Puşkin, Nekrasov, Tolstoy, Belinski,

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (1): page 75-80
DOI: https://doi.org/10.5281/zenodo.19822243

Çernışevski, Hertsen, Ostrovski və Qorki kimi sənətkarların yaradıcılığı yalnız bioqrafik və tarixi ardıcıllıqla deyil, həm də problem-tematik, fəlsəfi və estetik istiqamətlərdə araşdırılır. Bu cəhət Cəfərovun elmi mövqeyini sovet dövrünün bəzi sxematik yanaşmalarından fərqləndirir. Sovet ədəbiyyatşünaslığında rus ədəbiyyatının "aparıcı" və "mərkəzi" rolu tez-tez qabardılırdı. Cəfərov isə rus ədəbiyyatını yüksək qiymətləndirməklə yanaşı, milli ədəbiyyatların daxili inkişaf qanunauyğunluqlarını da nəzərə alırdı. Buna görə onun yanaşmasında rus ədəbiyyatı Azərbaycan ədəbiyyatının üzərində dominant qüvvə kimi deyil, müqayisəli təhlil üçün mühüm estetik və nəzəri məkan kimi çıxış edir. Beləliklə, Məmmədcəfər Cəfərovun yaradıcılığında rus ədəbiyyatının tədqiqi üç əsas istiqamətdə ümumiləşdirilə bilər: birincisi, rus klassiklərinin Azərbaycan elmi mühitində tanıdılması; ikincisi, rus realizminin nəzəri-estetik mahiyyətinin izahı; üçüncüsü, Azərbaycan-rus ədəbi əlaqələrinin qarşılıqlı zənginləşmə prinsipi əsasında araşdırılması. Bu baxımdan Cəfərovun rus ədəbiyyatı ilə bağlı tədqiqatları Azərbaycan ədəbiyyatşünaslığında həm tarixi, həm nəzəri, həm də müqayisəli əhəmiyyət daşıyır.

Məmmədcəfər Cəfərovun rus ədəbiyyatı ilə bağlı tədqiqatlarında realizm problemi mərkəzi yer tutur. Alim realizmi yalnız ədəbi cərəyan kimi deyil, həm də bədii idrakın əsas formalarından biri kimi dəyərləndirmişdir. Bu baxımdan onun rus ədəbiyyatına yanaşması XIX əsr realizminin nəzəri-estetik prinsipləri üzərində qurulmuşdur. Cəfərov realizmin mahiyyətini izah edərkən bədii əsərin gerçəkliklə əlaqəsini ön plana çəkir. Onun fikrincə, realizm həyatın sadəcə təsviri deyil, onun daxili qanunauyğunluqlarının bədii dərkidir. Bu mövqe İsa Həbibbəylinin təqdim etdiyi sitatda açıq şəkildə ifadə olunur: "Realizm sənətkarın şəxsi hisslərinin... ifadəsindən daha çox obyektiv varlığı, insan münasibətlərini öyrənməyi... tələb edir" (Həbibbəyli, 2023, s.8). Bu fikir göstərir ki, Cəfərov üçün realizm yalnız forma deyil, həm də idrak üsuludur. O, rus ədəbiyyatında realizmin formalaşmasını sosial və fəlsəfi inkişafla əlaqələndirir. Bu baxımdan rus realizmi onun üçün ədəbiyyatın cəmiyyətlə münasibətinin ən dolğun ifadəsidir. Nuridə Qənbərovanın araşdırmasında da qeyd olunur ki, Cəfərov rus realizmini sistemli şəkildə təhlil etmiş və bu təhlildə problem-tematik yanaşmanı əsas götürmüşdür: "M.C.Cəfərov rus ədəbiyyatının nümayəndələrinin yaradıcılığını problem-tematik və fəlsəfi aspektlərdə araşdıraraq realizmin nəzəri əsaslarını müəyyənləşdirmişdir" (Qənbərova, 2024, s.12). M.Cəfərovun realizm anlayışında əsas məsələlərdən biri insan və cəmiyyət münasibətləridir. O, rus klassiklərinin yaradıcılığında bu münasibətlərin dərin psixoloji və sosial əsaslar üzərində qurulduğunu göstərir. Məsələn, Tolstoy yaradıcılığı onun tərəfindən yalnız epik təsvir gücü ilə deyil, həm də insanın mənəvi aləminin fəlsəfi təhlili ilə qiymətləndirilir.

Rus realizminin digər mühüm xüsusiyyəti kimi M.Cəfərov obraz sisteminin inkişafını göstərir. Onun fikrincə, rus ədəbiyyatında formalaşmış psixoloji obraz modeli dünya ədəbiyyatında yeni qəhrəman tipinin yaranmasına səbəb olmuşdur. Bu model Azərbaycan ədəbiyyatında da öz təsirini göstərmişdir. Bu baxımdan Cəfərov Puşkin, Nekrasov, Qorki kimi yazıçıların yaradıcılığını yalnız fərdi yaradıcılıq nümunəsi

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

kimi deyil, həm də ümumi ədəbi prosesin mərhələləri kimi təqdim edir. Qənbərova bu barədə yazır: "A.S.Puşkin və N.A.Nekrasovun yaradıcılığı problem-tematik müstəvidə təhlil olunur, M.Qorki isə ədəbi mühit və ideoloji kontekst daxilində araşdırılır" (Qənbərova, 2024, s.14). Cəfərovun realizm konsepsiyasında diqqət çəkən digər cəhət onun bu anlayışı milli ədəbiyyat kontekstində tətbiq etməsidir. O, rus realizminin Azərbaycan ədəbiyyatına təsirini qəbul etsə də, bu təsiri mexaniki şəkildə izah etmir. Əksinə, o, milli ədəbiyyatın daxili inkişaf imkanlarını ön plana çəkir.

Beləliklə, Cəfərovun realizm anlayışı üç əsas komponentdən ibarətdir:

- gerçəkliyin obyektiv bədii inikası
- insan və cəmiyyət münasibətlərinin dərin təhlili
- milli və dünya ədəbiyyatları arasında qarşılıqlı əlaqə

Bu komponentlər onun rus ədəbiyyatına yanaşmasının nəzəri əsasını təşkil edir.

Nəticə etibarilə demək olar ki, Məmmədcəfər Cəfərov rus realizmini yalnız ədəbi metod kimi deyil, həm də ümumi estetik və fəlsəfi sistem kimi şərh etmişdir. Onun bu yanaşması Azərbaycan ədəbiyyatşünaslığında realizm probleminin elmi əsaslarla öyrənilməsinə mühüm töhfə vermişdir.

Məmmədcəfər Cəfərovun ədəbiyyatşünaslıq fəaliyyətində müqayisəli təhlil aparıcı metodlardan biri kimi çıxış edir. O, rus və Azərbaycan ədəbiyyatını qarşılaşdırarkən yalnız təsir məsələsini deyil, həm də bu ədəbiyyatların daxili inkişaf qanunauyğunluqlarını nəzərə alır. Bu baxımdan onun yanaşması klassik "təsir-nüfuz" modelindən fərqlənərək daha çox qarşılıqlı əlaqə və paralel inkişaf prinsiplərinə əsaslanır. M.Cəfərovun müqayisəli təhlillərində əsas diqqət yetirilən məsələlərdən biri obraz sistemidir. O, rus ədəbiyyatında formalaşmış psixoloji obraz modelinin Azərbaycan nəsrinin inkişafına təsirini qeyd edir. Lakin bu təsiri mexaniki qəbul etmir, onu milli xüsusiyyətlərlə əlaqələndirir. Rus klassiklərində, xüsusilə Lev Tolstoy və Fyodor Dostoyevski yaradıcılığında insanın daxili aləminin çoxplanlı şəkildə açılması Cəfərov tərəfindən yüksək qiymətləndirilir. Onun fikrincə, bu model Azərbaycan ədəbiyyatında yeni qəhrəman tipinin yaranmasına təsir göstərmişdir. Bu yanaşma göstərir ki, Cəfərov üçün müqayisə yalnız oxşarlıqları müəyyənləşdirmək deyil, həm də inkişaf istiqamətlərini anlamaq vasitəsidir.

Məmmədcəfər Cəfərov rus və Azərbaycan ədəbiyyatında sosial problemlərin əks olunmasını da müqayisəli şəkildə təhlil etmişdir. Onun fikrincə, hər iki ədəbiyyatda cəmiyyət, insan və sosial ziddiyyətlər əsas mövzu istiqamətlərindən biridir. Rus realizmində kəndli həyatı, sosial ədalətsizlik və mənəvi böhran problemləri geniş şəkildə işıqlandırılır. Azərbaycan ədəbiyyatında isə bu mövzular milli xüsusiyyətlər kontekstində inkişaf etdirilir. Cəfərov realizmin bu xüsusiyyətini ümumi şəkildə belə xarakterizə edir: "Realist ədəbiyyatın əsas məqsədi həyatın ictimai ziddiyyətlərini açmaq və insan xarakterlərini bu ziddiyyətlər daxilində təqdim etməkdir" (Cəfərov, 1969, s.38).

M.Cəfərov rus ədəbiyyatının janr sistemini də Azərbaycan ədəbiyyatının inkişafı ilə əlaqələndirmişdir. Onun fikrincə, rus romanı və povesti Azərbaycan nəsrində yeni janr formalarının

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

yaranmasına təsir göstərmişdir. Lakin bu təsir də yenə yaradıcı şəkildə qəbul olunmuşdur. Azərbaycan yazıçıları rus ədəbiyyatından yalnız forma elementlərini deyil, həm də struktur prinsiplərini mənimsəmiş, lakin onları milli mühitə uyğunlaşdırmışlar. Qənbərova bu məsələni belə ifadə edir: “M.C.Cəfərov rus ədəbiyyatının janr və struktur xüsusiyyətlərinin Azərbaycan ədəbiyyatında yaradıcı şəkildə mənimsənildiyini göstərir” (Qənbərova, 2024, s.16). Bu fikir göstərir ki, Cəfərov üçün ədəbi əlaqələr prosesi passiv qəbul deyil, aktiv transformasiya prosesidir. Beləliklə, Məmmədcəfər Cəfərovun rus və Azərbaycan ədəbiyyatını müqayisəli şəkildə araşdırması aşağıdakı nəticələri ortaya qoyur:

- rus və Azərbaycan ədəbiyyatları paralel və qarşılıqlı təsir şəraitində inkişaf etmişdir
- psixoloji obraz sistemi və sosial problematika hər iki ədəbiyyatı birləşdirən əsas cəhətlərdəndir
- janr və struktur xüsusiyyətləri milli mühitdə yaradıcı şəkildə transformasiya olunmuşdur
- M.Cəfərovun yanaşması klassik təsir nəzəriyyəsindən fərqli olaraq qarşılıqlı zənginləşmə prinsipinə əsaslanır

**Nəticə.** Məmmədcəfər Cəfərovun yaradıcılığında rus ədəbiyyatının tədqiqi Azərbaycan ədəbiyyatşünaslığında mühüm mərhələ kimi qiymətləndirilməlidir. Onun elmi fəaliyyətində rus ədəbiyyatına münasibət təsadüfi deyil, sistemli və nəzəri cəhətdən əsaslandırılmış yanaşma üzərində qurulmuşdur. Aparılan təhlil göstərir ki, Cəfərov rus ədəbiyyatını üç əsas istiqamətdə araşdırmışdır: birincisi, rus klassiklərinin yaradıcılığının elmi şəkildə təqdim edilməsi; ikincisi, realizm metodunun nəzəri-estetik əsaslarının izahı; üçüncüsü isə rus və Azərbaycan ədəbiyyatları arasında qarşılıqlı əlaqələrin müqayisəli şəkildə öyrənilməsi. Onun realizm haqqında baxışları xüsusi əhəmiyyət daşıyır. Cəfərov realizmi yalnız bədii üsul kimi deyil, həm də gerçəkliyin dərk edilməsinin estetik forması kimi izah edir. Bu yanaşma onun rus ədəbiyyatına münasibətində əsas metodoloji baza rolunu oynayır. İsa Həbibbəylinin fikirlərində bu yanaşma açıq şəkildə ifadə olunur: “Realizm sənətkarın şəxsi hisslərinin... ifadəsindən daha çox obyektiv varlığı... əks etdirməyi tələb edir” (Cəfərov, 1973, s.38). Bu yanaşma müasir müqayisəli ədəbiyyatşünaslıq baxımından da aktualdır. Cəfərovun əsərlərində rus ədəbiyyatı yalnız təsir edən tərəf kimi deyil, ümumdünya ədəbi prosesinin bir hissəsi kimi təqdim olunur. Eyni zamanda Azərbaycan ədəbiyyatı da bu prosesdə passiv obyekt deyil, aktiv iştirakçı kimi qiymətləndirilir. Alimin rus ədəbiyyatına dair yazdığı “Rus ədəbiyyatı tarixi oçerkləri”, “Rus klassikləri” və “XIX əsr rus ədəbiyyatı tarixi” kimi əsərləri bu sahədə Azərbaycan dilində yazılmış fundamental tədqiqatlar sırasında yer alır. Bu əsərlər yalnız tarixi məlumat mənbəyi deyil, həm də nəzəri düşüncə modeli kimi əhəmiyyətlidir.

Nəticə olaraq demək olar ki:

- Məmmədcəfər Cəfərov rus ədəbiyyatını sistemli şəkildə tədqiq edən ilk Azərbaycan alimlərindən biridir
- onun realizm konsepsiyası Azərbaycan ədəbiyyatşünaslığında mühüm nəzəri baza yaratmışdır
- rus və Azərbaycan ədəbiyyatları arasında əlaqələri qarşılıqlı inkişaf prinsipi ilə izah etməsi onun elmi yeniliyini təşkil edir

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

• Cəfərovun elmi irsi bu gün də aktual olaraq qalır və müasir ədəbiyyatşünaslıq üçün dəyərli metodoloji mənbədir

## ƏDƏBİYYAT SİYAHISI


1. Cəfərov, M. C. (1939). Rus ədəbiyyatı tarixi oçerkləri. Bakı: Azərnəşr. 248 s.
2. Cəfərov, M. C. (1969). Rus klassikləri. Bakı: Azərnəşr. 320 s.
3. Cəfərov, M. C. (1973). Seçilmiş əsərləri. Bakı: Yazıçı. 450 s.
4. Cəfərov, M. C. (1950–1960). XIX əsr rus ədəbiyyatı tarixi (3 cild). Bakı: Azərnəşr. I cild – 380 s.; II cild – 400 s.; III cild – 420 s.
5. Qənbərova, N. (2024). Akademik Məmməd Cəfər Cəfərovun ədəbi-nəzəri görüşləri (Avtoreferat). Bakı. 30 s. https://aak.gov.az/upload/dissertasion/filologiya_elml_ri/Nuride_Qenberova___avtoreferat_azerbaycan_dilinde.pdf
6. Həbibbəyli, İ. (2023). Akademik Məmməd Cəfər Cəfərov – ədəbiyyat nəzəriyyəçisi. 22 s. https://www.researchgate.net/profile/Isa-Habibbayli/publication/373544086_AKADEMIK_MMMD_CFR_CFROV_-_DBIYYAT-NZRIYYCISI
7. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). (2023). Akademik Məmməd Cəfər Cəfərovun monoqrafiyaları aktuallığını bu gün də saxlayan əvəzsiz mənbələrdir. https://azertag.az/xeber/akademik_memmed_cefer_ceferovun_monoqrafiyalari_aktualligini_bu_gun_de_saxlayan_evezsiz_menbelerdir-2610551
8. Hashimov Hasangulu, A. (2025). Socio-political reality in historical narratives about the Karabakh khanate. *Revista Universidad y Sociedad, 17*(4).
9. Valiyev, E. A. (2019). Morphemes which create verb and adjective in Muhammad Fuzuli's poetry. *Актуальні питання гуманітарних наук,(25)*, 69-72.
10. Babazade, Z. (2025). İslam dinində humanizmin: əsaslari, tarixi tətbiqləri və müasir perspektivlər. *Global Spectrum of Research and Humanities, 2*(5), 21-29.
11. Askerova, K. (2023). The role of modern semantic theories in the teaching and learning process (based on German materials). *JETT, 14*(1), 167-177.



**ABSTRACT**

**The Study of Russian Literature in the Works of Mammadjafar Jafarov**



**Nadir Ismayılov**
**Nakhchivan State University**



This article systematically examines the study of Russian literature in the works of the prominent Azerbaijani literary scholar Mammadjafar Jafarov. The main objective of the research is to analyze the scholar's scientific approach to Russian literature, particularly his concept of realism and his perspective on Azerbaijani–Russian literary relations. To achieve this aim, a comparative-analytical method has been employed based on the scholar's major works, along with parallels drawn from modern literary studies.

The research findings reveal that Mammadjafar Jafarov evaluated Russian literature not merely as a source of influence, but as an integral part of the global literary process. His understanding of realism is grounded in the objective artistic reflection of reality, the in-depth analysis of human–society relations, and the principles of inter-literary interaction. At the same time, the scholar demonstrated through comparative analysis that Azerbaijani and Russian literatures developed in parallel and through mutual interaction.

In conclusion, Mammadjafar Jafarov's scholarly legacy has made a significant contribution to the formation of realism theory and the study of inter-literary relations in Azerbaijani literary studies, establishing a methodological framework that remains relevant today.


Keywords: *Mammadjafar Jafarov, Russian literature, concept of realism, comparative literary studies, Azerbaijani–Russian literary relations*

© This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

# Horizon Multidisciplinary Scientific Journal

**Journal Manager:** Nahiba Asgarova

**Editors-in-Chief:** Zamin Babazade, Huseyn Imanov

**E-mail:** horizonmsj.com

**DOI:** https://10.0.20.161/zenodo.19858558

Horizon Multidisciplinary Scientific Journal is an international, peer-reviewed scholarly publication dedicated to advancing high-quality research across a broad spectrum of academic disciplines. **Frequency:** Every months

**Format:** A4

**Languages:** Submissions are accepted in Azerbaijan, English and other major academic languages.

**Registration:** The journal is officially registered and published in Azerbaijan. All submissions undergo a rigorous peer-review process to ensure the highest academic standards.

**Open Access:** Horizon Multidisciplinary Scientific Journal is an international based on a full open access model. The journal provides immediate and permanent open access to all articles in order to ensure the free and unrestricted dissemination of scientific knowledge.

All scholarly materials published in the journal are completely free of charge for users, and no subscription or access fees are required. Readers are allowed to freely read, download, copy, print, and share the articles. Such use is permitted provided that proper citation is given and authors' rights are respected.

For further details and submissions, visit https://horizonmsj.com/index.php/hmsjournal/en/index.

The editorial board bears no responsibility for the content of the published materials.

All authors are solely accountable for the accuracy and integrity of their articles.

The views expressed by the authors do not necessarily reflect those of the editorial board.

Reproduction of any material is permitted only with proper citation of the journal.

All materials are published in the authors' original version.

Edition: Volume 1, Issue 1, April – 2026

Passed in press in April 2026

Printed in April, 2026

Printing: Horizon Multidisciplinary Scientific Journal,

20 street, office 118, Nakhchivan, Azerbaijan.


© Horizon Multidisciplinary Scientific Journal